QAN İNTİQAMI

I

Onun arvadı, sağ tərəfdəki böyük taxtın üstündə oturub, namaz qılan ərinin üzünə baxırdı. Süleyman kişi tez-tez əyilib qalxır, dodaqlarını yavaşcadan qımıldadıb nə isə oxuyurdu...

Bir neçə dəqiqədən sonra namazını qurtardı. Arxalığının döşünü düymələyib qabağındakı kiçik, bəzəkli xalçanı götürdü.

O, arvadı ilə mühüm bir iş barəsində danışmaq istəyirdi. Bir an düşündü, sonra gözlərini qarının üzünə dikdi, titrək bir səslə:

– Əyə! – dedi. – Bizim oğlan haraya getdi? Bu gün gərək onunla danışaydım, bu qədər uzatmağın nə faydası var?

– Hər gün özünə deyirəm – çiynini çəkir, özünüz bilərsiniz deyir.

– Yox, yox! Qızın vaxtı keçir, sən də ki, qocalıb gücdən düşürsən, daha gözləmək əl verərmi? Mən o gün özünə demək istədim; ancaq məni hədələdi. Oğlun yaman acıqlıdır. Eh! Bu günün cavanlarını da dindirmək olmur... – deyə Süleyman kişi əvvəlcə arvadın üzünə, sonra da yerə baxdı.

Bu anda qapı açıldı; gələn Əhməddi. O, əlindəki ağacı qapının bir bucağına atdı, sol tərəfdəki taxtın üstündə oturdu.

Süleyman kişi onunla açıq danışmağa hazırlaşdı. Əhməd, ata-anası ilə çox pis rəftar edirdi. Ancaq indi onun üzü gülürdü. Bu, qocaların xoşuna gəldi. Onlar sevindilər. Süleyman kişi:

– Oğlum! – dedi, – biz qocalmışıq, bu gün sabah ölüb gedəcəyik... Sən də böyüyüb yekə oğlan olubsan, özünün də gözəl-göyçək nişanlın var, gəl sən bu qoca atanın sözünə qulaq as, bu həftə toy tədarükünü görüb səni evləndirək.

Əhməd qızardı. Gülümsünən dodaqları titrədi, başını aşağı dikib, bir müddət dinməz-söyləməz dayandı, cavab vermədi. Anası da yerindən qımıldandı.

– Niyə utanırsan? Atana cavab versənə!.. – dedi.

Əhməd başqa dəliqanlılar kimi hazırcavab deyildi. O, deməyə bir söz tapmayıb, qarşısındakı iydə çubuğunu götürdü, əlində oynatmağa başladı.

Süleyman kişi isə oğlunun cavabını səbirsizliklə gözləyirdi.

Əhməd başını yerdən qaldırmayıb:

– Ata! Mən hələ evlənmək istəmirəm, – dedi.

Qocanın gözləri doldu, dodaqları titrədi, bu cavabdan heç razı qalmadı.

– Oğul! – dedi. – İyirmi bir yaşına çatmısan, bundan sonra evlənməsən daha nə vaxt evlənəcəksən? Biz də bir zaman sənin kimi idik. Sən bizim heç birimizə oxşamırsan. Özün gözəl bilirsən ki, evlənməkdən məqsəd dolanacaq düzəltməkdir. Sən də xalq kimi oğul-uşaq sahibi olmaq istəmirsənmi?

Əhməd gəncliyinin ən böhranlı bir dövrünü keçirirdi. Savadı az olsa da, düşüncəsi, fikri o qədər məhdud deyildi. O ata-anasının yanında birdən-birə açıq danışa bilməzdi. O, Süleyman kişinin sözlərini dinləməsə də, hər halda ona yaxşı, müsbət bir cavab verməyə məcburdu. Əhməd çox səbirsiz bir halda üzünə baxan qocalara:

– Bir sözüm yoxdur, – dedi. – Mən sizin məsləhətinizə razıyam...

Qocalar sevindilər. Bu cavab onlara ürək-dirək verdi.

* * *

Tutqun bir yaz gecəsi idi. Qara buludlar göyün üzünü örtüb ayın işığını gizləmişdi. Araba yolu kənarındakı biçənəklər, hərdənbir əsən xəfif külək qarşısında hərəkətə gəlib dalğalandıqca bir dərya tərpənişini andırırdı.

Kəndin aşağısı sakitdi, ara-sıra qaraltılara hürən itlərdən başqa heç kim ayıq deyildi. Abdulla Qurban oğlunun koması bu məhəllədə idi.

Koma yerdən güclə seçilirdi.

Bu anda iki qaraltı göründü. Onlar atlarını kənarda saxlayıb, yoldaşlarını ətrafa dağıtdılar: komaya doğru irəliləyərək, otluqda gizləndilər və o tərəf, bu tərəfə göz gəzdirib sürünməyə başladılar. Onlardan biri yuxarı məhəllənin məşhur dövlətlisi Şərif oğlu Həmzə idi. O, Abdulla Qurban oğlunun Əhmədə nişanlanmış, qızını götürüb qaçmağa gəlmişdi.

Qapının sol tərəfində bağlanmış it yatırdı. Onlar gözlərini bərəldib komaya baxır və gizlin cığırla qapıya yaxınlaşırdılar.

İçəridəkilər yatmışdı. Həmzə, xəncərini qınından çıxarıb hazırladı. Səssiz addımlarla içəri girdi.

Ehtiyatla yeriyib, qızı aramağa başladı. Əlindəki yaylıqla onun ağzını sarımağa hazırlaşdı.

Daxmadakı sükut hələ də pozulmamışdı. Yalnız yuxuda olanların hənirtisi eşidilirdi.

İçəri girənlər o tərəf, bu tərəfə vurnuxur, qızı tapmağa çalışırdılar.

Nazlı həmişəki kimi rahatca uyumuşdu.

Bu anda uzaqdan atın kişnəməsi eşidildi. İçəri girənlər səksəndilər. Abdulla kişilə arvadı oyandı. Çox keçmədi. İki yoldaş Nazlını tutub ağzını bərk-bərk sarıdı. Qoca özünü Həmzənin üstünə atdı, ancaq onun əlində parlayan uzun xəncərdən qorxub geri çəkildi.

Həmzə pis vəziyyət törəyəcəyini düşünüb, hər iki qocanı, bir də yenicə oyanan uşaqları tez komanın ortasındakı direyə sarıtdı və cəld addımlarla dişarı çıxıb atlarını yanındakı yoldaşlarına tərəf yüyürdü.

Qapıdakı it hürməyə başladı. Nazlı, Həmzənin qucağında çapalayaraq əlini-ayağını oynatdısa da, bir nəticə çıxmadı. Onu atın üstünə bağlayıb apardılar. Nazlının fəryadını heç kəs eşitmədi.

Bir azdan sonra kənddə tüfəng atmağa başladılar. Atlılar buna heç fikir verməyib dərə yolu ilə irəlilədilər, kənddən uzaqlaşıb meşəyə doğru getdilər.

* * *

Onlar meşədə düşüb dincəlirdilər. Atlarını ayrı-ayrı bağlayıb hərəsi bir tərəfdə uzanmışdı. Meşədə dərin bir sükut vardı. Uzaqdan gələn qatarın fit səsindən başqa bir şey eşidilmirdi.

Həmzə çox şaddı. Nazlını isə kədər boğurdu. O, həyatında belə bir çətinliyə rast gəlməmişdi. O, bu zülmün qarşısında tab gətirə bilməyəcəkdi; o, qadın idi, Həmzənin iti xəncəri, qanlı silahı qarşısında özünü müdafiə edə bilməzdi. Bunu çox yaxşı düşündüyü üçün də bir iş görə bilməzdi. İndi o, qanlı göz yaşı axıdır, gözlərini yerə dikib, tez-tez köksünü ötürürdü.

Səhər olurdu. Günəş, dağın arxasından kəsik şüalarını yerə səpirdi. Böyük meşənin üzərini bürüyən qara buludlar parçalanır, göy üzü işıqlanırdı.

Nazlının yanaqlarında solğun bir yarpaq pərişanlığı vardı. O, özünü qaçırdan və səadətinə mane olan Həmzəyə boyun əydi. Bu hadisəyə qarşı qəlbində yalnız bir kin saxladı, yalnız bir intiqam duydu.

Atlılar çox yatmadılar, hazırlaşıb yaxın kəndə yola düşdülər.

* * *

Bu xəbər bütün kəndə yayıldı. Qızın qaçırılması Əhmədi çox kədərləndirirdi. O sabahkı toy hazırlığı əvəzinə şikayətə getmək üçün atı yəhərləməyə başladı. Süleyman kişiyə müraciətlə:

– Ata, – dedi, – mən qabaqcadan bilirdim ki, o nəsildən bizə xeyir gəlməyib, onların dostluğu üzdəndir. Sən məni inandırdın... Mən bu hayıfı onda qoymayacağam. Bu gün qəzaya gedib naçalniki görəcəyəm, – deyə Əhməd yəhərin quşqunlarını bağlayıb qurtardı.

– Oğlum! Keçənə güzəşt deyərlər. Şikayətdən heç bir şey çıxmaz. Onlara Məhəmmədli deyərlər. Oxuyanları, qulluq eləyənləri, divan yanında hörməti olanları çoxdur, bizim şikayətimizə kim qulaq asacaq?

– Bəs divan nə üçündür? Mən qubernatoru görərəm, o ki, baxar...

Əhməd atasının sözünü dinləmədi. Atı minib qəzaya yola düşdü.

* * *

Abdulla kişi qızı qaçırılandan sonra tərəddüd içində qalmışdı. O, kəndlilər arasında davam edən kin və ədavətin şiddətlənəcəyini indidən görməyə bilməzdi.

– Kasıbların günü belə gəlib, belə də gedəcək. Məhəmmədəlinin ağalığı bu gün sabahlıq deyil ha?.. – deyə Abdulla kişi öz-özünə şikayətlənirdi. Onun heç bir çarəsi qalmamışdı. Əlindən nə gələrdi?

O, qonşularından at alıb şikayətə getməli idi. Ancaq onun sözünə kim qulaq asacaqdı? Rüşvət vermək lazımdır. Bunun üçün kimdən pul alacaqdı?

Hər tərəfdən əli üzülmüş Abdulla kişi, arvadını çağırdı, qəmgin bir səslə:

– Qızın xalçasını buraya gətir! – dedi.

Arvadın rəngi ağardı. Bu əmri anlamamış kimi soruşdu:

– Xalçanı neyləyəcəksən?

– Rüşvət aparacağam... – dedi, – bu dünyada rüşvətsiz heç bir iş görmək olmaz, ay arvad...

Qoca Abdulla yolda Əhmədə rast gəldi. Onlar şəhərə yetişər-yetişməz atlarını bir yerdə bağlayıb naçalnikin dəftərxanasına yollandılar. Dəftərxana qarşısında bir yığın kəndli vardı.

Naçalnikin hüzuruna getmək üçün bir müddət gözləmək lazım idi.

İçəridə isə naçalnikdən başqa heç kəs yox idi. Sol tərəfdə qoyulmuş masanın üstündəki kağızlar darmadağın olmuşdu. Naçalnik yumşaq kürsüdə oturub, nə isə yazırdı. Bəzəkli divardan asılmış telefon drınq... drınq... səslənirdi. Naçalnik, trubkanı götürüb cavab verdikdən sonra, masanın arxasındakı zəngi basdı, əvvəlki qayda ilə yerinə oturdu. Naçalnik əlindəki kağızı içəri girən xidmətçiyə uzadıb:

– Bunu poçta apar! – dedi.

Xidmətçiyə verilən kağız teleqram idi. Bəzi kəndlərdə bəylər və mülkədarlar yerləri öz əllərinə keçirib, kəndliləri əvvəlkindən daha artıq incitdiklərinə görə bir neçə dairədə kəndli üsyanı qalxmışdı.

Naçalnik kağızda: "üsyanı – talanı yatırmaq üçün bir dəstə qoşun göndərin!" – deyə bir sətir yazmışdı. O, əlindəki papirosu alışdıraraq havanı dumanlatdı və bir müddət qabağına tökülmüş ərizələri yoxlayıb bağırdı:

– Süleyman Məhəmməd oğlu kimdir?

Qoca bir kişi irəli girdi. Əlləri əsə-əsə naçalnikin üzünə baxdı.

Naçalnik soruşdu:

– A kişi! Bu ərizəni kim yazmışdır?

O, bu sualın cavabını verməkdən acizdi. Öz-özünə: "Bunu nə üçün soruşur?" – deyə fikirləşdi, birdən cavab verdi:

– Süleyman əfəndi yazıb. Başına dönüm, ağa! Bir təhər elə, – deyə ona yalvarmağa başladı.

Ərizəni yazan əski müəllim idi. Naçalnikin yanında az-çox hörməti vardı.

Naçalnik kağızın o biri üzünə bu sözü yazdı: "udovletvorit"[1].

Ərizə verən adam şəhərin kənarında bir evi kirayə götürüb orada yerləşmək istəyirdi. Özü kərpic zavodunda fəhləlik edirdi. Ailəsi bir sahibkarın zirzəmisində yaşadığından uşaqlarının hamısı yel azarına tutulmuşdu. Bir neçə gün əvvəl pristava müraciət edib, ondan müsbət cavab almadığına görə, naçalnikin bu qərarı onu çox sevindirirdi. Ərizəni götürüb sevinə-sevinə düz pristavın üstünə getdi.

Dişarıda isə qalmaqal qopmuşdu. Kəndlilərin çoxusu torpaq işi üçün gəlmişdi.

İndi Əhmədlə Abdulla kişinin növbəsi yetişirdi. Əhməd uzun xəncərinin dəstəyindən tutub, cürətlə içəri girdi və naçalnikin qarşısında dayandı:

[1] Təmin edilsin.

– Hə, sən nə istəyirsən? – deyə naçalnik soruşdu.

O, öz başına gələn hadisəni qəmgin bir səslə danışdı və bu haqsızlığın qarşısını almağı rica etdi. Naçalnik bu işdən bir o qədər baş açmadı. Qoca Abdulla kişi içəri girən kimi onu danışdırdı və əhvalatı bir qədər anlayan kimi oldu.

– Mən bu işi suda verərəm! – dedi, – ancaq bir ərizə yazdırmalısınız.

Naçalnik, o qədər də sərt xasiyyətli deyildi. Əksinə onda bir soyuqqanlılıq vardı. Hər bir işə etinasız baxmaqdan həzz alırdı. Çox zaman şikayətə gəlmiş adamı dinləmək əvəzinə, ağzındakı papirosu dumanladaraq halqalarını sayardı. O, bütün bu hərəkətilə əski rus zabitlərini xatırladırdı.

Bundan başqa hər şeydən çox ona ruh verən, onun sevinc və nəşəsini artıran bir şey də vardı: rüşvət!

Abdulla kişi gətirdiyi təzə xalçanı torbadan çıxaranda, naçalnikin dodağı titrədi, gözləri parıldadı.

Bu zaman naçalnik sözünü dəyişdi:

– Hə! – dedi, – mən bu işi tezliklə yoxlaram. Ümidvaram ki, düzələ.

Əhmədlə Abdulla kişi dəftərxanadan çıxdı. Naçalnik isə xalçanı masa arxasında gizlətdi. Dişarıda gurultu yenə davam edirdi. Kəndlilərin həyəcanı artırdı.

Naçalnikin əmrinə görə pristavın göndərdiyi strajniklər, bu həyəcanı boğurdular.

Əhmədlə Abdulla kişi isə ağır addımlarla, atlarını bağladıqları yerə gedirdilər.

II

Bu hadisədən bir həftə sonra, Nazlı ilə Həmzəni məhkəməyə çağırmışdılar. Əhmədlə atası da orda hazırdı. Hakim işin məzmunu ilə tanış olub, Həmzəni müqəssir gördü. Əhmədi danışdırmadı. Ancaq Nazlının kimə getməyə razı olduğunu bilmək istəyirdi.

– Özün bil... Mən atanı... Əhmədi bir gülləyə qurban eləyəcəyəm – deyə Həmzə onu hədələmişdi. Bu sözdən sonra Nazlı öz razılığını bildirəcək, iki adamı ölümə verməyə razı olmayacaqdı. Onun qoca, namuslu atası, öz sevgili qızına dərin bir ümid bəsləyirdi.

– Nazlı Abdulla qızı! – deyə məhkəmə sədri onu çağırdıqda, Nazlı atasının yanında yox, gizli danışdırılmasını rica etdi. Atasını, Əhmədi və başqa şahidləri dişarı çıxardılar. Nazlı: "Həmzəyə gedirəm!" dedi.

Bir azdan sonra hər ikisi əlləri-qoynunda içəri girdi.

Əhmədlə Abdulla kişiyə Nazlının cavabını söylədilər. Qızının bu hərəkəti qocanı çıxılmaz vəziyyətə saldı.

Əhməd isə qızardı, son dərəcə həyəcanlı bir hal aldı. Onun qəlbində bütün bu haqsızlığa qarşı bir üsyan alovlandı.

Abdulla kişi:

– Mən qızıma çəkdiyim əməyi istəyirəm. Onu mən bu yaşa çatdırmışam... – dedi.

Əhmədin Nazlıya etibarı çoxdu; o, Nazlının namuslu olmasına inanırdı. Ancaq Həmzənin işlədiyi qəbahətdən xəbərsizdi.

O, dinməz-söyləməz çıxdı, atını minərək Abdulla kişi ilə birlikdə kəndə yola düşdü.

Məhkəmə binası qarşısında duranlar arasında mübahisə davam edirdi. Çıxarılan qərardan razı qalan çox az idi.

* * *

Abdulla kişi:

– Əhməd! – deyirdi, – mən özüm dünya görmüş adamam. İndiyədək bir dəfə də görməmişəm ki, divanlarımız işi haqqına kəssinlər. Hamı bilir ki, Məhəmmədlilər bizim kəndin dövlətli, hörmətli, qüvvətli bir məhəlləsidir. Görünür ki, divan adamlarımız onlardan qorxurlar. Mən bu hökumətdən çox ümid gözləyirdim. Ancaq belə hökumət camaatı yola apara bilməz. Bunlar bu gün-sabahlıqdır...

– A kişi! Qız götürüb qaçmaqdan pis adət yoxdur; ancaq bu işdə təqsiri olana cəza veriləsi yerdə onun tərəfi saxlanır. Belə insafsız divana mən nə deyim? Biz dedik. Nikolay yıxıldı, kasıb-kusubun canı qurtuldu. Amma bu Nikolaydan da yaman oldu ki... – deyə Əhməd ona cavab verdi.

Əhməd özü də çoxdan tapdalanmış bir qızı ala bilməzdi. Alsa, o dəqiqə qohum-qardaşı arasında dedi-qodu qalxacaqdı. Onu namussuz adlandırıb hər yerdə abırdan salacaqdılar.

Günorta zamanı idi. Hava istiləşirdi. Yolun alt yanında parlayan Kür çayı, göydə uçuşan çəhrayı buludlar, böyük düzdə göyərən taxıllar, hər şey hərəkətdə idi.

– Bu belə getməz canım! Nikolayın yoğun boyunlu uryadniklərindən canımız yeni qurtarmışdı. İndi də kənd bəylərinin caynağına keçmişik... – deyə Abdulla kişi əlavə etdi.

Onlar kəndə yaxınlaşır, yorğun atları yavaş-yavaş sürürdülər.

Bu aralıq sahildə üç-dörd qaraltı göründü. Onları uzaqdan tanımaq olmazdı. Ancaq hər günkü kimi bu gün də səhər tezdən ta axşama qədər bir dəqiqə belə istirahət bilmədən əlləşən bu adamları kəndin uşaqları da tanıyırdılar. Onlar gəmiçilər idi.

Abdulla kişi:

– Əhməd! Bu gün Qarayazıya getsək, yaxşı olardı. Qoyunları yoxlayıb gələrdik, – dedi.

Əhməd razılığını bildirib əlavə etdi:

– Getsək, bir əmlik də kəsərlər! – dedi.

Onlar Kür sahilinə enərək atlarını gəmiyə çəkdilər.

Gəmi balaca idi. Hər tərəfi qovaq taxtalarından qayrılmış, üzəri də yaşıl rənglə rənglənmişdi. Gəmiçi cavan bir oğlandı. Gözlərində dərin bir səmimiyyət vardı. Bu günkü aclıq sanki ona təsir etməmişdi. O, öz atasından yalnız bu gəmini irs almışdı. Ev yox, yer yox, çörək yoxdu.

Hər zaman belə olur: yoxsulun həyatı onun qolunun qüvvətindən asılıdır. Cavan gəmiçi həyata olduqca nikbin bir gözlə baxırdı.

Müştərilərini görərkən sevinmiş kimi:

– Abdulla dayı! Uğurlar olsun, – dedi. – Haraya gedirsiniz.

– Sürüyə baxmaq istəyirik, oğlum! – deyə qoca istər-istəməz qımışdı.

Əhmədlə Abdulla kişi atlarının cilovundan yapışaraq o biri sahilə tərəf üzən gəminin altında dalğalanan Kürü seyr edirdilər. Kür bu gün sanki bir şeydən narazı qalmış kimi əsəbi dalğalarını sahildəki daşlara çırpır, gəmini o biri sahilə doğru sürüyürdü.

Onlar sahilə çıxanda atlarını mindilər və meşənin arasındakı cığırla getdilər. Qoyun sürüsünü tapa bilmədilər. Yenidən gəmi ilə keçib kəndə gəldilər.

Əhmədlinin qocaları, cavanları bu iki atlını yerə düşməmişdən qarşıladılar.

Abdulla kişi müztərib və qəmgin bir səslə:

– Qızı Həmzəyə verdilər, – dedi.

Bu xəbər hamını kədərləndirdi.

Əhməd o qədər qəmgindi ki, şəhərlə kənd arasındakı uzun yolu nə cür gəldiyini də bilmirdi.

Əhmədlə Abdulla kişi evə getdilər, bu qəmli xəbəri qonşularına da söylədilər.

* * *

Məhəmmədlidə öz qoçaqlığı ilə hörmət qazanmış Rəsul Hacı oğlu:

– Mən onları qırıb tükətməyi öz öhdəmə alıram, – dedi.

Bu sözdən sonra çöldə Əhmədli çobanlarını, araba yolunda odunçuları, əkin yerlərində qoca kişiləri incitməyə başladı. Ancaq əhmədlilər də o qədər qüvvəsiz deyildi. Onların da içində kəndlilərin yaxşı tanıdığı dəliqanlılar vardı. Süleyman Həsən oğlu bir az oxuyub-yazmağı bacarırdı. O, bir gün Rəsula belə bir kağız göndərdi:

"Rəsul!

Biz əvvəlləri dost və qardaş kimi dolanırdıq. Əhmədli və Məhəmmədli kimi iki böyük nəslin düşmənçiliyi çox pis nəticə verər. Siz özünüzü kəndin ağası hesab edib, bizim çoban-quzuçuları, nökərləri və hətta bəzi cavanlarımızı döyüb, bizi camaat içində rüsvay eləyibsiniz. Mən, səni xəbərdar edirəm və çox təvəqqə edirəm ki, ağalığınıza hüdud qoyasınız, axırı çox pis olar.

Süleyman"

Rəsul kağızı alıb məhəllədəki mollaya oxutdu. Məzmunu ilə tanış oldu. Ancaq Süleymanın təklifindən heç razı qalmadı. Bir qədər düşündü; Süleymanla əvvəlki dostluğunu xatırladı. Bu işdən vaz keçib heç kimi incitməməyi qərara aldı.

* * *

Bir neçə il əvvəl qulluq üçün şəhərə getmiş Şamil Qasım oğlu bu günlərdə kəndə qayıtdığına görə onun böyük qardaşı Cavad, ziyafət verib Əhmədli cavanlarını qonaq çağırmışdı.

Əhmədlə Süleyman da burada idi. Qonaqlıq o qədər də sadə deyildi. Otuz nəfərə qədər cavan, kefə məşğul olmuşdu.

Birdən dişarıda bağırtı qopdu. Onlar əvvəlcə buna əhəmiyyət vermədilər. Səs birdən kəsildi. Bir neçə dəqiqə də keçdi. Sonra daha müdhiş bir bağırtı qopdu.

Süleyman bu səsi eşidərkən Məhəmmədin səsini tanıdı və tüfəngini götürüb dişarı çıxdı. O, araba yolunun altındakı ətrafı qalın otlarla

çulğalanmış kiçik cığırla gedib söyüşənlərə yaxınlaşdı, bütün qüvvəsini toplayıb onların hərəsini bir tərəfə itələdi:

– Nə olub? Nə üçün bir-birinizə yaman deyirsiniz? – deyə soruşdu.

Süleyman onların cavabından anladı ki, Məhəmmədlidən iki nəfər adam, yolda Əhmədli çobanını döyüb yapıncısını alıblar, bu çoban sahibi Əsədi acıqlandırmış və belə təhqirlərin qarşısını almaq məqsədilə məhəmmədlilərin yolunu kəsib söyüşmüşdür.

Əsəd indi döyülmüş çobanın nə təqsiri olduğunu soruşur, ağzına gələni deyirdi:

– ...Uşaqlar, hamınızı bir güllәyə qurban edəcəyəm, – deyə bağırırdı.

Məhəmmədlidən Mikayıl adlı birisi, qırmızı osmanlı tüfəngini qaldırıb Əsədə doğru uzatdı. Onun kəlləsindən vurub yerə sərdi. Bunu görən Süleyman, səngərə bənzər bir yerə girib işin sonunu gözlədi. O, düşüncəli və ciddi olmasına baxmayaraq çox davam edə bilmədi, tüfənginin tətiyini basmağa məcbur oldu.

Süleymanı görə bilmədilər. O, məhəmmədlilərin arxasını kəsmişdi. Onlar da çuxurlara dolub, güllə yağdırmağa başladılar. Süleymanın arxa tərəfindəki damın üstünə çıxan qızlar və gəlinlər gizləndilər, ortalıq təmizləndi.

Bu məhəllədə Cavad Şamil oğlunun arvadı Məhəmmədli nəslindən olduğuna görə tez atası evinə qaçıb Süleymanın gizləndiyi yeri nişan verdi.

– O, bir adamı da sağ qoymayacaq. Hamınızı öldürəcək... – deyə xəbərdarlıq etdi.

Bir azdan sonra Süleymanın arxasından zəhərli güllələr yağdı. Əhmədli gənclərinin hamısına bərabər ola biləcək bu adamı qızıl qana boyadılar. Onun tüfəngi özündən iki addım kənara düşdü...

* * *

Yenidən başlanan bu ədavət, bir gün ara verdi.

Əhməd bu işə biganə qalmadı. O, bütün Əhmədlini öz düşmənləri əleyhinə qaldırmağa çalışır və ciddi hazırlıq görürdü.

Məhəmmədlilər, Əhmədin əmisi oğlunu və bir neçə Əhmədli çobanını tutub dama salmışdılar. Keçən gün çöldə mallarını otararkən, bir-iki heyvan biçənəyə düşüb, azacıq bir yeri ayaqlamışdı. Onları döydükdən sonra qollarını bağlayıb gətirmiş və iki gün ac, susuz saxlamışdılar. İndi də malları buraxmaq istəmirdilər.

Əhməd, cavanları öz başına yığıb gecə vaxtı məhəllənin ətrafını kəsmiş, dişarı çıxanları bir-bir vurub öldürmüşdü.

Ancaq məhəmmədlilər qüvvətli olduqlarına görə heç bir şeydən qorxmayaraq, malları buraxmamışdılar.

Hökumət də bu işə qarışmırdı. Onların bu hərəkətinə qarşı heç bir tədbir görmürdü.

Bu vəziyyət, məhəmmədlilər üçün daha əlverişli idi. Onlar istədiklərini edə bilərdilər.

Əhməd bunların hamısını görürdü. O, Məhəmmədli nəslindən qüvvəsiz olduğunu da anlayırdı.

Bir yaz səhəri, birdən Əhmədlini atəşə tutdular. Evləri mühasirəyə alıb, Əhmədi diri-diri tutaraq aparmaq istədilər. Ancaq o, bir neçə yoldaşı ilə bərabər, evlərinin qarşısında qazdığı səngərə girib üzərinə hücum edən düşmənləri güllələyirdi. Məhəmmədlidən üç nəfər, Əhmədlidən isə çörək aparmaq üçün qışlaqdan kəndə gəlmiş bir çoban öldürüldü. Toqquşma çox sürdü. Axşam qaş qaralanda məhəmmədlilər geri çəkilib gizləndilər.

Gecəyarı olmamışdı. Ay öz solğun işığını ətrafa səpib kənd üzərini işıqlandırırdı. Hər tərəfdə dərin bir sükut qanad gərmişdi. Əhmədin gözünə isə yuxu getmirdi. O, kiçik qardaşını göndərib, qonşularının ayıq olmasını tapşırdı. Atasını səslədi və yenə düşmənləri ilə vuruşmağa gedəcəyini söylədi. Atası əvvəlcə razı olmayıb dedi:

– Oğlum! Biz onsuz da qırılıb qurtardıq. Əhmədli kimi böyük bir nəslin əli tüfəng tutanlarını qara torpağa tapşırdıq. İndi sən, bir də ki, əmin uşaqları qalıb. Heç bir vuruşma lazım deyil. Qoy onlar sənin üstünə gəlsinlər.

Süleyman kişinin bu sözləri ona təsir etmədi. Əhmədin bir məqsədi vardı; ya ölmək ya öldürmək! O, atasının sözünə qulaq asmayıb cəld dişarı çıxdı və yoldaşlarını çağırdı.

Bir azdan sonra kənddə yenə də gurultu-partıltı qopdu. İtlər hürüşdülər. Evlər üzərində güllələr vıyıldayaraq uçdu.

Əhmədlə yoldaşlarının dayandığı yer möhkəm və dalda idi. Əhməd, Məhəmmədli nəslindən olan mülkədar Aslanın evinə yaxın bir çuxurda səngər qazmışdı. O, birdən irəli sıçrayıb, əlindəki tüfəngi yerə atdı, özü mal damına girdi. Tez dişarı çıxıb:

– Uşaqlar! Neft gətirin, evə od vuracağam! – deyə bağırdı.

Əhməd özünü itirmiş kimi idi, yanındakı yoldaşları bu əmri o dəqiqə yerinə yetirdilər. Aslanın evi alovlanır, içəridə yatanlar yanıb külə dönürdülər.

İndi məhəmmədlilər əzilir, tökdükləri qanın əvəzini verirdilər.

Ancaq çox keçməmişdi, onlar bu hücumun qarşısını almağa başladılar. Alovu sürətlə yararaq, ətrafı bürüdülər və Əhmədgili tez geri çəkilməyə məcbur elədilər...

III

Məhəmmədlilər su yolunda Əhmədli nəslindən iki qızı tutub tikə-tikə doğradılar.

İndi kimsə dişarı çıxa bilməzdi. Yalqız olaraq bir kəndə getmək, son dərəcə çətinləşdi. Bu günlərdə kənddən yaraqsız iki addım uzaqlaşmaq ölümə getmək kimi bir şeydi. Ona görə də hər iki nəsil, atlı dəstələr düzəltdi. Bir nəfər yola salınanda bütün dəstə yaraqlanır, atlanırdı.

Bir gün əhmədlilər yuxarı gedib qohumlarından birinin evinə düşmüş və bir az istirahət etdikdən sonra Qarayazı meşəsinə keçərək yoldaşlarının ikisini Tiflisə patron gətirməyə göndərmişdilər. İndi təkrar onları qarşılamaq üçün Kür qırağına yola düşürdülər.

Onlar bu kənddən bir neçə tüfəngli adam da apardılar. Kür sahilinə çatıb gəmiçiləri aradılar, tapa bilmədilər. O taya keçmək də mümkün deyildi. Atlılar geri dönüb şose yoluna çıxdılar.

Günorta zamanı idi.

Məhəmmədlilər, tez bunları görüb hazırlanmağa başladılar. Həmzə hamıdan əvvəl atlıları tanıdı və yoldaşlarını çağırdı:

– Gəlirlər, hazır olun! - dedi.

Bu zaman iki düşmən nəslin heç birinə qohum olmayan qoca bir kişi Məhəmmədliyə yaxınlaşırdı.

O:

– Ay bala, Həmzə, zəhmət çək, buraya gəl! – deyə səsləndi.

Həmzə ona yaxınlaşdı və salam verdi. Qoca kişi onun qolundan tutub kəndin ortasına apardı. Təpədə oturdular. Qoca qan intiqamına nifrət bəsləyən bir adamdı. Aradakı sakitlikdən istifadə edib, gənclərə nəsihət vermək və onları bu işdən saqındırmaq üçün gəlmişdi.

– Oğlum, atanı buraya çağır, yoldaşlarını da gətir, gəl! – dedi.

Həmzə elə bil düşmənlərini unutdu. Onun ricasını rədd etmədi. Bir dəqiqədə məhəllənin bütün başı papaqlılarını topladı. Qoca kişi öyüd verməyə başladı:

– Camaat! Ay camaat! Bu vuruşmaların bizə nə xeyri var? Divanın gözü yumulub, heç kimə bir söz deyə bilmir. Amma arada bizim qanımız tökülür, biz zərər çəkirik. Kəndin qiymətli cavanları tələf olub gedir, axır buna nə üçün razı olursunuz?

Dəliqanlılardan biri mırıldandı:

– A kişi! Burax, qoy işimizi görək!..

Qoca yenə sözünə davam etdi:

– Kəndimizdə düşmənçilik çox olub. Ancaq mən bu cürəsini ömrümdə görməmişəm. Əl çəkin bu qan tökməkdən, kəndin çox yarısını ölümə verməkdən əlinizə nə gələcək? Allaha baxın, yola gəlin!..

Qocalar başlarını yerə dikib onu dinləyirdilər. Geridə oturmuş dəliqanlılardan bəzisi onun bir kəlməsini belə eşitmək istəmirdi.

– ...Xalq uşağını oxudub adam eləyir, amma siz balalarınıza çapıb-talamağı, öldürüb-yıxmağı öyrədirsiniz, – deyə qoca bir qədər sükuta daldı, sonra üzünü Həmzəyə tutdu:

– Oğlum! Sənin xətrini oğlumdan çox istəyirəm. Səndən heç gözləməzdim ki, bu qədər cavana qıyasan. Axı canından niyə keçirsən? Sənin kimi cavanlar qulluğa girib, adam olub. Amma sən qan tökürsən, adam öldürürsən. Mənim Əhmədliyə qohumluğum çatmaz, oraya gedəcəyəm. Özümə söz vermişəm ki, o tərəfi də razı salım.

Qoca çox qəmli və məhzun görünürdü. Onun dodaqları və səsi titrəyirdi. O, çox çətin danışır, tez-tez dayanıb, müvafiq sözlər arayırmış kimi fikrə gedirdi.

– ...Siz mənim məsləhətimə qulaq asın, camaat! Kənd dağılıb gedir, kənardan sizə baxanlar gülürlər. Dost var, düşmən var. Onları niyə üstünüzə güldürürsünüz?

O, çox danışdı. Onun sözləri deyəsən təsirsiz qalmamışdı. Ancaq Həmzənin məqsədi isə Əhmədi öldürmək, Nazlının ümid qığılcımını söndürmək idi.

Qocalar sabah barışmağı məsləhət gördülər. Cavanlara ayrı-ayrılıqda öyüd verib onları da razı saldılar.

Atlılar isə kəndə yaxınlaşırdılar. Onlar da söhbət edib, atlarını qamçılayırdılar. Əhməd:

– Nə üçün bir-birimizi öldürüb tələf edirik? – deyə öz-özünə sual verirdi.

Hər kəs öz qoçaqlığından danışır, yoldaşından geri qalmamağa çalışırdı. Ancaq Əhmədli ağsaqqallarının yığıncağı hamının planını pozdu.

Əhmədin atası:

– A bala, Əhməd! Atlarınızı uşaqlara verin, gəzdirsinlər, özünüz buraya gəlin, – deyə səsləndi.

Əhməd yoldaşlarını çağırdı, yığıncağa gətirdi.

Hələ qocalar ucadan söhbət edirdilər. Yaxın məhəllələrdən də gələnlər vardı.

Bu arada cənub tərəfdən göy gurladı. Səmanı qara buludlar sardı. Günün işıqları buludlar arasında itib getdi.

Həmin qoca burada da əvvəlcə dediyi sözləri təkrar etdi. Sonra üzünü camaata tutub:

– Mən, – dedi, onları razı elədim, ümidvaram ki, siz də mənim məsləhətimə qulaq asacaqsınız.

Qocanın dediyi gənclərdən bəzisini narazı salsa da, hamı barışmağa razılıq verdi. Hər kəs öz evinə dağıldı.

* * *

Nazlının həyatı son dərəcə ağır keçirdi. O, Həmzədə heç bir sevgi nişanəsi görmürdü. Üç-dörd gün davam edən səmimiyyət də son günlərdə aradan silinib getmişdi. Həmzə kiçik bir şey üçün əsəbiləşir, bəzən də Nazlını döyüb qabırğalarını əzirdi. Nazlı bu evə gələn gündən bəri qaçmaq üçün müsaid bir vaxt arayırdı. Lakin o haraya, kimin yanına gedəcəkdi? O, belə bir sualı qarşısında qoymadığı üçün cavabını da tapmamışdı. Atası, "qızım var" demirdi, Əhməd isə Həmzə kimilərinin arvadını almayacaqdı. Nazlıya elə gəlirdi ki, onun bu işdə heç bir suçu yoxdur.

Bir yaz gecəsi idi. Hər tərəfi əsrarəngiz bir sükut bürümüşdü. Gediş-gəlişdən bir əsər yox idi.

Nazlı hamını yuxuda qoyub paltarını geyindi və səssiz addımlarla dişarı çıxdı: "Mən haraya gedirəm?" – deyə öz-özünə danışmağa başladı: "Atamın yanına gedə bilərəmmi? Yox, mən ancaq anamın yanına gedəcəyəm!" – dedi.

Nazlı, evin böyründən uzanan cığırla yüyürdü. Cığırın hər iki yanından uzanan yaşıl otlar Nazlının nəzərində böyüyür, nərəsi bir adam

kimi onu qorxudurdu. O, gözlərini qaranlığa zilləyərək dörd yanını nəzərdən keçirirdi, qulağını şəkləyib ətrafı dinləyirdi.

Nazlı zəif bir yarpaq kimi titrəyirdi, onun dodaqları əsir, ürəyi də şiddətlə döyünürdü. O, elə bil öz içindən belə bir səs eşidirdi: "Nazlı, yaxşı iş görürsən, qaç qurtar, əzizim!".

Nazlı evlərinə yaxınlaşdı. Səssiz addımlarla içəri girdi.

Evdə hamı yatmışdı. Yatanların zəif hənirtisindən başqa heç bir səs eşidilmirdi. Nazlı bu ailənin, əskidən, çox əskidən ən mehriban, ən istəkli bir üzvü idi. Onun buraya girməyə və istədiyi yerdə yatmağa ixtiyarı vardı. Ancaq o, atasının qorxusundan yenə də titrəyirdi. Nazlı bu qorxunu güclə unudaraq irəlilədi və anasının yanında oturdu. Titrək bir səslə:

– Ana! – dedi.

Çox sayıq yatan qarı bu səsə diksinərək qalxdı və qızını tanıdı.

– Bala! – deyə onu bağrına basdı. Bir müddət qolları arasında sıxdı, üzündən bir neçə dəfə öpdü. Nazlını yenə də buraxa bilmədi. O, qızını yırtıcı bir canavar pəncəsindən zorla almış kimi idi. Hisli çırağı yandırıb, yanında qızı üçün yer saldı. Bunların söhbətinə Abdulla kişi də oyandı. O, Nazlını görər-görməz özünü itirdi. Qocanın zəif vücudu titrədi; dişləri qıcırdadı; əvvəlcə Nazlını boğub parçalamaq istədi. Lakin... övlad məhəbbəti buna yol vermədi. O, qəmgin gözlərilə qızına baxdı:

– Nazlı, səndə təqsir yoxdur, bala! Müqəssir Həmzə kimi baş kəsən quldurlardır.

Nazlının kiçik qardaşı və bacısı da oyandı. Nazlı onları qucaqlayıb üzlərindən öpdü. Ailəni qaplayan kədər, elə bil bir an içində silinib getdi. Onlar sanki yenicə yaşamağa, yenicə şənlənməyə başlayırdılar.

* * *

Həmzə bu həqarətə dözə bilmədi. "Nazlının boğazını sərçə kimi üzəcəyəm" – deyə öz-özünə mırıldandı. Lakin o, düşmənçiliyin yenidən başlanacağını bildiyi üçün bu işə soyuqqanlı yanaşdı. O indi Nazlını sevmirdi. Ancaq onu elə gətirmək üçün bütün kəndə çaxnaşma salmışdı. Sabah tezdən, Nazlının gecə vaxtı, ərinin qoynundan durub qaçdığını söyləyənlərə o nə cavab verəcəkdi?

Eşikdən Həmzəni çağırdılar. Yaxın yoldaşlarından bir neçə nəfər, onu görmək istəyirdi.

Həmzə onların yanına gedib, nə üçün gəldiklərini soruşdu. Onlar Həmzənin kefsiz olduğunu görüb, heç bir şey demədilər. Ancaq əziz yoldaşı belə ağır bir vəziyyətdə qoyub getmək olmazdı. Dəliqanlılardan biri:

– Həmzə! İndi nə cür tədbir görmək fikrindəsən? – deyə soruşdu.

Həmzə bir müddət dinmədi, yalnız çiynini çəkdi və sonradan-sonraya:

– Nazlını zorla alıb gətirməliyik! – cavabını verdi.

* * *

Tutqun havalı bir yaz gecəsi... Məhəmmədlilər tərəfindən Abdulla kişinin evinə doğru gedən üç-dörd qaraltı görünür. Onları daxmaya doğru dünənki əhdləri çəkib aparır. İndi Nazlını zorla gətirməyə gedirlər.

Həmzə dodağını çeynəyir, arvadına qarşı ürəyində düyüm bağlayan ədavəti boğub məhv etməyə çalışır.

– Kərim! – deyə yoldaşını səsləyir, – aşağıdan gedin, görən olar!..

– İndi hamı yuxudadır, kim var, kim görə?

Onlar irəliləyirlər... Ancaq Nazlını evdə tapa bilməyib kor-peşman geri qayıdırlar. Nazlı tövlədə kiçik qardaşı ilə qucaqlaşıb yatır. O, rahat yuxuda, bu adamların gəlməsindən xəbər tuta bilməz ki?..

Abdulla kişi də bu gəzintidən xəbərsizdir. O da yatır. Heç oyanmaq fikrində də deyil. Çünki insan oğrularını heç gözləmir...

* * *

Yenə bizdən nə istəyirlər? Kişi kimi barışıb əhd-peyman eləmədikmi? Nə üçün yenə də bizim çobanları incitməyə başlayıblar? – deyə Əhməd dünən olmuş hadisəni öz yoldaşlarına söyləyir.

Dəliqanlılardan biri:

– Canım baş tutmaz, bu barışığın axırı yoxdur! Onlar qandan əl çəkən məxluq deyillər, – deyə əlavə edir.

Əhməd:

Yox, yox! Buna cavab vermək lazımdır. Gedək Həmzəni çağıraq deyək! Görək bu nə əhvalatdır? – deyir.

Hamı bu məsləhətə razı olur, kəndin ortasına doğru gedirlər. Xəncər və tüfəngləri yanlarındadır. Onlar hər zaman ehtiyatlı tərpənirlər. Əhməd tüfəngini doldurub, xəncərini də sağ tərəfdən asmışdır. Başındakı qıvırcıq tüklü papağını gözünün üstünə basıb, ağır addımlarla gedir, Həmzəgilə yaxın bir yerdə durur, onu səsləyir. Kəndin başqa dəliqanlıları da yavaş-yavaş toplaşırlar. Əhməd gülərüzlə Həmzəyə:

– Sizin, – deyir, – çobanlarınız bizim qoyduğumuz şərtdən deyəsən xəbərsizdirlər, uşaqları döyüb qoyun aparıblar.

– Əhməd! Sən öləsən bizim xəbərimiz yoxdur. Mən onlara tapşırmışam, görünür nəyin üstə isə dalaşıblar, – deyə Həmzə onu qarşılayır.

Əslində bu Həmzənin işidir. O, çobanlara sifariş göndərib, aranı qarışdırmağı tapşırmışdır. Ancaq hər kəs razılıq edib, evə qayıdır. Məsələ sülh yolu ilə həll olunur.

IV

Qış girmək üzrədir. İki gün əvvəl seyrək-seyrək qar düşməyə başlamış, havalar soyumuşdur. Ancaq kənddən dava-dalaş, səs-küy azalmır. Kəndin ortasında yenə qalmaqal qopmuşdur.

Vəli Hacı oğlu adında bir qolu zorlu, əhmədlilərdən olan bir kəndlinin üstünə bağırır:

– Dörd ay gəldi keçdi verdiyim on manatı niyə geri qaytarmadın? Mən bu pulu divan gücünə sənin qabırğandan çıxardaram.

Dəliqanlılardan bəziləri də buradadır. Əhməd yenicə odun gətirib, çörək yedikdən sonra tez yığıncağa gəlmişdir. İndi Hacı oğlu dinmir. Kəndlinin cavabını dinləyir:

– Vəli dayı! Axır biz o qədər də etibarsız adam deyilik, uşaqlar şəhərə heyvan aparıblar, satıb pulunu gətirəcəklər. Sənin on manatını günü sabah verərəm.

Bu halda aşağıda hay-küy qopur. Bir tüfəng səsi eşidilir. Hamı söhbəti buraxıb o tərəfə yüyürür. Əhmədin əmisi oğlunu məhəmmədlilər öldürmüşlər. Onun meyiti kəndin ortasında qalmışdır.

İlxı otaran, xam atları sulamaqdan gətirərkən, bir neçə at biçənəyə düşür. Bir qədər yeri ayaqlayır. Ona görə at otaranı döyüb başını yarırlar. Əhmədin əmisi oğlunu öldürən ilxı otaranın qardaşıdır.

Bu hadisə köhnə düşmənçiliyin yenidən başlanmasına səbəb olur. Əhmədin qanı coşur, xəncərini çıxarıb onun dalınca yüyürür.

Çox keçmir, ətrafı gurultu bürüyür. Əhmədi tutub evlərinə aparırlar. O, adamların arasından çıxaraq əmisi oğlunun intiqamını almaq istəyirsə də, mümkün olmur.

– Mən bu binamusluğu qəbul edə bilmərəm. Siz məhəmmədlilər öz nəslinizin tərəfini saxlayırsınız, – deyə onu aparmaq istəyənləri hədələyir.

Həmzə ona qarşı durub nəsihət vermək istəyirsə də, qızmış adama bu sözlərin zərrə qədər də təsiri olmur.

– Burax deyirəm, canım! Burax! – kimi əmrlər verir, yenə də bir nəticə çıxmır. Onu dörd tərəfdən əhatə edib əllərini tutur və evinə aparırlar.

Kənd üzərini çulğayan axşam qaranlığı hər tərəfi sükuta qərq edir.

* * *

Kəndə göndərilmiş müəllim çox həvəslə uşaqları toplayıb dərsə başlamaq arzusu ilə hazırlıq görürdü. O hələ gənc və təcrübəsizdi. Lakin düşüncəli və ciddi bir adam olduğu üçün, kəndliləri avamlıqdan qurtarmaqla, bu kimi hadisələrin qarşısını alacağına əmindi. Ona görə gəldiyi gündən işə başlayıb, çalışırdı.

Ancaq bu zavallı da çox davam edə bilmədi. Kənddə açılan məktəb, iki düşmən nəsli maraqlandırmadığı üçün müəllimi birdəfəlik qovmaq və xalqın canını "qurtarmaq" üçün çalışırlar. Onlar məqsədlərinə də çatdılar.

Məhəmmədlilər bir adam göndərib onu hədələdilər.

Müəllim tutqun havalı bir gündə şəhərə yola düşdü. Onunla bərabər Əhmədli mollası da gedirdi. Müəllim bir daha kəndə qayıtmayacaqdı.

Gənc müəllim molladan utanmayıb sözünü açıqdan-açığa deyirdi:

– Xalqın avamlığı, sənincün əlverişlidir, deyilmi?

Molla dodaqaltı gülür, gözlərini tez-tez qırparaq cavab verirdi:

– Xalqı avamlıqdan qurtarmaq mənim vəzifəmdir. Bu riyalı sözlər, müəllimin yalnız acı-acı gülməsinə səbəb oldu.

İndi o həm avamlığın, həm də mollanın qarşısında məğlub olub şəhərə qayıdır, ağır düşüncələrdən ayrıla bilməyib tez-tez köksünü ötürürdü...

* * *

Günlər keçirdi. Yaz açılmaq üzrə idi. Əhməd ata-anasının təşviqilə Nazlını almaq fikrinə düşmüşdü. Ona "binamus" deyənlər olacaqdı. Ancaq Əhməd bu sözlərə bir daha fikir verməyəcəkdi!..

Əhməd Nazlını alıb evinə gətirdi. Bu günlərdə Nazlı çox düşünür, Həmzəni gün işığına həsrət qoymaq üçün bir vasitə arayırdı. Ancaq o, heç vəchlə çıxış yolu tapa bilməyir, kədərlənirdi. Bir gün Süleyman kişi taxt üstündə oturub təsbeh çevirirdi. Bu halda onu çağırdılar. Həmzənin və qardaşı oğlunu öldürən Şəmiddinin evə gəlmək istədiyini söylədilər. O, həyətə çıxıb:

– Buyurun! – deyə qonaqları qarşıladı və Əhmədi səslədi.

Onlar gəldilər və iki nəsil arasında yenidən başlanan ədavəti yatırmaq üçün məsləhətləşdilər.

Əhməd də içəri girib, yan tərəfdən o biri otağa keçdi. O, həyəcanla, silahını hazırladı. Bundan yaxşı bir fürsət tapa bilməyəcəkdi. Söhbətin şirin yerində otağı gurultu bürüdü. Yıxılan Şəmiddin idi.

Gurultunu eşidənlər Süleyman kişinin evinə tərəf yüyürdülər və bu halı görüb, məyus oldular.

Heç kim danışmaq istəmirdi. Süleyman kişi özünü saxlaya bilməyib oğlunu danlamağa başladısa da, çox gecikdiyini anlayıb o da susdu.

Həmzə öz köhnə arvadını görər-görməz yerindən sıçradı və Əhmədin bu hərəkətini bəhanə edərək belindəki xəncəri sıyırdı. Cəld Əhmədin üstünə şığıdı.

Ancaq xəncər, açılan güllə qarşısında çox tez məğlub oldu. Beşaçılanın səsi ikinci dəfə otağı bürüdü.

İndi yerə sərilən Həmzə idi...

1928 – aprel, Bakı

BAHAR SULARI

I

Qeysər, oğlunun ölümündən iki il sonra belə ağır və iztirablı düşüncələrdən ayrıla bilmədi. Qadın nümayəndələri iclası, savad kursu, əl işi dərnəyi, klub məşğələsi – bunlar hamısı onu gələcək həyatında baş verə biləcək bütün fəna hallara dair düşünməkdən saqındıra bilmədi. Çox zaman, maraqlı məruzələr eşitdikdə də, sevimli oğlu gözləri qarşısında canlanır, bütün xəyalını uzaqlara, ucsuz-bucaqsız dərinliklərə çəkib aparırdı. Qeysər, sifətdən çirkin idi. O, adamları yalançı baxışlarla aldada bilən iri qara, cazibəli gözlərdən məhrum olduğunu hələ oğlu ölməmişdən bilirdi. Qeysər, çirkinliyini özü üçün bir nöqsan saymır, hətta qadınlarla bu xüsusda söhbət edərkən, heç bir işdə gözəllərdən geri qalmadığını söyləyirdi.

On dörd illik bir həyat yoldaşı olan Hidayətin son hərəkətləri isə ona ikinci bir dərd olmuşdu. O, bir gün klubdan qayıdarkən, Hidayətin işdən çox tez gəldiyini görmüş, lakin heç əhəmiyyət verməmişdi...

İlıq havalı bir aprel günü idi. Qeysər ərinin bu hərəkətini düşünə-düşünə yenə evə qayıdırdı. Qapının zəngini çaldığı zaman, səs-səmir gəlmədi. Zəngi bir də basdı. Qeysər tez içəri girdi. Hidayət masa arxasında oturub, "ciddi" bir mütaliəyə dalmışdı. Qeysər bu mütaliənin mənasını anladı. Üzü sapsarı oldu, əlləri titrədi. Bir şey demək istədi. Udqundu, dili söz tutmadı. Hidayət başını qaldırdı, heç bir işdən xəbəri yoxmuş kimi yenə qarşısındakı kitaba göz gəzdirdi. Qeysər qulluqçusuna baxdı, ciddi və sərt addımlarla yataq odasına keçdi. Bu dəqiqə: "Özüm hər bir işi görə bilərəm!" – demək istəyirdi. Lakin bu sözü onların heç biri anlaya bilməyəcəkdi. Qeysor də bunu düşünüb, bir söz demədi.

Küçəyə baxan pəncərə qarşısında dayandı, nə edəcəyini bilmədi.

Hidayətin otağına açılan qapıya yaxınlaşdı, bir müddət səssiz durdu, ərinin vicdansız hərəkətlərini xəyalından keçirdi. Acı bir söz aradı, tapa bilmədi.

Bu halda Hidayət yerindən qalxdı, acıqlı və qızarmış gözlərilə ona baxan Qeysəri gördü. Qıpqırmızı oldu. Onun mənalı gözlərində öz xəyanətini oxudu, bugünkü işindən arvadının duyuqluğunu anladı, heç

bir şeydən xəbəri yoxmuş kimi, addım-addım yeriməyə başladı. Qeysər yerində heykəl kimi dayanıb, gözlərini Hidayətdən ayırmırdı. O, acığından yarpaq kimi əsirdi.

– Hidayət!

– Nə var?

– Mən dedim ki, bu xarabaya qulluqçu-zad lazım deyil.

– Nə demək istəyirsən?

– Onu demək istəyirəm ki, xalqın uşağını yazıq eləmə!

– Uşaq nədir, zad nədir?

– Sənin qulluqçun, İsməti deyirəm.

Bu söz Hidayəti ildırım kimi vurdu. O, yerində dondu, artıq deməyə bir sözü qalmadı.

– O, bu gün evdən çıxmalıdır!

– ...

– Hər gün burada birini bədbəxt eləməyə sənin ixtiyarın yoxdur, bilirsənmi?..

– ...

– Mən demirəm ki, o insan deyil, ancaq o yazığı bundan sonra kim alacaq?

– ...

Hidayət xam at təki fısıldayır, güllə kimi üstünə yağan bu sözlərə tab gətirə bilmirdi.

– Onu səbəbsiz bayıra tullamağa da bizim ixtiyarımız yoxdur, müqavilə bağlamışıq... bir də... onun heç kəsi yoxdur, hara getsin?

– Mən ona iş taparam!

– Yox... axı bir də...

– Nə demək istəyirsən?

– Belə olmaz ki!..

Aralığa dərin bir sükut çökdü. Hər ikisi gözünü yerə dikib, bir müddət baxındı. Qeysərin ürəyi hirsli-hirsli döyünürdü. O, qarşısında duran ərini ayağının altına salıb tapdalamaq istəyirdi. Ancaq bu işdə aciz olduğunu duyurdu. Bir addım irəlilədi, gözlərini tez qaldırıb, Hidayətin bozarmış yanaqlarına baxdı. Bu baxış son dərəcə həyəcanlı idi. Hidayət əsəbiləşir, ox kimi batan baxışların təzyiqi altında sıxılırdı.

O yaxşı hiss edirdi ki, Qeysər əvvəlki Qeysər deyil. Onun bu evdə heç bir alacağı qalmamış, ərlə arvadın canlı rabitəsi olan on yaşlı oğlu da, iki il bundan əvvəl qara torpaqların qoynunda basdırılmışdı. İndi

Qeysərlə ciddi danışmaq da mümkündü. Onun fikrincə iki ildə bir uşaq verməyən arvadın evdə rahatca oturması, müftəcə yeyib-içməsi, xoşa gedən bir iş deyildi.

Hidayət, qəti bir qərara gəlmiş kimi, ciddi bir tövrlə Qeysərə baxdı:

– O, bu evin adamı olacaq!..

Bu sözü eşidərkən Qeysərin gözündə od parladı, ağır bir şillə almış uşaq kimi az qaldı dalıüstə yerə yıxılsın, qapının örtülü qanadından yapışdı, özünü topladı:

– Olsun!..

II

Hidayət yaxşı anlayırdı ki, o öz hərəkətləri ilə əski ailənin səmimi rəftarına mane olur. Ancaq bu, özü Hidayətə daha xoş gəlirdi. O, ürəyində heç ağıla gəlməyən bir arzu da bəsləyirdi. Bu arzu, Qeysərin bütün zəhmətini heçə çıxarıb, ona ağır bir zərbə endirmək idi.

Hidayət hər gün işdən gələndə, bir bəhanə arayır, Qeysərin hər bir hərəkətini izləyir, onu ən cüzi bir şeydə təqsirləndirməyə çalışırdı.

Hidayət arzusuna bu tezlikdə müvəffəq ola bilməyəcəyini gördü, başqa bir yol aramağa çalışdı.

"Kəndə yollaram, kənddəki evi şənləndirmək lazımdır deyərəm, özümün də hər həftə gələcəyimi vəd edərəm, vəssalam!"

O, özünün bu son qərarından razı qaldı, müvafiq bir dəqiqə gözlədi.

Bu dəqiqə, tezliklə gəlib yetişdi. Evdə oturub çay içdikləri zaman, kənd işindən söz düşdü. O, üzünü Qeysərə tutub, boğuq bir səslə dedi:

– Oranı da əldən buraxmaq doğru deyil!

Qeysər ərinin sözünü acı bir təbəssümlə qarşıladı, cavab vermədi. Onun nə demək istədiyini anlamışdı.

– Bir də... bəlkə məni qulluqdan çıxartdılar, o vaxt kəndə gedə bilərik.

Hidayətin qulluqçusu İsmət də bu söhbətə qasrşmaq istəyirdi. Ancaq Hidayət ona imkan vermir, mətləb üstə gəlməyə tələsirdi.

– Yaxşı olardı ki, özün gedə idin!

Hidayət qalın dodaqları arasından çıxan bu sözlərin, özü tərəfindən deyildiyinə təəccüb etdi. Hər halda fikrini söylədi, Qeysəri kəndə yollamaq istədiyini onun özünə anlada bildi.

Hidayətin bu sözünü eşidən kimi, Qeysərin dodaqlarında istehzalı bir təbəssüm oynadı.

– Mənmi? – deyə səndəlidən qalxdı.

Qeysər kəndə gedə bilərdi. Bəlkə bu təklifi də sevinclə qarşılardı... Ancaq bu fikrin arxasında gizlənən məqsəd, Qeysərə gün kimi aydındı. Qeysər belə təkliflərin mənasını çox tez anlayırdı.

– Yol açıqdır, – dedi, – sən özün gedə bilərsən. Mən evimdəcə qalmaq istəyirəm.

– Axı, mən vəzifəmi buraxıb gedə bilmərəm...

– Mənim də çox işim var, hələlik vaxtım da yoxdur. Kənddəki evin bərbad olmağını istəmirsən, get, özün otur mal-qaranı otar!..

Hidayət Qeysərin öhdəsindən gələ bilmədi, özünü çox sərt göstərməyə çalışdı. Amma bu da bir nəticə vermədi, dediyi sözlər ona heç bir təsir etmədi.

– Mən belə bilirəm ki, sənin kənddə olmağın yaxşıdır, qadası!..

– Mən özüm də belə düşünürəm ki, əvvələn kənddəki üç-dörd artıq heyvan mənə lazım deyil, burada çalışmağım həm özüm üçün, həm başqaları üçün xeyirlidir, ikincisinə qalan yerdə, kənddən xoşun gəlirsə get, mənə də baş ağrısı vermə.

Hidayət bu uzun danışığı kəsmək üçün nə edəcəyini bilmir, hiddətindən tut yarpağı kimi əsirdi.

O, boz və qurumuş dodaqlarını dili ilə isladır, dişini qıcırdadırdı.

– Qeysər, bilirsənmi, bunlar sənə baha oturar?

– Bilirəm, bilirəm, hi, hi, hi...

– Eybi yoxdur, getmə! Ancaq...

– Özün gedə bilərsən!..

III

Hidayət Qeysərdən qorxdu; odur ki, İsmətin evdən çıxıb getməsini tapşırdı. Ancaq o, hamilə olduğunu, heç bir yana getməyəcəyini bildirdi.

Hidayət uzun get-gəldən canını qurtarmaq üçün yalnız bir yol tapdı. İsməti ikinci arvad kimi almaq!

Bu fikrini özü də bəyəndi. Kimsənin xəbəri olmasın deyə zaqsa belə getmədi. İsməti aldı, təzə bir qulluqçu gətirdi.

Qeysər bu hadisədən xəbər tutdu, ancaq kədərlənmədi. İlk dəfə qadınlar şöbəsinə getdi, Hidayətin bu işini olduğu kimi söylədi. Şöbə müdirəsi heç bir tədbir görmədi. Qeysərə:

– Evi burax, yalnız klubda çalış! – deyə məsləhət gördü.

Qeysər təəccüblə soruşdu:

– O halda mənim bütün əməyim itməzmi?

– Eybi yoxdur, onsuz da biz köhnə ev-eşikdən əl çəkirik... – deyə müdirə gülümsündü.

Qeysər başını buladı:

– Axır onun bu cür rəftar eləməyə haqqı varmı?

– Əlbəttə yoxdur, bu barədə tədbir görmək sonranın işidir... İş burasındadır ki, bizim bəzi kişilər əvvəlki qayda ilə dolanmaq istəyirlər... Bir vaxt gələr ki, bunlar hamısı düzələr.

Müdirənin son sözünü eşidərkən Qeysərin gözləri güldü. O, "hamısı düzələr" sözünü eşitdiyi zaman çox sevindi, öz-özünə deyindi:

"Hidayətin tərcümeyi-halı oxunacaq; onun paxırı açılacaq... Bunu söyləmək, bütün həqiqəti açıb-tökmək mənim vəzifəm idi. Nə etməli? Ailə əsarəti buna imkan vermədi! Eybi yoxdur, gələcəkdə bunların hamısı düzələr".

Müdirə:

– Siz gedin, – dedi, – rahat olun, biz bu məsələni aydınlaşdırarıq...

Qeysər səndəlidən qalxdı, sakit addımlarla qapıya yanaşdı. O, indi səhvini anlamağa başlayırdı. Əvvəlləri Hidayət ona, bütün keçmişini unutmuş, bir adam kimi görünürdü. Ancaq indi, Qeysər yanıldığını ürəyində etiraf etməyə məcbur oldu.

Hidayət əski bir zabit idi. Boş vaxtında qadınlarla əylənməyi sevən bir adamdı. Bunu Qeysər sanki birdən xatırladı: "Bu barədə heç kəsə bir şey deməərəm" sözlərini fikrindən keçirdi. Sonra birdən:

– Yox, – dedi, – hidayətlər çoxdur, başqalarını əyləncə alətinə çevirmək istəyənlər çoxdur; stolundan, nüfuzundan şəxsi ehtirasları üçün istifadə edənlər, bizə əskidən yadigar qalıblar. Müdirənin dediyi günə də az qalıb...

– Əlbəttə biz belə adamları idarələrimizdən asanlıqla təmizləyəcəyik, – deyə müdirə, sürətlə qapını açan Qeysərə baxdı – indi sıra bizə gəlir...

Qeysər başı ilə bu fikri təsdiq edib, şöbədən çıxdı.

IV

O gün qəzetdə belə bir məqalə dərc olunmuşdu: "Okruq sığorta idarəsi müdiri Hidayət Xəlilov köhnə bir mülkədar ailəsindən olub, əski hərbiyyə məktəbində təhsil almış, üç il Nikolay ordusunda, Aprel inqilabına qədər də "müsavat" ordusunda hərbi vəzifə daşımış bir adamdır.

O, Gəncədə əks-inqilabi qüvvələrə yardım edərək, bolşeviklərlə mübarizədən çəkinməmişdir. 20-ci ildə Türkiyəyə qaçmış və 24-cü ildə qayıdaraq yerli hökumətə verdiyi ərizəsində bütün köhnə fikirlərindən əl çəkdiyini göstərmişdi. Əvvəlləri idarələrdə kargüzarlıq, sonralar da bəzi yaxşı vəzifələrdə işləmişdir. Bu yeni vəzifəsində o, iki ildən artıqdır ki, çalışır.

Xəlilovun indiki hərəkətləri də köhnə fikirlərindən daşınmadığını göstərir: evinə qulluqçu adı ilə gətirdiyi bir qızı, az yaşlı olmasına baxmayaraq, kimsənin xəbəri olmadan ikinci bir arvad olaraq almışdır. O, bu hərəkətlərilə Şura hökumətinin qadınlar haqqındakı siyasətinə zərbə vurmağa çalışır.

Xəlilov sığorta idarəsindən bir sıra qadınlara, xəstə olmadıqları halda, artıq pul vermiş və kurorta göndərmişdir".

V

Qeysər artıq ailə haqqında əvvəlki qədər düşünmürdü. Yalnız, kluba gəlib-gedərkən yoldaşlarını başa salardı:

– Burada yalnız Hidayət deyil ki?! Belə adamlar çoxdur. Onları hamıdan artıq özümüz tanıyırıq. Heç qorxmayın! Daha biz kişilərdən asılı deyilik, öz əməyimizlə çörək qazana bilərik. Hərgah bu adamlar yenə də idarələrimizdə qalsalar, sizi əmin edirəm ki, gələcəkdə daha pis günlər görəcəyik.

Qeysər bu sözlərinə cavab ala bilmədi, qadınlardan bir neçəsi, onun fikrinə şərik olmadığını söylədi. O vaxt Qeysər, fikrinin səhv anlaşıldığını duydu:

– Müqəssir olmayanlarla belə rəftar eləmək olmaz, onları başqa qərəzlərdən müdafiə edin!.. Mən Hidayət kimilərini deyirəm. Bizə lazım olmayan belələridir.

Qeysər öz-özünə dedi: "Bu yazıqlar hələ də qorxurlar, mən tanıdığım bir neçə arvadın əri Hidayətdən də pisdir. Onlar bunu açıb söyləyə bilmirlər. Yoqin "Kişidir, hər halda onun ixtiyarı bizdən çoxdur," – deyə düşünürlər". Nə etməli? Sonra səhvlərini başa düşərlər".

VI

İki may günü idi.

Qeysər təhkim olunduğu kənddən qayıdırdı; yolda dəstə ilə gedən yoldaşlarına rast gəldi. Onlar çayın qırağındakı meşəyə gəzməyə gedirdilər. Bu gün hamı gülür, hamı sevinirdi.

Qeysər faytondan düşdü, qozlada oturmuş qoca kişiyə:

– Mənim şeylərimi evimizə apar! – dedi.

Fayton yorğun atların ardınca şəhərə doğru sürünməyə başladı...

Onlar qarmon çalan bir qadının dörd yanını bürüyüb oynaya-oynaya meşəyə doğru getdilər.

* * *

May günəşi, uca dağların qarını əridib, çayları coşdurur, kanalları da bahar suları ilə doldururdu. Şəlaləli çaylar, dəli bir hiddətlə iri daşları, kökü çürümüş ağacları yerindən qoparıb axıdırdı. Buna heç fikir verməyən qadınlar meşəyə çatan kimi, dalda bir yerə çəkilib çimməyə hazırlaşdılar. Gətirdikləri yemək şeylərini, qazanları kölgəli bir ağacın dibində qoyub soyundular, köpüklü dalğalar arasında üzməyə başladılar. Qadınların mərmər vücudunu yuyub şütüyən sular, onları axıda bilmirdi. Bu sərt və coşqun dalğalar, uzaqlardan qoparıb gətirdiyi çör-çöpləri aparır, qara torpağa qatırdı.

Qadınlar kölgədə toplandılar, tez paltarlarını geyindilər. Hərəsi bir iş ilə məşğul olmağa başladı.

Bu anda qadınlardan biri Qeysərə yaxınlaşdı, gülə-gülə soruşdu:

– Hidayətin işini sənə dedilərmi?

– Yox, nə oldu ki?

– Vəzifədən çıxartdılar, işini də məhkəməyə verdilər.

– Doğrudanmı?

– Doğrudan...

– Buna nə sözüm ola bilər? İndi bir az ağlı başına gələr.

Qadınların bəzisi suda yuyunarkən də Qeysərdən danışırdı. Ancaq o özü bu danışıqların fərqinə varmamışdı.

– O, evdən əl çəkməz, ev onundur!..

– Bu saat o, ev arayıb axtaran deyil ay canım!..

Bu cümləni söyləyən qadın haqlı idi; Qeysər bir də ev qadını olmayacaqdı. O, qadınlar şöbəsində işləyirdi, evi də unutmuşdu.

...Qeysər bu yeni xəbəri eşidəndə iyirmi dəqiqə əvvəl çimdiyi suların sərt dalğalarını, axıb uzaqlara gedən çör-çöpləri xatırladı. Onun fikrincə Hidayət bu xırda, lazımsız, çürük ağac parçalarından o qədər də fərqli deyildi...

1929 – fevral, Bakı

QAYITMADI

I

Surxay kənddə menşevik ordusunun sınıq körpünü tutması xəbərini eşitdi, osmanlı əsgərləri qayıdan zamandan bəri mal damında saxladığı tüfəngini götürdü, cəbhəyə getdi. Bu zaman onun arvadı Şirmayı sağ-salamatdı. O, pendir-çörəyi də heybəyə öz əlilə qoymuş, titrək dodaqları arasından yalnız bu sözləri deyə bilmişdi.

– Allah qoysa, onların istədiyi baş tutmaz!..

Surxayın yaxın yoldaşlarından Qambay, ərzaq üçün kəndə gedib-gələndə, yeni bir xəbər də gətirdi, Şirmayının ağır xəstələndiyini Surxaya bildirdi.

Qambay qəmli bir səslə:

– Surxay! Şirmayı yazıqdır, ona bir əlac! – dedi, – sən olmasan da biz keçinərik.

Surxay bu sözləri istehzalı bir təbəssümlə qarşıladı, onun yumru yanaqları qızardı, yoldaşına cavab vermədi. Onun fikrincə Qambay çox yersiz bir təklifdə bulunurdu.

Cəbhə, hər dəqiqə, cəhənnəm kimi alovlar içində qaynayır, qara torpaq dəhşətlə havaya sovrulur. Sınıq körpünün şimalında səmaya yüksəlmiş qayalardan qopan daş parçaları ətrafa səpələnir, Şamaxı zəlzələsini xatırladırdı.

Surxay bu ağır xəbəri eşidəndən sonra da, qarşısındakı müdhiş mənzərəyə biganə qalmayır, hətta bəzən qəlbinə çox ağır təsir edən bu hadisəni unudurdu.

Buradakıların heç biri öz canından qorxmur, bəziləri ev-eşik əldən getməsin deyə zəhərli güllələrə köks gərirdilər. Ancaq Surxay bizim düşündüyümüz kimi ev-eşik sahibi deyildi. Onun yer altında, gün görməyən, bir qazma daxması, iki də xeyirsiz heyvanı vardı. Vuruşmada o yalnız Şirmayını itirə bilərdi. Nədənsə bu da, Surxayın inadını qırmırdı.

* * *

Bu tərəflərdə sığınacaq möhkəm bir yer yoxdu, körpüdən keçmək də xeyli çətindi. Dəstə başçısı "irəli!" əmrini verərkən, partizanlar köhnə arxın qırağında örüklənmiş atlarını mindilər.

Axşam qaranlığı qızıl partizanların yerləşdiyi dərəni öz ağuşunda ovundurmağa başladığı zaman, dəstə, Xıram çayının o tayına keçdi.

Dərədə çayın boğunuq uğultusundan başqa bir səs eşidilmirdi.

II

Günəş yenicə parıldamağa başlayanda, bir dəstə adam cənazə ilə qəbiristana doğru gedirdi.

Hamı kədərli idi. Hamının gözü bahar buludunu xatırladırdı. Hamı ağlayır, bu hadisəni bir qardaş, bir ana qəlbilə hiss edirdi.

– Oğlum, bu kimdir? – deyə yolun kənarında əli qoynunda durmuş dərdli bir qarı hamıdan sonra gedən bir nəfərdən soruşdu.

O dayandı, udqunaraq cavab verdi:

– Şirmayıdır...

III

Bu zaman cəbhədə böyük bir dəyişiklik oldu: Qızıl ordu cəbhəni yardı, partizanlar kəndə qaytarıldı. İki yüz nəfərlik dəstədən üç adam yaralandı, biri isə həyata vida etdi.

Onlar şenliyə döndülər. Ölən yoldaşı qəbiristana apardılar. Başqalarına nisbətən daha inadlı döyüşən bir fədakarın ölüm xəbəri ətraf kəndlərə də yayıldı. Bu adamı, səhər basdırılan Şirmayı ilə yanaşı qara torpağa tapşırdılar.

1929 – noyabr, Bakı

QUZU

Şəhərin ucqar küçələrindən birində, hər zaman saralan kərpic evin qabağında gözəl bir bağça vardı. Yaz fəsli gələndə, bu bağçanı görən hər kəs azı bir neçə dəqiqə hərəkətsiz durub, yeni açılmış güllərə, çiçəklərə heyran-heyran baxardı. Oradan səhərdən axşama kimi əlləşən qoca bağban, kənarda duran tamaşaçılara nəzər salmasa da, qızların və oğlanların bu bağçaya daha ürəkdən vurulduğunu bilirdi.

Qoca bağban sərt təbiətli, əsəbi və daima savaşan, uzun, arıq bir kişi idi. Kənardan baxanlara sevindiyi halda, bağçaya girənləri söyüb qovardı.

Mən ondan qorxurdum. Bağçanın hansı tərəfindən girsəm, o məni görüb söyər, bəzən də ərinməz-ərinməz yüyürüb məni tutar, sümüklərim yumşalıncaya qədər əzişdirərdi. Dünyada sevmədiyim iki adam vardısa, onlardan birincisi bu qoca bağban idi. Çox vaxt mən öz-özümə təəccüblə deyərdim: "Belə kinli adam, nə əcəb belə gözəl çiçəkləri bəsləyib yetirə bilir?"

Bir gün kərpic evin ikinci mərtəbəsində yaşayan gözəl qıza vuruldum. Odur ki, bağçanı unutdum. Bir daha qocanı narahat eləmədim. Gözəl qızı ilk dəfə pəncərənin qabağında görmüşdüm. Onlar özgə şəhərdən gəlmişdilər. Bizim yerli olsaydılar, qızın kim olduğunu bilərdim. Şəhərimiz balaca idi. Məktəbə gedib-gələndə, o qız, nə təhər olsa, gözümə dəyərdi. Yox, o buralı deyildi... Çünki... Yox, buralı deyildi.

Bəzən heç özümün xəbərim olmadan, ona dikilən gözlərimi, o, pəncərə qabağından çəkilib gedəndən sonra da geniş açıb dayanardım. İndi bağdakı gülləri, çiçəkləri unudub, bu canlı, gözəl, qaragözlü bahar çiçəyinə vurulmuşdum...

Birdən küçəyə baxan pəncərə bağlandı, bir daha açılmadı. Mən onu görə bilmədim: axtardım, tapa bilmədim. Mənə nifrətmi edirdi? Məni görmək istəmirdimi, bilmirəm. Öz-özümə dedim: "Yəqin köçüb gediblər. Daha qayıtmayacaqlar".

Ancaq yanılmışdım.

Bir gün qoca bağban xəstələnib öldü. Gözəl bağça sahibsiz qaldı. Nədənsə, bu hadisə məni sevindirmədi. İllərdən bəri nifrət elədiyim bu qocanın ölümündən kədərlənib ağladım da...

Sonra bağça mənim ixtiyarıma keçdi.

Bir səhər, bağçanın ortası ilə axıb gedən balaca arxda ayaqlarımı sallayıb bulanıq su ilə oynayırdım. Nə gördüm?.. O idi – gözəl bahar çiçəyi!

Tez ayağa durub ağacın dalında gizləndim, gözlərim yalnız bir nöqtəyə dikilib qaldı. O, yer üzünün insanlarına bənzəmirdi. O, böyük bir ideal kimi mənim təsəvvürümdə o qədər yüksəldi ki, dodaqlarımın bir-birindən aralandığını, gözlərimin böyüdüyünü, nəfəsimin tutulduğunu, ürəyimin isə, qeyri-adi bir şiddətlə döyündüyünü belə hiss etmədim.

O, ikinci mərtəbədə, bədənnümə güzgünün qabağında durub, uzun, qara saçlarını darayırdı. Məni görürdümü? Yəqin ki...

Yox, görürdü. Görməsə də, bir vaxt görməli idi.

Mən onun yalnız profilinə baxırdım. Qara gözlərinə isə həsrət qalmışdım. Nəvaziş axtarırdım. "Bir bəri bax, gözlərini məndən gizlətmə! – deyə yalvarmaq istəyirdim. Yox, belə kəmiltifat olma!.."

Yox, o məni görmürdü.

Mən isə inləyirdim: "Ah, qızlar, qızlar, niyə siz arxanızca gələn cavan adamın, pərvanə kimi başınıza dolanmaq istəyən bədbəxt bir insanın sifətini, hərəkətini aydın görmək istedadına malik olduğunuz halda, bircə dəfə dönüb onun üzünə baxmırsınız? Siz nə üçün bu qədər məğrursunuz? Fərqi nədir ki, o, üç-dörd sürətli addımdan sonra qabağınıza keçib sizə istədiyi qədər tamaşa edə bilməzmi? Dönüb geriyə baxsanız, o insanın ürəyində sizə qarşı mütləq mənfi bir fikir oyanacağındanmı qorxursunuz? Axı, bütün insanlar belə yüngül deyillər ki? Sevənlərin qəlbi geniş olmurmu? Onların gözü iti, baxışı dərin olmurmu?"

O, ayna qabağından çəkildi. Elə bil ay parçası qara buludların dalında gizləndi. Gözlərimin qarşısında nəhayətsiz, dərin bir boşluq açıldı...

Axşama qədər orada qaldım. Evdən məni çağıranlara hay vermədim. O yanlarda, xəlvət bir bucaqda oturub günün batmağını gözlədim.

Hər dəqiqə mənə ildən uzun görünürdü. Yenə də yer üzünü işıqlandıran bir ay parçasını gözləyirdim.

Evin o yanından, yaz buludlarının arasından çıxan ay mənə baxırdı...

Birdən yaxınlaşan ayaq səslərini eşitdim. Donub qaldım. Yuxumu görürdüm? Yox, ay göydən yerə enmişdi, yeriyirdi.

– Xanım, siz qorxmursunuzmu?

Düşünürdüm ki, o mənim burada olduğumu bilmir və sualımı eşidən kimi səksənəcək. Yox, onun gözləri, dalınca gələn oğlanı aydın görən qızlarınkından belə iti idi. O, məni görürdü.

O duruxdu.

Mənim böyümüş gözlərim, həsrətində olduğum qara gözlərə dikildi.

O:

– Yox, mən qorxmuram, – deyərkən mən onun incə dodaqlarına baxdım.

O gülümsədi.

– Gül dərmək istəyirəm. Evdəkilər solub.

– Buyurun, xanım, yaxşı qərənfillər var.

– Qərənfil? Mən qızılgül dərmək istəyirəm.

– Niyə, xanım? Bu saat qərənfillərin yaxşı vaxtıdır.

Onun incə dişləri parıldadı:

– Mən özüm Qərənfiləm, – dedi. – Mənə qızılgül lazımdır.

Utandımmı? Qızardımmı? Deyə bilmərəm. Vücudum tir-tir əsdi. Bunu xatırlayıram.

– Sən qoca bağbanın nəyisən? – deyə o, məndən xəbər aldı.

– Mənmi? Heç nəyi. Mən qonşunuzam. Siz olan evin alt mərtəbəsində yaşayıram. Zirzəmidə...

– Harda oxuyursan? Səhər gimnaziyasındamı? Atanı hər gün görürəm. Yaxşı adamdır... Gəl mənə gül dərməyə kömək elə... Mən də oxumaq istəyirəm, atam qoymur. Deyir ki, qız xeylağı oxuyanda azır.

Mən qoca bağbanın mirasını toplayıb böyük bir dəmət bağladım.

– Buyurun, xanım...

– Mən dedim ki, qərənfil istəmirəm.

Mən onun fikrini anlamadım.

– Adın nədir?

– Mənim adım, Rəhim...

O, nəsihət verməyə başladı:

– Oğlan qıza çox baxanda... Yox, bu yaxşı deyil... Sən nə üçün bu gün evinizə getmədin? Anan səni üç-dörd kərə çağırdı. Sən cavab vermədin. Ac qaldığından narazılıq edirdi. Yaxşı deyil...

Mən yalnız indi xatırladım ki, səhərdən bəri heç nə yeməmişəm.

– Pəncərəmizə çox baxma. Anamın acığı tutur, görmürsənmi, küçəyə baxan pəncərələri bağlayıb. Razı olmur... Sən onu daha da şübhələndirirsən.

Birdən Qərənfil addımlarını yeyinlətdi. Bağçadan çıxdı. Geriyə boylanıb, üzümə baxa-baxa dedi:

– Get, çörək ye, anam səni görməsin deyə, bağçaya axşamlar çıx. Yaxşımı?

Mən nə qədər xoşbəxt idim. Sevincimdən dilim söz tutmurdu.

– Yaxşı, xanım, yaxşı... – dedim.

Ayrıldıq. Birinci görüşümüz bununla qurtardı.

Evdə məni danladılar. Anam söyləndi. Atam bağırdı. Mən heç birinə cavab vermədim. Səadət mənim dilimi qurutmuşdu.

Yerimə uzandım.

Gecə saat iki idi. Hələ də gözümə yuxu getmirdi.

"Bağçaya axşamlar çıx..." – Hə, hə, axşamlar... Necə yatdığımı xatırlamıram... Bir də səhər oyandım. Qapı döyülürdü.

Anam cəld qalxıb qapını açarkən, bir qadın səsi eşitdim. Qərənfilin anası idi.

– Dünən sizin oğlan səhərdən axşama kimi bağçada idi. Orada bizim quzumuz bağlanmışdı. İtib... Onu sizin Rəhim oğurlamayıb ki?

Mən yerimin içində donub qaldım.

Dinmədim.

Qərənfillə ilk görüşüm, son görüş oldu. Quzu mənim sevgimi oğurladı...

1938

KOR AT

Kənd toyu qurtarırdı.

Oğlan evindən gəlmiş dəliqanlılar geri qayıtmağa hazırlaşırdılar. Gəlinlər, qızlar, nişanlının cehizini həyətin ortasında duran ikitəkərli arabaya yükləyirdilər. Hamı əl-ayağa düşmüşdü. Arabanı rəngbərəng xalılarla bəzəyənlərin sevinci yerə-göyə sığmırdı. Onların hamısı bəzənmişdi. Bəziləri, ayaqyalın da olsalar, qanovuzdan don geyinmişdilər.

Birdən, ipək paltarla bəzənmiş, dikdaban tufli geymiş, Gəncə kəlağayısı örtmüş qamətli gəlini atası evindən çıxardıb arabaya sarı gətirməyə başladılar. Zurnaçıların qabağında məharətlə süzən yengə, toy sahiblərinə uzun və xoşbəxt bir həyat arzulayırdı.

Bəy özü isə, kənarda dirəyə söykənib oğrun-oğrun nişanlısına baxırdı. O, sevgilisinin üzünü görə bilmirdi: gəlinin üzü indi də örtülü idi. Onun tir-tir əsən göy haşiyəli uzun ağ kəlağayısı başından dizinə kimi uzanmışdı.

Həyətdə iynə salınsa, yerə düşməzdi. Toy adamları gülür, oynayırdılar. Amma çox təəssüf ki, bu yerlərin sevimli şairi Vaqif, vətəninin gözəl toylarına çoxdan vida edib, bülbül kimi ötmür, sənəmlərə meydan oxumurdu, sağ qalan yalnız aşıq idi. O, zurnanın kiridiyini görəndə, telli sazını döşünə basdı, bütün kənddə eşidilən zil və gözəl səsi ilə ötməyə başladı:

Görüm ay, bəy, toyun mübarək olsun,
Sağdışına, solduşuna borc olsun,
ay borc olsun.

O ötürdü, telli sazını məharətlə çalırdı və özü də sevinə-sevinə oynayırdı.

Sonra, quyruqları səliqə ilə düyülmüş cıdır atlarını həyətə çəkib gətirdilər. Onların çoxu məğrur başlarını dik tutaraq, yerlərində oynayır, bəzən də şahə qalxırdılar.

Kənd toyu qurtarırdı...

Yeddi gün, yeddi gecə yorulmadan çalmış zurnaçılar, qonşu damın üstünə qalxdılar. Koroğlunun cəngi havası dağlara, dərələrə səs saldı. Çərkəzi yəhər altında qızmış atlar, cənginin ahənginə uyaraq, daha da coşurdular.

Bir azdan sonra bəyin də atını yedəkləyib gətirdilər. Hamının gözü ona zilləndi. Kor at bütün şənlikdə ad çıxarmışdı. Zahirən çox da gözəl

olmayan bu atın balaca başı, uzun-nazik boğazı, uca boyu, dümdüz beli, dartılmış qarnı vardı. Üstündəki yəhər də köhnə idi. Bəziləri ona baxıb: "eh, – deyirdilər, – onda tərifə dəyən heç nə yoxdur, üz-gözündən kifirlik tökülür". Amma kor at bütün cıdırlarda həmişə birincilik qazanırdı. Son illərdə onu ötən bir at olmamışdı. Çoxları bu fikirdə idi ki, yəqin Qıratın nəslindəndir.

Bəy ata yaxınlaşdı, əli ilə onun yalınını tumarladı, qayışlarını yoxladı, səliqəsiz görünən tapqırını düzəltdi. Atın yanına bir şillə vurdu. At sahibindən aralanıb, cənginin get-gedə ucalan səsindən daha da cuşa gələrək, kənarda, adamlardan xeyli aralı, dairə vura-vura oynamağa başladı. O gah əllərini göyə qaldırır, gah başını sinəsinə endirir, gah da dal ayaqları üstündə fırlanaraq oynayırdı. Bu oyun bir neçə dəqiqə sürdü. Amma heç kəs gözünü atdan çəkmirdi. Hamı onun xasiyyətləri ilə maraqlanırdı.

At getdiyi yolla da qayıdıb sahibinə yanaşdı. Bəy onun kəkilini sığalladı, səkil ayaqlarının tozunu təmizlədi. İndi onu istədiyi yerə, istədiyi qədər səyirdə bilərdi. Kor at belə kor at idi.

Bəy adlandırdığımız oğlan nə bu gün bəy idi, nə də sabah bəy olası idi. Keçmiş əyyamda bizim kəndlərin bu cür bir günlük bəyləri çox olardı. Toylarından bir gün sonra onlar bu rütbədən istər-istəməz istefa verir, ya cütün dəstəyindən yapışıb yer şumlayırdılar, ya da onun-bunun qapısında nökərçilik edirdilər.

Bizim boyin əsil adı Kərəm idi. Amma o nə xan Əslinin Kərəminə oxşayırdı, nə də Qaçaq Kərəmi xatırladırdı. O, ən adi kənd cavanlarından biri idi. Atası, bəylərdən birinin qapısında mehtərlik edərdi. O, öləndə oğlu üçün yalnız arıq, bir gözü də kor bir dayçanı yadigar qoymuşdu. Heç kəsin ağlına gəlməzdi ki, bu arıq və kifir dayça böyüyüb gözəl bir at olacaq. Atası öləndən sonra Kərəm çobanlığa getdi, kor dayçanı ilxıdan ayırmadı. Onun dünyada ən çox sevdiyi şey bu ürgə idi. Atası demişdi ki, "Yaxşı saxla, əsil igid malıdır!".

Kərəm bir neçə ildən sonra onu tutub öyrətdi, özünə ram elədi. Çobanlıqdan aldığı qoyunun bir neçəsini satıb çərkəzi yəhərə verdi.

Kor böyüdükcə, Kərəmin də qüruru artırdı.

Ay keçdi, il dolandı, Kərəm bir qız sevdi, qazandığı qoyunların hamısını pula döndərib yeddi gün, yeddi gecə toy çaldırdı.

İndi qurtaran toy onun toyu idi...

Kərəm yenicə geydiyi ağ çuxasının ətəyini qatlayıb gümüş kəmərinə keçirdi. Şikari papağını sol qulağına tərəf əydi. Təzə palları ona

çox yaraşırdı. Dünən sağdışının bağışladığı qamçı, uzunboğaz çəkməsinin üstündən aşağı sallanırdı.

O, atının qantarğasından tutub ürəyində ona belə deyirdi: "Bilirsənmi nə var, əzizim? Bu gün mənim toyumdur. Xələti özüm alsam, yaxşı düşməz. Amma sən gərək məni utandırmayasan. Süleyman bəy təzə at alıb. O, dəridən-qabıqdan çıxıb birinciliyi qazanmaq istəyəcək. Onu ötməsən, bir də üzünə baxmaram!".

Kərəm gülümsəyib, kor atın üzünə baxdı. Onun yalını bir də sığalladı. Toy adamlarının gözü yenə Kərəmdə idi. Bəziləri onun qız evinə gəlməsindən narazı idilər (bəy, qız evinə gəlməməli idi!), bəziləri də bu çirkin ata baxa-baxa, təəccüblə çiyinlərini çəkir, yəqin ki, belə düşünürdülər: "Kifirdir, amma nə olsun ki, kişinin bəxti vurub".

Birdən cavanlar atlandılar. Onlar indi Koroğludan da məğrur görünürdülər. Onların sümük vəznəli çuxaları, gümüş qaşlı xəncərləri, gündə yanmış sifətlərində sevinclə parıldayan ala gözləri, xüsusi bir əda ilə geyilmiş şikari papaqları nəyə dəyməzdi.

Kərəm də adəti üzrə, cəld atın belinə sıçradı. At şahin kimi irəli şığıdı.

Qazma damların üstünə çıxmış kəndlilər, gözlərini Kərəmdən ayırmayıb öz aralarında deyirdilər:

– Kor ata ömründə qamçı dəyməyib.

– Bax, bax, Kərəm heç ayağını tərpətmir. Yaxşı minicidir.

– Kor ata mahmız vursa, xətrinə dəyər.

– Amma qızışanda, Allah göstərməsin, yaman qızışır ha...

– Bu gün korun köpünü alacaqlar. Süleyman bəyin kəhəri yaman atdır. Əvəzində dörd at verib. Kürdoğlu nəslindəndir... Yəqin Kərəm özü də baş qoşmaz. Bir də öz toyudur, xələti özü almayacaq ki.

– Onu de... Yoxsa, kor da yaman kordur! Ömründə dizini yerə qoymayıb.

Gəlinin qohumları zurnaçıları arabalara mindirdilər. Yenə dağları, dərələri titrədən cəngi səsindən deyilən sözləri eşitmək olmurdu.

Üç araba dalbadal yola düşdü.

Cıdır başlandı, amma nə başlandı! Elə bil eyni zamanda yüz ox birdən atıldı.

Kərəm atını Süleyman bəylə yanaşı səyirtdi. Atlılar bir anda kənddən çıxıb geniş düzə səpələndilər.

Evlərin üstündə duran tamaşaçıların ürəyi şiddətlə döyünürdü. Onlar dərin bir həyəcanla düzə sarı baxır, lap qabaqda ildırım sürətilə uçan kor atdan gözlərini çəkmirdilər. Kərəm yəhərin qaşına sinmişdi.

Əlləri, ayaqları hərəkətsiz idi. Səs-səmir də çıxmırdı. Buna ehtiyac da yox idi. Kor öz işini bilirdi. O, qabağına çıxan xəndəklərdən məharətlə atılır, balaca qulaqlarını qısaraq çapırdı.

Birdən evlərin üstündəki tamaşaçılar bağırışdı.

– Süleyman bəy keçdi!

– Hə, hə, keçdi!..

Düz deyirdilər. Süleyman bəy Kərəmi keçdi. Amma hələ mənzilə çox vardı. Bir də Kərəm atının xasiyyətini hamıdan yaxşı bilirdi. O, birdən korun dalına tərs bir şapalaq vurdu. Kor at çənəsini aşağıya sarı əyərək, qulaqlarını şəklədi və yenə irəliyə şığıdı...

Atlılar gözdən itdilər. Kimin üstün gəldiyi bəlli olmadı.

Oğlan evi tərəfdən damların üstünə çıxmış kəndlilər arasında da qızğın mübahisə gedirdi:

– Kor at qalar.

– Yox, inanmıram.

– Deyirəm qalar.

– Mən deyirəm qalmaz.

– Bax, bax, qabaqdakı Süleyman bəydir, görürsən?

Əşi, bundan sonra korun ağzı nədir...

– Aha, gördün... Kor onu göz açmağa qoymaz. At deyil, od parçasıdır!..

Bu anda tamaşaçılardan müdhiş bir çığırtı qopdu. Üz-gözünü cırmaqlayıb qanadan kim, saçını yolan kim, "Ah vay" edib inləyən kim... Yalnız bir an əvvəl gülən üzlərdə, sevinclə parıldayan gözlərdə birdən qəzəb, kin, intiqam alovları parıldadı.

Elə bil hamı qeyri-adi və olduqca qorxulu bir röya görürdü.

Kərəm, yəhərlə bərabər yana sarı yıxılmışdı, onun ayaqları üzəngidən asılı qalmışdı, başı yolun daşlarına dəyərək qızıl qana boyanmışdı.

Müqəssir kim idi?.. Hamının kini, qəzəb və intiqamla parıldayan gözü, – ona, – dörd at verib bir at almış Süleyman bəyə, qəsdən Kərəmi itələyib onun müvazinətini pozan paxıl adama zillənmişdi.

Kərəmin qapısında durmuş adamlardan qopan ah-nalə səsi göylərə ucaldı.

Kor at daxmaya çatıb dayandı. Onun qantarğasından tutub saxladılar. Kərəmin ayaqlarını üzəngidən çıxarıb yerə uzatdılar.

Ananın fəryadı hamını titrətdi.

Kor at sahibinə yanaşıb qəmgin və titrək bir səslə ucadan kişnədi.

Bir günlük bəyin toyu belə qurtardı. Kərəmə bir kor atı da çox gördülər.

1938

KONSERT

I

Balaca otaqda iki yoldaş oturmuşdu. Səbri piano çalırdı, Ədhəm isə papiros çəkə-çəkə onu dinləyirdi.

Səbrinin barmaqları o qədər sürətlə hərəkət edirdi ki, pianonun dillərinə dəyib-dəymədiyini görmək çətin idi. O, birdən dayandı. Piano kiridi. Səbri tələsmədən, nota vərəqini çevirdi və gözlərini məchul bir nöqtəyə zilləyib yenə çalmağa başladı. Onun yaratdığı ahəng xəyal deyildi. Həqiqət idi. Bunu Ədhəm də hiss edirdi. Damağındakı papiros sönmüşdü. Onun da gözləri qeyri-müəyyən bir nöqtəyə zillənmişdi. O da duyur, o da yaşayırdı.

Balaca otaqdan qopan səslər, tez-tez ahəngini dəyişirdi. Ədhəm bir yerdə sakit otura bilmir, gah ayağa qalxıb gəzinir, gah da Səbriyə yaxınlaşıb hərəkətsiz dayanaraq, həyəcanla dinləyirdi.

Səbri bütün diqqətini toplayıb son akkordları vurdu. Pianonun dilləri qeyri-adi bir qüvvətlə balaca otağı birdən titrətdi və birdən də kiridi.

Səbrinin o qədər də cazibəli olmayan qalın dodaqları arasından incə dişləri göründü. O, çaldığı əsərinmi, yoxsa ürəyinə axan sevincinmi təsirindən nəşələnib bir xeyli yoldaşının üzünə baxdı.

Ədhəm yalnız bir neçə dəqiqə sükut etdikdən sonra fikirdən ayrıldı:

– Çaldığın əsər hansı kompozitorundur? – deyə Səbridən xəbər aldı. – Mən bu cür əsəri xatırlamıram. Kimindir?

– Sənin fikrincə kimin olar?

– Ya Bethovenin, ya da...

Səbri qaqqıltı ilə gülüb yoldaşının sözünü kəsdi:

– Deməli, biz ya Bethovendən oğurlamışıq, ya da...

Bu cavabı eşidəndə, Ədhəm qızardı:

– Yox, yox mən elə demək istəmədim. Qəhrəmanlıq simfoniyasını xatırladan bir üslubda yazılmışdır. Mənə elə gəlir ki, bu əsər dinləyənləri titrədəcəkdir – deyə. Ədhəm əvvəlcə Səbrinin üzünə baxdı, sonra gözlərini aşağı dikib dırnaqlarını qurdalamağa başladı.

Səbrinin qalın dodaqlarına nisbətən çox yaraşıqlı görünən inci dişləri yenə parıldayırdı. O, pianonun dalından qalxaraq, əli cibində gəzinmək istərkən, özü haqqında Ədhəmdən çoxdan eşitdiyi bir sözə işarə ilə qəsdən soyuqqanlı bir tərzdə dedi:

– Məndə yüksək və mənalı əsər yaratmaq istedadı yoxdur, deyilmi?

Ədhəmin ürəyi necə döyündüsə , alnı və yanaqları qan kimi qızardı. O, küskün bir səslə cavab verdi:

– Sən nə yaman kinlisən, Səbri! Altı il əvvəl dediyim bir sözü hələ unutmayıbsan.

Yalnız adi bir sövq-təbii ilə yoldaşına baxan Səbrinin gözü incə bir təfərrüata ilişdi. Ədhəmin papiros tutan barmaqları xəfif-xəfif titrəyirdi.

Səbri doğrudan da kinli imiş. O, əlbəttə xatırlayırdı və öz barəsində deyilmiş acı sözləri uzun illər boyu inadla yadında saxlayıb, yeri gələndə üzə vurur, Ədhəmdən intiqam alırdı:

– Məni yalnız bir şey qorxudur: Həsəd!.. Heyfsən, Ədhəm...

Ədhəm bu sözlərin ağırlığına dözə bilmədi:

– Yox, yanılırsan. Mən yalnız sevinə bilərəm...

İstəkli dostumun bu cür qüvvətli əsərini dinlərkən, ürəyimdə yalnız iftixar hissi...

Lakin o fikrini tamamlaya bilmədi. Udqundu. Səbrinin gözləri indi də bu qeyri-səmimi sözləri deyən dodaqlara zillənib qaldı.

II

Səbri təhsildən qayıtdığı gündən iki il keçirdi, amma yoldaşı Ədhəmlə birinci dəfə görüşürdü. Bunun səbəbi vardı. O, Ədhəmi həmişəki kimi yox, olduqca fövqəladə bir şəraitdə, gözəl bir əsər yazdıqdan sonra görmək istəyirdi. Çünki Səbri hələ Moskvaya yola düşəndə, Ədhəm ona istehza edirdi: "Təhsil gücünə kompozitor olacaq!" deyirdi. Həm deyirdi, həm də nəşə ilə gülürdü.

Ədhəmi bütün şəhər tərifləyəndə, Səbrini pisləyirdi. Ədhəm onun hər bir əsəri haqqında acı lətifələr düzəldirdi. O, istedadlı bir tənqidçi idi: həm özü gülürdü, həm də başqalarını güldürürdü. Bəzən Səbri özü də gülməyə məcbur olur və bu lətifələri uydurmağa vaxt tapan Ədhəmi alqışlayırdı. Bəlkə də səhv edirdi. Amma Ədhəm bu alqışlara layiq bir tənqidçi idi.

Hələ məşhur tənqidçi Ağazadə elə bil onunla əlbir idi. Hər şeyə dair məqalə yazmağı bacaran, teatrı, estradanı, sirki, tarixi, Azərbaycan ədəbi dilini və hətta ədəbiyyatını öz doğma ixtisası bilən bu tənqidçi musiqi haqqında az yazmamışdı. O, məşhur fransız ensiklopedisləri kimi geniş sahələri qavramaq istəyən, lakin onların qapısında süpürgə

çəkməyə layiq olmayan bir tip idi. Qəzet sütunlarını, teatrın bahalı lojalarını, operanın bahalı cərgələrini böyük bir ehtiramla Ağazadəyə təqdim edənlər də vardı. Müxtəsər, "məşhur tənqidçinin" qələmi aləmə qan uddurduğu kimi, Səbriyə də göz verib işıq vermirdi. Cavan istedadları böyük məharətlə qəbrə gömən bu tənqidçidən kompozitorla dirijor arasındakı fərqi soruşsaydılar, o, sümüklü eynəyini düzəldib, ötgün səslə cavab verərdi:

– İkisi də bir sözdür. Mədəni ölkələrdə kompozitor deyirlər, amma yarımmədəni ölkələrdə dirijor.

Həmin bu məşhur tənqidçi, uzun müddət Səbrinin yazdığı əsəri dinləyənlər üzünə həsrət qoydu; ona məsləhət gördü ki, "aqronomluğa, bəlkə də ondan daha mədaxilli olan baytarlığa getsin".

Səbri gənc idi. Təcrübəsiz idi. Təlxəkliyi bacarmırdı. Ancaq onun, "məşhur tənqidçi" qədər olmasa da, hər halda özünə görə qənaəti vardı:

– Mənim biliyim çatışmır, Moskvaya gedib oxuyacağam.

O Ağazadə ilə məsləhətləşmədən təhsil almağa getdi. Dörd il oxudu, iki il də məşhur musiqi ustaları ilə birlikdə işlədi. Onların təcrübəsi ilə yaxından tanış oldu. Səbrinin qüvvətli istedadını görən qoca ustalar ona məsləhət gördülər ki, yenə vətənə qayıdıb yaradıcılığa başlasın.

Beynəlxalq yarışlardan böyük qələbə ilə çıxan gənc ustalar yetirmiş qoca müəllim Səbrinin alnından öpüb deyirdi:

– Xalqınızın zəngin musiqisi var. Böyük rus kompozitorları çox vaxt sizin musiqinizdən istifadə edərək, ölməz əsərlər yaratmışlar. Siz də bu yolla gedin. İlk əsərlərinizdə xalq ruhunun aydın izləri görünür. Yalnız bir nöqsanı vardır ki, səviyyəcə yüksək deyil. Gedin əziz vətənə, bir neçə ildən sonra yenə görüşərik...

Səbri Bakıya qayıdandan sonra iki il də rayonları gəzdi, kəndləri dolaşdı, tütək çalanları dinlədi, zurnaçılara qulaq asdı, aşıqları oxutdurdu, toy məclislərində, el bayramlarında böyük bir həvəslə iştirak etdi. Xalq dastanlarını, el qəhrəmanlarının maraqlı sərgüzəştlərini öyrəndi və şəhərə dönərkən, özü ilə bərabər insanı heyrətə salan zəngin materiallar da gətirdi. Bu gün çaldığı əsər, onun yazdığı "Azad insan" simfoniyası idi.

O, istehzalı təbəssümlərə məruz qalan balaca əsərlərdən sonra, müəllimlərini və dostlarını sevindirən bir simfoniya yaratmağa müvəffəq olmuşdu. Səbri dərin bir sevinc hissi duymağa haqlı idi...

III

Ədhəm, pianoda çalınan parçaların orkestrdə necə qüvvətli gurlayacağını düşünüb, Səbridən qat-qat zəif olduğunu gördü. Özü də duymadan, onun papiros tutan barmaqları xəfif-xəfif titrəyirdi.

– Əlbəttə, Səbri, – deyirdi, – mən də şəxsən sənin istedadlı bir gənc olduğunu bilirəm. Amma Ağazadə yenə sağdır. O, qəzetlərdə yenə yazır.

Səbri yoldaşının fikrini o dəqiqə başa düşdü.

– Mən şöhrət dalınca qaçmayacağam. Gecə-gündüz işləyib əsər yazacağam. Ağazadəyə gəlincə, o, sənin düşündüyün qədər də böyük təhlükə deyil.

Ədhəm cavab verməyə tələsdi:

– Axı hər halda tənqidçidi, tamaşaçılara istiqamət verir.

– Yanılırsan, dostum... Pis tənqidçilər tez unudulur, amma yaxşı əsərlər qalır. Mən çalışıb əsərlərimlə dinləyicilərə istiqamət verəcəyəm. Onun bədii zövqünü korlayan mahnılardan yüksək xalq musiqisinə doğru geniş bir yol açacağam.

Ədhəm bu dəfə istehza ilə qımışdı. Dostunun üzünə baxdı, sonra gözlərini yerə dikdi. O, nədənsə, istəyirdi ki, qarşısındakı adamın yenə də heç bir nüfuzu olmasın: hər addımda istehza ilə qarşılansın, onun şöhrətini kölgələndirməsin. Bu gün eşitdiyi əsəri xatırlayıb həyəcanlanır, ürəyinin dərinliklərində onu narahat edən bu yeni hadisəyə soyuqqanlı baxa bilmədiyini ixtiyarsız büruzə verirdi.

Birdən Səbri nəyi isə xatırlayıb gülümsündü. Ədhəm təəccüblə soruşdu:

– Niyə qımışdın? Olmaya elə düşünürsən ki, mən paxıllıq edirəm?

– Yox, qətiyyən! Yadıma bir şey düşdü.

– Nə?

– Əfşan hardadır? Düz üç il olar ki, görməmişəm... Aranız necədir?

– Əfşan?.. Buradadır. Həkim olub. Məni əvvəlkindən yüz qat çox sevir. Necə, nə üçün xəbər aldın?

– Maraqlanmaq olmazmı?

– Nə üçün olmaz. Təəccübümə səbəb odur ki, birdən soruşdun.

Səbri dinmədi. Üzündəki təbəssüm izləri yavaş-yavaş silinib getdi.

– Deyirsən çox sevir?

– Sualların qəribədir...

– Yaman qısqanc olubsan, Ədhəm, yaxşı deyil... Bu sənin üçün ayıbdır.

Səbri danışığına ara verib pianoya yaxınlaşdı, bir az əvvəl çaldığı əsərin bir hissəsini yenidən təkrar etdi. Sonra üzünü Ədhəmə çevirib üst-başına işarə ilə gileyləndi:

– Tələbəlik məni bu kökə saldı, özümə hələ də yeni bir kostyum almamışam... Qızlar yüz dəfə bismillah deməmiş üzümə baxmırlar... Bilmirəm konsert verəndə, belə çıxsam ayıb, olmaz ki?

Ədhəm təəccüblə soruşdu:

– Konsert verəcəksən?

– Olmaz?

Ədhəm çiyinlərini çəkdi.

– Nə deyim?

– Məsləhət görmürsən?

Ədhəmin ən çox qorxduğu da bu idi. Deməli, Səbri altı illik təcrübəsini diqqətlə hazırladığı bir konsertlə nümayiş etdirəcək, dinləyənlərdə dərin bir təsir buraxacaqdı. Bu, Ədhəmin ürəyinə qorxu saldı, amma o, yenə özünə təsəlli verməyə başladı: "Eh, bəlkə də onu dinləyən olmadı. Mənim şöhrətimi kölgələndirmək üçün uzun illər lazımdır". Ədhəm darıxan kimi oldu. Dərindən nəfəs aldı. Ayağa qalxdı. Gəzinə-gəzinə papirosunu tüstülədib fikirləşdi. Çox fikirləşdi. Amma yenə də ürəyindəki həsədi əzib yox edə bilmədi. O boydan uca, enli kürəkli, yeriyərkən döşünü məğrur tutmağa çalışan bir gənc idi. Adəti belə idi ki, dayaz baxışlı mavi gözlərini həmişə qabağındakı adamın çiyni üzərindən məchul bir nöqtəyə zillərdi.

– Səbri, – konsertin müvəffəqiyyət qazansa, mən çox şad olaram. Ancaq... – O, yenə çiyinlərini çəkdi, xoruz pipiyi kimi qızarmış yanaqlarını ovxaladı, dodaqlarını büzdü. – Ancaq əvvəldən haqqında belə fikir yaradılıb ki, qorxuram tamaşaçılar gəlməyə.

Səbri duruxdu, udqunaraq cavab verdi:

– Nə olar ki?.. Birinci dəfə gəlməsələr də, yaxşı əsər yazdığımı biləndən sonra gələrlər.

– Eh, sən qəribə adamsan, haradadır bizdə belə qanacaqlı tamaşaçı?!

IV

Lakin konsert salonunda oturmağa yer yox idi. Çox adam cərgələrin arasında, geridə ayaq üstündə durur, gənc kompozitorun səhnəyə çıxmasını dərin bir intizar içində gözləyirdi. Bugünkü qəzetlərin axırıncı səhifəsində, Səbrinin yeni əsərinə dair bəzi qeydlər vardı. Məqalə yazanlardan biri sevinclə göstərir ki, cavan kompozitor zəngin xalq musiqisindən istifadə edib dərin, orijinal, sarsıdıcı bir simfoniya yaratmışdır. Bu fikri söyləyən, əlbəttə, "məşhur tənqidçi" Ağazadə deyildi. Görünür o, konsert günündən sonra yazacaqdı. Tamaşaçılar isə, Ədhəmin düşündüyü kimi, heç də kinli deyildilər. Onlar bəlkə Səbrini tamam unutmuşdular, yaxud altı il əvvəl eşitdikləri əsər haqqında Ağazadənin yazdığı sözləri etirazla qarşılayıb, Səbrini bir də dinləmək istəmiş, amma buna imkan tapmamışdılar. Səbrini də, əsərlərini də dinləyənlər üzünə həsrət qoyan o olmuşdu. Xalq isə, həmişə olduğu kimi, indi də sevməyi bacarırdı. O özünün böyüdüb yüksəltdiyi gənc oğlandan daha mənalı, daha istedadlı nəğmələr eşidib zövq almağa gəlmişdi.

Hələ konsertin başlanmasına yarım saat qalmış gələn Səbri, köhnə kostyumunda idi; o yalnız qara qıvrım saçlarını səliqə ilə darayıb, üzünü tərtəmiz qırxmışdı. O hər şeyi unutmağa söy edib, xeyli dalğın görünürdüsə də, konsert başlanan vaxtın elə bil qeyri-adi bir sürətlə yaxınlaşdığını duyub, ürəyi döyünə-döyünə estradanın yanındakı ağ məhəccərə söykənərək, oğrun-oğrun tamaşaçılara baxırdı. O, yenə birinci cərgədə Ağazadəni gördü. Yalnız intiqam üçün yaranmış bu insan, sümüklü eynəyinin altından dik-dik baxır, Səbri haqqında əvvəlcədən qərar hazırlayırdı.

Səbri tamaşaçılar içərisində yaxşı tanıdığı köhnə məktəb yoldaşlarını, qoca müəllimlərini, tanış qızları görəndə əllərinin titrədiyini, dərin və anlaşılmaz bir sevinclə dolan ürəyinin daha da şiddətlə döyündüyünü hiss edib, özünü toplamağa çalışdı və sonra qoca çalğıçıya dönərək soruşdu:

– Başlayırıqmı?

Uzun illərdən bəri dirijoru yalnız səhnədə, xeyli intizardan sonra görməyə vərdiş edən qoca, Səbrinin adi iclasa yaxud, gündəlik yaradıcılıq mübahisələrinə gələn adamlar kimi heç bir xüsusi hazırlıq görmədən, heç kəsi dalınca gəlib "Vaxtdır, buyurun" deməyə məcbur

etmədən gəldiyini xəfifcə bir təbəssümlə qarşıladı, mehriban və titrək bir səslə:

– Vaxtdır, – deyib Səbridən uzaqlaşdı.

Səbri yenə məhəccərə söykəndi. Ancaq indi tamaşaçılara yox, Bakının düz üstündən dənizə enmiş ayın sularda əks edən gümüş pullarına, böyük bir qurşaq kimi şəhərin boynuna dolanmış sayrışan sahil işıqlarına baxırdı.

Bu gün Bakı daha gözəl idi. Böyük Qorkinin Sovet Neapolu adlandırdığı bu şəhərin axşamlarını Səbri ta uşaqlıqdan sevirdi. Yalnız bircə dəniz, onun sahili döyən möhtəşəm dalğaları, qəşəng bir dairə kimi uzanan sahil boyu nəyə dəyməzdi.

Səbri elə bil hər şeyi unudub, yalnız doğma şəhərinin əfsanəvi gözəlliklərini daha yaxşı duymaq üçün buraya gəlmişdi.

İşıqlar dənizdə üzür, Bakı isə, sahillərdə dalğalana-dalğalana parıldaşan işıqlar dənizində alışıb yanırdı.

Bakı nə gözəl idi!..

Birdən kim isə Səbrini fikrindən ayırdı:

– Sizi gözləyirlər.

Konsert salonunu dolduran insan kütləsi, onu baş əyməyə məcbur edə bilmədi: "İndi yox, əsərimi ifa edəndən sonra alqışlarsınız!" – deyə fikirləşən Səbri dirijor çubuğunu yuxarı qaldırarkən, salon kiridi: alqışlar dərin və mənalı bir sükuta çevrildi. Gözlər bir nöqtəyə dikildi.

Səbrinin əsərində bir insanın taleyindən bəhs edilirdi: təbiətin dilbər qoynunda azad böyümüş insan rütubətli, dar və qaranlıq bir məhbəsə düşmüşdü. Uzun illər boyu sevinc üzünə həsrət qalmışdı. O düşünürdü, həyəcanlanırdı. Güclü yumruqları ilə məhbəsin dəmir qapılarını döyəcləyirdi, haqsızlığa qarşı üsyan edirdi. Amma yenə də zindanın qatı zülməti əksilmirdi. İnsan günəşdən, həyat işığından məhrum qalmışdı. Sonra o, birdən əzəmətli şəhərin küçələri ilə axıb gedən xalqın nəğməsini eşitdi: azadlıq nəğməsini!.. Bu nəğmədə əvvəlcə ona yad olan bir həyat eşqi çırpınırdı. Məhbus yenə çəmənləri, düzləri, zümrüd yamacları, yalqızlıqda keçirdiyi azad dəqiqələri xatırladı. O, atılmış pambıq tayaları kimi görünən ağ buludlar arasından solğun çöhrəsini göstərən ayı, dərədə ayın işığını əks edən şır-şır suları gördü... Sonra çobanın tütəyi inlədi. Sevdiyi nəğmə dağlara, dərələrə səs saldı. Küçələri dolduran xalqın nəğməsi daha güclü idi. Məhbəsdə inləyən insan da bu nəğməni dinləyirdi. Çoban tütəyinin əvəzinə minlərlə insanın

zindanı titrədən dəmir marşı səslənirdi: qaranlıq məhbəs elə bil yavaş-yavaş sarsılırdı. Məhbusun gözlərində birdən ümid qığılcımları parıldadı; o da, küçələri dolduran insan dənizinin nəğməsini duyaraq, sonra hamıdan gözəl, hamıdan qüvvətli bir ehtirasla bu nəğməni oxudu, səsini azadlıq gətirən xalqın qalib səsinə qatdı...

Ədhəm salonda idi. Onun da gözləri Səbriyə zillənmişdi. Onunla yanaşı oturan gözəl qız durna boğazını yuxarı qaldırıb, özünü də, salondakıları da, Ədhəmi də unutmuş kimi, birdən onun xəyalını alıb uzaqlara aparan bu yeni əsərə heyran qalmışdı.

– Əfşan, sənə nə olub, rəngin niyə ağardı?

Bu sualı verən Ədhəm idi. Amma Əfşan onun səsini eşitmirdi.

– Söz soruşuram, rəngin niyə ağardı?

– Yoldaş mane olma! – deyə arxadan kim isə nəzakətlə pıçıldadı.

Əfşan sualı eşitdisə də, cavab verməyə ehtiyac qalmadı: birdən böyük salon zəlzələyə düşmüş kimi titrədi. Alqış səsləri ta uzaqlara qədər yayıldı...

Əfşan ayağa qalxdı. Təəccüblə baxan Ədhəmi görmürmüş kimi, ona sarı baxmadan irəli yüyürdü.

– Səbri, Səbri!

Bu çağırış, sevgidən çox heyran olmuş insanın etirafına bənzəyirdi.

Səbri dönüb baxdı, qızı tanıya bilmədi. Lakin Əfşan lap yaxınlaşanda, Səbri onun əlini sıxıb, gülə-gülə göy haşiyəli yaylığı ilə alnını silərək dedi:

– Nə qədər dəyişmisiniz!.. Bəs Ədhəm hanı?

Əfşan bu sualdan inciyib gözlərini yerə zillədi.

Sualına cavab almayan Səbri çiyinlərini çəkdi. Sonra hər ikisinin gözü bir-birinə dikildi. Əfşan dərindən köksünü ötürdü, əlindəki gül dəməti də xəfifcə titrəyirdi. Bu nə idi? Etirafmı idi?!

Səbri yenə də alqış səslərini eşidir, utandığından bucağa çəkilir, nə isə demək istəyirdi.

Görəsən o sevinirdimi?..

1938 – oktyabr, Bakı

ÇARPAYI

İsfəndiyar yuxudan oyanıb sakit-sakit ətrafına boylandı. Evdə ondan başqa heç kim yox idi. Qapı örtülü idi. Həyətə baxan balaca pəncərədən buludlu səmanın kiçik bir parçası görünürdü.

– Ana, ay ana!..

Bu iniltili çağırışa cavab verən olmadı. İsfəndiyar yerində dirsəklənib oturmaq istədi. Amma bədəninin şiddətli ağrısından gözləri yaşardı.

– Ana, ay ana!..

Onun ayağının ucunda, köhnə yorğanın üstündə büzüşüb rahatca yatan məstan pişik də yuxudan oyandı. O, zil qaranlıq otaqda xırdaca elektrik lampaları kimi parıldayan gözlərini açıb İsfəndiyara baxdı.

İsfəndiyar, bədəninin sızıltısını azaltmaq üçün böyrü üstə uzandı. Hərəkətsiz qalıb Məstan pişiklə xeyli müddət gözləşdi. Evin sükutu elə dərin idi ki, Məstan pişiyin xorultusu lap aydın eşidilirdi.

İsfəndiyar yaşarmış qara gözlərini ondan ayırmayıb, hər gün təkrar olunan adi söhbətinə başladı. Onun səsi titrəyirdi. Üz-gözündə ağır iztirabla dolu bir ifadə çırpınırdı. Bəzən onun gözlərində parıldayan sevinc bir an qədər qısa və insafsız idi. Bir an qədər...

– Məstan, ay Məstan, sən məndən xoşbəxtsən... Vallah hə... bax, görürsənmi, qıçlarımın ağrısından göz aça bilmirəm... Nə qədər istəyirəm yerimdən qalxım, olmur, ki, olmur... Hər yerim ağrıyır... Məstan, nə yaman xoşboxtsən... Niyə bəs mən bədbəxtəm, Məstan?.. Yəqin indi uşaqlar məktəbə gediblər, bülbül kimi oxuyurlar... Həyətdə oynayıb gülürlər. Niyə mən belə yazığam, Məstan!

Birdən qapı cırıldayaraq açıldı. İçəri axan işıq, balaca otağın yarısını aydınlaşdırdı.

– Bu evdə yel xəstəliyindən başqa nə ola bilər ki?

Ayağı dolaşıb yıxılacağından qorxan doktor qaranlıqda ayağının altına baxa-baxa, ehtiyatlı addımlarla içəri girdi. Onun qabağınca gələn Badam xala, doktorun sözlərini eşitmədi.

– Nə dedin, doktor?

– Yel xəstəliyi rütubətli evlərdə olur...

Doktor buludlu gecədən belə qaranlıq olan bucaqda, yerə uzadılmış İsfəndiyarı görmürdü. O, əlini alnına dayadı və bir neçə saniyə dayanıb qaranlığa alışmaq istədi.

Sevincindən yerə-göyə sığmayan Badam xala donunun uzun ətəkləri ayağına dolaşa-dolaşa, cəld oğluna yanaşdı.

– Qadan alım, bala, doktor gəlib.

İsfəndiyar bir dəqiqəliyə hər şeyi unutdu. Əvvəlləri yalnız bir an üçün gözlərində parıldayan sevincin də ömrü uzandı.

– Eviniz rütubətdir, xala, çox rütubətdir!

– Bu azarın dərmanı yoxdurmu? – deyə. Badam xala səbirsiz xəbər aldı və geriyə dönüb doktora baxanda, üzünə düşən zəif işıqda onun gözləri təəccüblə parıldadı, – yoxdurmu, qadan alım?

Yalnız indi-indi qaranlıq evə alışan doktor qəmgin-qəmgin Badam xalaya baxdı. Onun baxışlarında yenə eyni sualı oxudu: "Bu azarın dərmanı yoxdurmu?"

– Dərmanı? Var, xala... Niyə yoxdur? Onun birinci dərmanı günəşli otaqdır...

Doktorun böyük bir ümidlə dediyi sözləri axıra qədər dinləməyən Badam xalanın bütün ümidləri alt-üst oldu. Yalnız doktoru çağırmaq üçün onun-bunun qapısında dörd-beş gün paltar yuyub üçcə manat qazanmış arvad, günəşli otağı nə ilə ala bilərdi.

– Bəli, xala, günəşli otaq...

– Bahalı dərmandır, oğul...

Doktor xəstəyə yanaşdı. Yalnız indi şüşələrini yaylıqla silib taxdığı eynəyinin dalından İsfəndiyarın üzünə baxdı. İsfəndiyar zahirən çox sağlam görünürdü. Totuq yanaqlarından az qala qan damırdı, amma xəstə idi, özü də çox bərk xəstə idi.

Doktor dərindən köksünü ötürdü. Elə bil "heyf" deyə səsləndi. Sonra müayinəyə başladı.

– Şiddətli revmatizmdir. Heç olmasa, çarpayı alın... bəli, bəli, çarpayı... evinizin döşəməsi də yoxdur, xala... Oğlunuz yazıqdır... Yaxşı uşaqdır... Gələcəyi var... heyf olmasın.

İsfəndiyar eşitməsin deyə, doktorun pıçıltı ilə söylədiyi bu sözlər Badam xalanın ürəyinə ox kimi sancılırdı. "Heç olmasa çarpayı alın..."

Badam xala dünəndən köhnə kəlağayısının ucuna bağlayıb saxladığı göy üçlüyü çıxartdı, utana-utana, əli titrəyə-titrəyə doktora uzatdı.

– Lazım deyil, xala, almayacağam...

Doktor getdi, amma üçlük də qaldı, zindandan belə qaranlıq olan rütubətli otaq da qaldı. Günəş isə, yox idi. Çarpayı da yox idi.

Doktor getdi. Amma gözləri yaşarmış Badam xalanın: "Ay Tanrı, sən özün balama kömək ol!" deyən iniltili səsi də qaldı.

Məstan pişik yenə xorul-xorul yatırdı. Otaq yenə sakit idi. Qapı da örtülmüşdü.

– Çarpayı?.. Ana, çarpayı nədir?

Badam xala çarpayını pulla almadı, üç manata çarpayı verməzdilər: onun hər gün işlədiyi əlləri sağ olsun. O, çarpayını ana məhəbbəti ilə aldı. Amma hər halda aldı. Özünü də çiynində gətirib oğlunun yerini onun üstündən səliqə ilə saldı, sonra yenə hara isə getdi.

– Çarpayı... Ana, ay ana, mən sağalacağam, elə deyilmi?

* * *

Evdə heç kəs yox idi. Badam xala oğlundan xəbərsiz onun-bunun qapısında əlinin əməyini satmağa getmişdi. Namusunu qoruyan böyük ananın qolları hələ gücdən düşməmişdi.

– Məstan, ay Məstan, mən sağalacağam, elə deyilmi?

İsfəndiyar yenə darıxırdı. Uzun qış gecələrində bu cansıxan yalqızlığa dözmək olardı. Amma indi yaz idi. İsfəndiyar yenə də Məstanla gözləşir, yenə onunla söhbət edirdi. Pişik onun səsini eşidəndə, hər bir şeyi anlayırmış kimi, gözlərini ona zilləyir, yerindən qımıldanmayaraq, diqqətlə dinləyirdi.

– Ay Məstan, eşikdə qərənfil açılıb, dur, heç olmasa, sən get... Dur, dur,... sən ki, xoşbəxtsən...

Məstan yerindən qalxmadı, o yalnız dinləməyi bacarırdı. Pişik yenə büzüşüb xorul-xorul yatdı. İsfəndiyarı da yuxu apardı. Çarpayının üstü elə rahat idi ki...

* * *

Amma satın alınmış səadətin ömrü uzun deyilmiş. Birdən atışma səsləri Məstanı da, İsfəndiyarı da oyatdı.

– Məstan, ay Məstan, anam haradadır?

Bu həyəcanlı sualdan qorxmuş Məstan, çarpayıdan yerə atıldı.

– Qorxma, Məstan, qorxma... çarpayı məni sağaldacaq... Niyə qorxursan?..

Hər gün əldən-ələ keçən balaca şəhərdə vuruşma gedirdi. Toptüfəng atırdılar. Nə üçün? Yəqin ki, insanlar gözəl həyat arzulayırdılar. Yazın təmiz havasından nəfəs almaq üçün əlləşirdilər.

Məstan pişik qapının ağzında durub yazıq-yazıq boylanırdı. Onun gözləri təəccübdən böyümüşdü. O, İsfəndiyar kimi, çarpayıya vurulmamışdı. Qapı açılsa, o dəqiqə eşiyə yüyürərdi.

Birdən qapı açıldı. Gələn Badam xala idi. Məstan onun böyründən sivişib eşiyə çıxdı.

– Dur qaçaq, oğlum!..

– Hara?

Ana ilə oğlun gözləri bir-birinə sancıldı. İsfəndiyar bir də soruşdu. Badam xala isə, onu tez geyindirib çarpayıdan yerə saldı. İsfəndiyar ağlaya-ağlaya çarpayının ayağını qucaqlayıb dizi üstə çökdü.

– Ana, ay ana, mən getmirəm, çarpayımdan ayrılsam, sağalmaram. Ana... Axı doktor deyirdi ki, yelin dərmanı çarpayıdır...

– Dur qaçaq, oğlum... Düşmənlər öldürərlər!

İsfəndiyar ancaq yaşamaq arzusu ilə çırpınırdı.

– Öldürərlər!

İsfəndiyar çarpayının ayağını necə tutmuşdusa, uzun dırnaqları ovcunun ətini qanatmışdı.

– Yox, ana, yox!..

Badam xala oğlunu sürüdü. Çarpayı da onunla bərabər sürünməyə başladı. Qapının ağzında İsfəndiyarın əli çarpayıdan üzüldü. O, yazıq anasının dalınca ağlaya-ağlaya imələdi.

Silah səsləri yaxınlaşırdı. Məstan pişik çoxdan qaçıb harada isə gizlənmişdi. Adamlar isə yüyürüşürdülər. Dallarına baxmadan, ağlaşa-ağlaşa, bir səmtə doğru yüyürüşürdülər. Hamı şəhərdə üsyan qaldırmış ağ zabitlərin təqibindən qaçırdı. İnsanları qovub, ölümlə onları hədələyirdilər. Amma İsfəndiyar yenə də ölümün nə olduğunu bilmirdi. Onun gözləri yaşamaq arzusu ilə parıldayırdı.

– Ana can, məndən nə istəyirsən?

Badam xala onu sürüyürdü. Qucağından sıçrayıb yerə dəyən oğlunun uzun ətəyi yenə də onun əlində idi. Bəli, bəli Badam xala onu heç vaxt əlindən buraxmayacaqdır. İndi İsfəndiyarın bütün bədəni ağrıyırdı. Qıçları, əlləri, kürəyi, boynu necə ağrıyırdısa, gözlərinə qaranlıq çökmüşdü. İsfəndiyar heç kimi görmürdü. Hətta elə bil dəstə-dəstə qaçıb uzaqlaşan insanların asimana ucalan ağlaşma səslərini də eşitmirdi.

O ən əziz dostu, ən yaxın sirdaşı Məstan pişiyi də unutmuşdu. İsfəndiyarın qorxudan böyümüş məsum gözləri yalnız evdə qoyub getdiyi çarpayını görürdü.

– Ay ana, mən getmirəm!..

İsfəndiyar sürünürdü. Bədəninin sızıltısından daha da çox yaşarmış gözlərini silə-silə, toza-torpağa bulaşa-bulaşa, anasının dalınca sürünürdü.

Kimsəsiz arvada kömək edən yox idi. Hər kəs öz canının hayında idi. İnsanlar hər şeyi unutmuşdular.

Elə bil dünyada sədaqət, məhəbbət deyilən yüksək hisslərdən bir əsər belə qalmamışdı.

Badam xala yenə iniltili bir səs eşitdi:

– Ana can, mən yazıq deyiləmmi?

Birdən top mərmisi partladı, qara torpağı göyə sovurdu. Badam xala ağzıüstə döşənib toz-torpağın arasından keçdi. Ətrafı çulğamış qatı toz dumanları seyrəkləşəndə, Badam xala həsrət və intizar dolu gözləri ilə İsfəndiyarı aramağa başladı. O, görünmürdü. O, yox idi. Hara getmişdi? Məlum deyildi.

– Bala, İsfəndiyar!..

Badam xala İsfəndiyarın öldüyünü yəqin edib dörd yanına boylana-boylana, top güllələrinin dağıtdığı yerə sürünərək, dırnağı ilə torpağı eşələdi:

– Oğlum!..

Qara torpaqdan cavab gəlmədi. Badam xala tək qalmışdı. Bir irəliyə baxdı, bir də dönüb geriyə. İrəlidə, ondan xeyli uzaqda, yaşıl çəmənlərin arasından uzanan əyri-üyrü tozlu yolla böyük bir insan dənizi axır, dolu kimi yağan güllənin altında seyrəkləşə-seyrəkləşə, şəhərdən uzaqlaşırdı. Geridə isə qaçanların dalınca güllə yağdıranlar gəlirdi.

– İsfəndiyar, bala, haradasan?

Badam xala dizi üstə döşənib yenə süründü, süründü, hönkürtü ilə ağladı, onun arıq çiyinləri qalxıb endi, sonra birdən geriyə atıldı, ayaqlarına dolaşan uzun ətəklərini çırmayıb yüyürdü. O, heç nədən qorxmurdu. İnsanın bütün varlığını titrədən qorxu, ana məhəbbətinə təslim olmuşdu. Elə bil ki, Badam xala qulağının dibindən vıyıltı ilə uçuşan güllələrin səsini eşitmirdi. O, yüyürüb qabağındakı xəndəyə yıxıldı, otların içində görünməz oldu.

– İsfəndiyar!

Bu səs, çağırışdan artıq əks-sədaya bənzəyirdi. Yalnız bir neçə addım ondan aralı duran pulemyot, birdən-birə yox olmuş xəstə uşağını dörd gözlə axtaran anaya qəhqəhə ilə gülürdü. Ana gözləri isə, qovan və qovulan insanlar arasında yalnız birini, yalnız İsfəndiyarı axtarırdı. Nə üçün ondan səs çıxmırdı, "ana" deyə inləyən uşaq harada gizlənmişdi, o, isinməyə, ana qucağından isti yer tapa bilərdimi!

"Vəfasız oğul, məni tək qoyub haraya qaçdın? Ay bədbəxt bala, niyə məni gözü yaşlı qoydun!"

Badam xalanın fəryadını yalnız özü eşidirdi. Vurhavurdan qulaq tutulan ölkədə ananı dinləyən kim idi? Heç kim onu dinləmirdi.

Badam xala birdən donub qaldı. O da İsfəndiyar kimi ətrafındakı şeyləri unudub yalnız çarpayını görürdü.

– Çarpayı, hə, hə çarpayı. İsfəndiyar, hardasan? Gəlirəm, bala, gəlirəm...

Ana gözlərində sevinc yaşları parıldadı; o, İsfəndiyarı tapmamışdısa da, onun harada olduğunu bilirdi...

Göydən dolu kimi yağan güllələrə mərdliklə sinə gərib yüyürən kim idi? O qayaları, dağları yerindən oynatmağa qadir olan ana deyildimi, ananın ölməyən məhəbbəti deyildimi?

İsfəndiyar yox idi. Amma Badam xala sevinirdi. O, xoşbəxt idi. O indi İsfəndiyarın harada olduğunu yəqin bilirdi.

Badam xalanın uçuq, rütubətli və qaranlıq daxması yenə də öz yerində idi. Onun pəncərəsindən işığını salmayan günəş də, ağ-çəhrayı buludlar arasında üzürdü. Hər şey, hər şey öz yerində idi. Amma İsfəndiyar görünmürdü, bağların, bağçaların yaraşığı olan insanlar da görünmürdü. Nagahan qopan fırtınadan sonra, şəhərə əsrarəngiz, qərib, bir az da cansıxan, dərin bir ölüm sükutu çökmüşdü. Bir neçə dəqiqə əvvəl uzaqlardan arabir gələn güllə səsləri də indi artıq eşidilmirdi.

Məstan pişik qapının ağzında durub uçunurdu. Qorxudanmı, yalqızlıqdanmı, soyuqdanmı – demək çətindir.

Badam xala onu görmədi. Tez qapını açıb içəri girdi. Məstan pişik də onun dalınca yüyürdü. Badam xalanın gözləri qaraldı. Açıq qapının ağzında qoyub getdiyi çarpayı görünmürdü.

Badam xala bir dəqiqədən çox hərəkətsiz qaldı. Onun gözlərinə bir şey dəydi: çarpayı həmişəki yerinə qayıtmışdı:

– Oğlum!..

Ananın fəryadı sevincdən də qüvvətli idi. İsfəndiyar çarpayının üstündə uzanmışdı. Badam xala həyəcandan titrəyən qolları ilə onu qucaqlayıb bir an üzünə baxdı, sevincindən ağladı.

– Oğlum, İsfəndiyar, qadası, dur, dur... gəlib öldürərlər!

Ana oğlunun üzündən, gözlərindən öpdükcə, bayaqdan bəri çəkdiyi iztirabların ağırlığını unudub, neylədiyini bilmirdi.

– İsfəndiyar!

Yox, İsfəndiyarın yuxusu əbədi idi. Ölüm kimi əbədi.

– Bala, nə yaman ağır yatıbsan?..

Məstan pişik sıçrayıb çarpayının üstünə çıxdı. Həmişəki yerində çömbəlib İsfəndiyarın üzünə baxdı. O, görünür, dostunun söhbətinə qulaq asmağa hazırlaşırdı.

Badam xalanın gözləri böyüdü: İsfəndiyar al qan içində donmuşdu.

Ananın müdhiş fəryadı az qala bütün şəhərə səs saldı.

Məstan pişik dik-dik baxdı. Onun gözləri daha da böyüdü.

Məstan. ay Məstan, sən nə yaman xoşbəxtsən!.. Sənin balan yoxdur... sənin İsfəndiyarın yoxdur... Görürsənmi, onun anası vərəmləyib öləcək. Onun yeganə ümid çırağı söndü...

İsfəndiyarı kim öldürdü: – Çarpayımı?!

Yox, o, yaşamaq istədiyi üçün ölmüşdü, toqsirlərin də hamısı insanlarda idi. Zalım insanlar, bir çarpayını da ona çoxmu gördünüz?

1938

MARAL ƏFSANƏSİ

Əhməd Cəmilə ithaf

Meşədə boğuq bir güllə səsi eşidildi. Sahil boyunda ağacların xırdaca budaqları titrəşdi. Saralıb solmuş yarpaqlar bir müddət havada qanad çalaraq, yerə səpələndi. Bu anda elə bil ağaclar arasında saysız-hesabsız kəpənəklər uçuşurdu. Sonra hər tərəfə qərib, əsrarəngiz bir sükut çökdü.

Meşəni gümüş xəncər kimi iki yerə bölmüş Kür çayı sakit-sakit axırdı. Arabir xəfif külək əsir, xəzan yarpaqların xışıldadırdı. Ətrafın dərin sükutunu pozan bu xışıltı birdən qüvvətləndi və çox keçmədi ki, güllə səsi gələn tərəfdən bir maral çıxıb özünü sahilə verdi. Hündür palıd ağaclarının arxasında yavaş-yavaş gizlənən axşam günəşi də sarımtıl bir rəngə çalırdı. Maral sahilə endiyi zaman artıq Kür suları da sapsarı olmuşdu. Maral yüyürdükcə, tez-tez büdrəyir, şax-budaqlı buynuzları ağaclara toxunurdu. Yenə də xəzəllər uçuşaraq, yerə qonurdu. Maralın keçib gəldiyi yerdə sarı yarpaqlar üzərinə qan damlaları çilənirdi. Bu qan, maralın döşündən axırdı. Birdən maral buynuzlarını bir az da yüksəyə qaldıraraq, ürkək nəzərlərlə ətrafına boylandı. Onun yaşla dolmuş iri qumral gözlərində bütün ümidləri puça çıxmış yazıq bir insan baxışının qəmgin ifadəsi vardı. Onun göz yaşları da günün ziyasını əks edib sarıya çaldı.

Təbiət nə üçün saralmışdı? Bəlkə bu, həyatın əbədi qanunu idi. Maralın göz yaşları daha da çox parıldadı. O, səssiz-səmirsiz dayanaraq, bir neçə an ətrafı dinlədi. Xəfifcə xışıldayan xəzəllərdən başqa heç nədən səs çıxmırdı.

Maral çoxdan bələd olduğu cığırla suya endi. Od içində yanan dodaqlarını Kürə söykədi. Bir xeyli müddət içdi. Yalnız bir kərə dərindən nəfəsini dərib yenə suya döşəndi. Onun sinəsindən axan iri qan damlaları sakit dalğalara qarışır, bir göz qırpımında su rənginə dönüb görünməz olurdu.

Birdən maralın sağ tərəfindən bulanıq sular arasından bir tısbağa başını çıxarıb onu salamladı.

– Xoş gördük, maral qardaş, – dedi, – səndən nə əcəb, bu gün belə tez gəldin? Hələ ki, şər qarışmayıb.

Yarasının sızıltısını indi daha çox hiss edən maral, həmişəki qürurunu pozmadı. Çoxdan tanıdığı bu tısbağaya könülsüz bir cavab verdi.

– Heç... Bu gün hava çox isti oldu...

Tısbağa sudan büsbütün çıxdı. Sahilin payız otlarına sürtündü.

– Maral qardaş! – dedi, – mən bir az bundan əvvəl yenə sudan çıxıb günəşdə qızınırdım. Güllə səsi eşidib suya atıldım... Ovçu uzaqdadırmı?

Maral dinmədi. Bu sözlər bir azca könlünə toxundu. İnsanları sevməsə də, onların tısbağaya güllə atmadığını yaxşı bilirdi.

Birdən tısbağanın gözləri maralın döşünə zilləndi. O, təəccüblə baxdı və qorxudan titrəyərək, bir neçə kərə udqundu:

– Bu nədir, maral qardaş? Deyəsən yaralanmısan...

Maral yenə də qürurla cavab verdi:

– Bəli, – dedi, – çox ağır yaralanmışam. Ovçu məni dörd gündən bəri izləyirdi. O, məni çox axtardı. Dünən axşamüstü məni itirib Kürün o tayına, kəndə qayıtdı. Bu gün mən arxayın olub talaya çıxdım. Səhərdən rahatca otlayırdım ki, birdən güllə açıldı. Mən başımı qaldırıb baxdım, atan həmin ovçu idi. Düz sinəmə nişan almışdı.

Tısbağa marala daha yaxın gəldi. Diqqətlə onun yarasına baxdı.

– Eh, – dedi, – bilmirəm bu ovçu gözü tökülmüş sən maralnan mən maraldan nə istəyir?

Bu sözü eşidərkən məğrur maralın dizləri büküldü. İndiyədək damcı-damcı axan qanı birdən fəvvarə vurmağa başladı. Maral yerə yıxıldı.

Tısbağa ona daha da təəccüblə baxdı.

– Nə oldu, maral qardaş? – dedi.

Maral dərindən köksünü ötürdü və artıq qürub etmiş payız günəşinin son şüalarına həsrətli bir nəzərlə baxaraq dedi:

– Zalım ovçunun güllәsindən mən ölməzdim. Amma sənin sözün məni öldürdü...

1939

NİŞAN ÜZÜYÜ

I

Hələ gün çıxmamışdı. Təkdənbir əsən meh, həyətdəki badam ağacının xırdaca yarpaqlarını tərpədirdi və bu yarpaqlar tərpəndikcə, elə bil iki sevgili haradasa gizlənib yavaşcadan pıçıldaşırdı.

Bir az bundan əvvəl samovara od salıb yan tərəfdə oturmuş Əminə xala, yarpaqların pıçıltısını eşidirsə də, buna əhəmiyyət vermirdi: onun gözləri yol çəkirdi.

"...Ana! Dünən çox vuruşduq. Qabağımızdakı faşistlərin sayı bizdən beş dəfə çox olardı. Onların pulemyotları yağış kimi güllə yağdırırdı. Mən komandirimizin sol tərəfində durmuşdum. O bərk yaralandığına baxmayaraq, həmişə bizə ürək-dirək verirdi. Mənə də tez-tez, – Qorxma, Salman, – deyirdi, – gözlə, lap yaxına gələndə atarsan.

Mən əlimdəki qumbaranı hazır tutub düşmənin daha da yaxınlaşmasını gözləyirdim. Onlar sürünə-sürünə qabaqkı dikdirə çıxdılar. Mən az qala nəfəs almayıb komandirin əmrini gözləyirdim. Komandir əli ilə "Səbr elə!" işarəsini verə-verə, gözlərini düşmən gələn tərəfdən çəkmirdi. Birdən faşistlər ayağa qalxıb üstümüzə şığıdılar. Mən əlimdəki qumbaranı atdım. Bilmirəm dördümü, beşimi toz-torpağa qarışıb qaldı.

Ana! Mənim güllәm qurtarmışdı. Süngü davası başlandı. Gərək özün burada olub görəydin. Yalan olmasın, hərəmiz bir aslana dönmüşdük. Vuruşurduq, nə vuruşurduq... Faşistlər zərbəmizə dözməyib geri qaçdılar. Ax, ana, bu vaxt pulemyotumun bircə daraq patronu olaydı, gör onda heç bir faşist də sağ qaçıb qurtula bilərdimi!.."

Əminə xalanın gözləri yol çəkirdi. Oğlunun məktubunu azı yeddi-səkkiz adama oxutdurub tamam əzbərlədiyi halda, bir də təzədən oxutmağa bir adam axtarmaq fikrinə düşdü. Onun xəyalında ancaq bu sözlər dolanırdı: "Bircə daraq patron... Neyləyim?.. Bu iş əlimdən gəlmir, oğul... Yoxsa, bir daraq nədir, lap yüz daraq yollardım. Qalın corab deyil ki, gündə üç cüt toxuyam. Neyləyim?.."

Əminə xala samovarın səsinə fikrindən ayrıldı, tez durub samovarın qapağını götürdü, yanaqlarına dəyən isti buğdan üzü, alnı tərlədi. "Neyləyim, oğul, samovar deyil ki, o dəqiqə çayını dəmləyib hazır eləyim!"

Ananın xəyalından qəribə bir fikir keçdi: "Yox, sənə patron yollamayacağam. Onu hökumətimiz verər. O, heç vaxt sənin darda qalmağına

razı olmaz. Mən səndən ötrü qiymətli bir şey saxlamışam. Var-dövlətdən kasıb da olsam, dar gündə düşmənə möhtac olmaram".

Əminə xala tez çaynikə su aldı, samovarın qapağını yerinə basdı, "sonra yadımdan çıxar" deyə fikirləşib evə girdi.

Divar şkafının lap yuxarı gözündən alabəzək bir boğça çıxarıb döşəməyə qoydu; əli titrəyə-titrəyə boğçanı açdı. Burada hər nə desən vardı: ipək, şal, müxtəlif rəngdə qadın corabları, krep-deşin... Hamısını oğlunun nişanlısı üçün saxlamışdı. Boğçadakı şeyləri Əminə xala düz on ildə alıb yığmışdı. Hər dəfə açıb baxanda, ürəyi tel-tel olurdu. Ölməyib o günü görsəydi, heç dərdi olmazdı.

Əminə xala parçaların arasından nə isə götürüb yaylığa bükdü, qoynunda gizlətdi, sonra gəlib samovarı mizin üstünə qoydu. Uşaqlarını səslədi.

– Qalxın, bu qədər də yatmaq olar?

Yayın isti gecəsindən sonra bir qədər sərinləşən havada uşaqlar rahat nəfəs ala-ala yatırdılar. Əminə xalanın zil səsi, onların halına təfavüt etmirdi. Yalnız sonbeşiyi ağzını marçıldatdı , üzünü divara sarı çevirdi. Əminə xala onları çox istəsə də, uşaqlarını ərköyün böyüdən analardan deyildi. Elə-belə çağırıb oyada bilməyəcəyini görəndə, cəld onlara yanaşdı, hərəsinə bir dürtmə ilişdirdi; əlbəttə, bərkdən yox, yavaşcadan. Uşaqlar qalxıb geyindilər. Bir dəqiqədə sual-cavab başlandı:

– Ana, dünən samovarı aparıb fonda vermədin?

– Ana, mis qazanı aparmadın?

– Uşaqsınız oturun yerinizdə... Onu mən billəm.

– Özün demədin aparacağam?

– Dedim, amma aparmıram.

– Niyə ki, ana?

Bu suallar verilənə qədər bir az hirsli olan ana xeyli yumşaldı. Əvvəlcə balacalardan biri soruşdu, amma indi ikisi də gözünü ona dirəyib kirpiklərini qırpmadan cavab gözləyirdi.

– Samovardan nə olacaq? Soruşdum, dedilər, ondan cəmi-cümlətanı üç-dörd top gülləsi çıxar. Azdır də... Ayıb deyilmi?.. Nə var, nə var, Əminə arvad fonda dörd top gülləsi verib... Yox aparmıram...

– Eh, ay ana, sən bizi yoldaşlarımızın yanında niyə utandırırsan... Dünən bütün aləmə dedik axı...

Əminə xala yenə hirsləndi:

– Deməyəydiniz...

II

Əminə xalanın işlədiyi corab arteli fəhlələrinin yığıncağı uzun çəkdi. Çıxışlar qurtarandan sonra kim isə xəbər aldı.

– Bəs Əminə xala müdafiə fonduna bir şey vermir?

Ağız əyənlər oldu:

– Əşi, kasıb arvaddır nə verəcək...

Ömründə söz alıb danışmayan Əminə xala, elə bil bunu gözləyirdi. O, yerindən partladı.

– Niyə, nə olub, kasıbın qeyrəti olmaz?!. – Başladı, nə başladı. – Mənim toxuduğum corablar həmişə birinci sorta düşüb... Daha mükafat almaqdan yorulmuşam... Kasıb niyə oluram?

– Niyə hirslənirsən, Əminə xala?..

– Hirslənirəm, ona görə ki, haqqım var... Adam danışanda, bir az fikirləşsə, yaxşı olar!..

O bu sözləri deyə-deyə, əlini qoynuna saldı. Oradan səhər yaylığa bükdüyü şeyi çıxartdı, hələ açıb göstərməmiş, sözünü deyib qurtarmağa çalışdı:

– Dava qurtaranatan hər ay beş günlük məvacibim, bir mis qazan, bir mis samovar... Yaz də, nə durmusan, üzümə niyə baxırsan? Bir də ki... – Yaylıq açıldı.

– Bir də ki, bu üzük... Oğlumun nişan üzüyü... Üç min manat vermişəm... Yaz!

Əminə xalanı yaxşı tanıyan müdir razı olmadı:

– Yox, onu saxla, ağır olar. Axı o, sənin ən qiymətli şeyindir, xala.

İndi artelin bütün fəhlələri bu savadsız, az danışan, yalnız işini görüb o dəqiqə evinə qayıdan, sadə qadına baxırdı, ondan cavab gözləyirdi...

Əminə xala duruxdu, müdirə sərt cavab vermək istəmədi:

– Deyirsən ən qiymətli şey?.. Yox, bundan da qiymətli şeyim var...

– O nədir, xala?

Əminə arvadın səsi birdən titrədi, o indi bir ana kimi cavab verdi:

– Oğlum... Ona patron lazımdır... Bildin?..

1941

DOST

I

Boş qalmış kəndlərdə bir dəstə alman piyadasına kəndlilərdən Mariya Karpovna adlı bir qadın bələdçilik edirdi. Onun qırış-qırış olmuş üz-gözü qan-tərə batmışdı. Ayaqlarını güclə atırdı. Görünür çox uzun yol gəlmişdi. O, arıq, uzun, soyuq baxışlı, həmişə dartınaraq yeriyən, yalnız tokdənbir çox könülsüz bir tərzdə gülümsəyən alman zabiti ilə yanaşı gəlir, onun suallarına tez-tez, elə bil tələsə-tələsə cavab verirdi.

Zabit bu qadından evlərdə, həyətlərdə qalmış on xırda şeylərin sayını belə öyrənmişdi. Kolxozçular kəndi tərk edib uzaq meşələrə çəkilərkən, özləri ilə tutub apara bilmədikləri toyuqlar, çolpalar, oradaburada gizlənmiş çoşqalar, meyvəsi dərilməmiş bağlar-bağçalar bütün dəstəni sevindirirdi. Üç gündən bəri yarıtox, yarıac yol gəlmiş soldatlar Mariya Karpovnanı dinlədikcə, ağızları sulana-sulana, daha da həvəslə addımlayırdılar.

Zabit kəndin girəcəyində dəstəni saxlayıb "farağat" komandası verdi. Onun fikrincə başıpozuqlar kimi belə nizamsız və dağınıq halda kəndə girmək yaxşı təsir bağışlamazdı. Soldatların üst-başı və yaraqları kimi, addım səsləri də kənardan tamaşaya çıxanları ilk baxışda heyran etməli idi.

Dəstə yenidən hərəkətə gələndə, zabit özü qabaqda, Mariya Karpovna isə, ondan iki addım aralı sağ tərəfdə, yenə danışa-danışa irəliləməyə başladı.

İndi bütün kənd görünürdü. Cərgə ilə tikilmiş təzə ağ evlər, küçənin hər iki yanından sakit-sakit axan balaca arxlar, göz işlədikcə uzanan dümdüz şose yolu, hər addımda rəng verib, rəng alan güllü-çiçəkli bağçalar - bir sözlə, illərdən bəri insan əli ilə cənnətə çevrilmiş geniş düz, ətirlə nəfəs alan gözəl dilbər bir guşə görünürdü.

Amma hər tərəf sükut içində idi. Səhərlər, günəş uzun şam ağacları arasından kəndə baxanda, səs-səsə verib ötüşən, pırıltı ilə budaqdan-budağa uçuşan balaca quşlar, indi nizamlı yürüşü pozmadan şose yolu ilə yeriyən piyadaların ayaq səsindən hürküşüb qaçışır, yoldan xeyli konarda, meşənin dərinliyində gözdən itirdilər. Bundan sonra ətraf daha da sakitləşirdi.

Zabitin təəccüblə kəndə baxdığını görən Mariya Karpovna onun nə axtardığını bilmək istədi, həmişəki kimi qorxa-qorxa soruşdu:

– Nə olmuşdur, cənab zabit?

Bəs hanı kəndlilər, nə üçün bizi qarşılamırlar?

Qorxudan gözləri daha da böyüyən Mariya Karpovna tələsik cavab verdi:

– Qaçmışlar, cənab zabit!

Bu sözlərdən qaşı çatılan zabit öz batqın səsi ilə bir az da ucadan xəbər aldı:

– Haraya?

– Partizanlığa...

– Nə? Partizan?.. Bu nə sözdür?

Zabitin gözləri kəlləsinə çıxdı. Ona elə gəldi ki, elə bax, bu dəqiqə sağdan-soldan, daldan-qabaqdan üstlərinə güllə dolu kimi yağacaq və hamısı bir-bir düzün ortasında uzanıb qalacaqdır. Amma yenə də hər tərəf sakit idi. Yalnız uzaqlara qaçmış quşların həzin nəğmələri eşidilirdi.

– Demək hamısı partizan? – deyə zabit udqunaraq hər iki yanına boylandı, qəzəbini gizlədə bilməyib təkrar soruşdu:

Demək hamısı?

– Yox, burda qalanı da var, cənab zabit.

– Elə isə, nə üçün bizi qarşılamırlar, xanım?

Mariya Karpovna başını aşağı saldı, dinmədi.

– Burada qalanlardan qaçanların yerini xəbər alarıq, deyilmi?

Mariya Karpovna bu sualı da cavabsız qoydu. O xeyli fikrə getdi. Sonradan-sonraya, zabitin gözü kənd evlərinə zillənərkən, o yalnız özünün eşidə biləcəyi bir səslə dedi:

– İnanmıram deyən olsun... Mən özüm də onların yerini bilmirəm, cənab zabit.

Ətrafdan bir an belə gözlərini çəkməyən zabit, heç kimə müraciət etmədən, kinli-kinli, hətta bir az rəsmi cavab verdi:

– Mən dedirdərəm!

Bu sözlər Mariya Karpovnanı təəccübləndirdi. "Bunun qulağı nə yaman itidir" deyə sürətlə xəyalından keçirtdi və dəstəni birbaş kənd sovetinin iki mərtəbəli daş evinin qabağına gətirdi.

Zabit soldatlardan bir neçəsini yollayıb, kənddə qalmış adamları buraya toplamalarını əmr etdi, özü isə divara söykədilmiş skamyada oturub, çəkməsinin toz basmış boğazını yuxarı çəkdi və cibindən papiros çıxarıb yandırdı.

Mariya Karpovna onun yanında oturmağa cəsarət etmirdi; izin istəməyə də üzü gəlmirdi. Amma, doğrusu qıçları yamanca sızıldayırdı. Ayaqlarının altı yəqin sudur olmuşdur. Zarafat deyildi, pay-piyada on-on iki verst yol, özü də qadın xeylağı, hələ zabitin bir-birindən çətin sualları – xülasə indi hər şey yaddan çıxmışdı: yorğunluq güc gəlirdi. Zabit iltifat edib "otur" deməydi, Mariya Karpovna ona dönə-dönə təşəkkür edərdi. Lakin nə zabit "otur" dedi, nə Mariya Karpovna təşəkkür edəsi oldu.

Soldatlar bütün evlərin altını üstünə çevirib əllərinə keçən xırda-xuruşları və kənddə qalan qarıları toplayıb gətirdilər. Soldatların birinin qoltuğunda iynə-sapla dolu balaca bir qutu vardı. O biri köhnə bir qadın tuflisi gətirmişdi. Üçüncüsünün əlində balaca, kök bir çoşka çır-çır çığırırdı.

Mariya Karpovna gətirilən adamları saydı. Hamısı altı nəfər qadın idi.

O, Zabitə yanaşdı, tərli alnına yapışmış saçını geriyə tərəf sığallayaraq, "raport" verdi:

– Kənddə bunlardan başqa bir nəfər də qalmışdır, cənab zabit... – sonra soldatlara müraciətlə soruşdu: – Bəs o hanı?

Zabit qəzəbindən ayağa qalxıb, adəti üzrə, dartılmış bir vəziyyət aldı:

– Bu nə cəsarətdir?

– Yəqin hardasa gizlənmişdir. Yaxşı axtarın. Bax, o evi görürsünüzmü, kolxozun anbarıdır. Orada tapmasanız, klubun dalını axtarın... Suflyor budkasına baxın.

Zabit soldatları bir də yolladı. Onlar çox axtardılar. Yenə tapa bilmədilər.

– Bəlkə qaçmışdır?

Mariya Karpovna təkid elədi:

– Buradadır, buradadır, mən getsəm taparam...

O, soldatların qabağına düşüb anbarı, klubun zalını, evləri gəzməyə başladı gümanı gələn yerləri daha diqqətlə, dönə-dönə yoxlatdı. Qulluğunda sona kimi sədaqət göstərəcəyinə and içmişdi. Bağlara, bağçalara qədər, hər yeri gəzdilər, lakin o adam tapılmadı.

Mariya Karpovna pərt oldu. Bu vaxtacan səbirlə gözləyən zabit, ona bərk təpindi:

– Onu tap! – dedi, – yəqin duyuq düşmüşdür.Təqsir səndədir!

Mariya Karpovnanın bədənindəki sızıltı yox olub getdi, zabitin qabağında əyilərək, səsi titrəyə-titrəyə yalvardı:

– Xahiş edirəm, bir saat möhlət verin, mən onu yerin dibində də olsa, tapıb gətirəcəyəm.

– Yaxşı, olsun, – deyə zabit cavab verdi. – o tapılmasa, siz cəzalanacaqsınız.

Mariya Karpovna bir nəfər soldatla bərabər getdikdən sonra, zabit altı nəfər qadının üstünə gözətçi təyin edərək, kənd soveti sədrinin kabinetinə girdi. Yazı stolunu yemək stoluna çevirdi. Yarım saat belə keçməmişdi ki, bütöv qızardılmış çoşqanı gətirdilər.

II

Bir saata qayıtmağı vəd edən Mariya Karpovna, üç saatdan sonra da qayıtmamışdı. Yanınca getmiş soldatın təkid etməsinə baxmayaraq o, inadından dönmədi və meşənin qalın yerlərini, xəndəkləri gözdən keçirərək, nəhayət meşə gözətçisinin daxmasına gəlib çıxdı.

– Burada da olmasa, demək, qaçıb partizanlara qoşulmuşdur... – deyə Mariya Karpovna pıçıldadı, üzünün tərini silməkdən qara oskiyə dönmüş yaylığını çıxartdı, bir də alnının tərini sildi, – amma çox ehtiyatlı tərpənməliyik, meşə gözətçisinin tüfəngi var, o buradadırsa, ikimizi də öldürər. Özü köhnə partizandır. Faşistləri görməyə gözü yoxdur...

Soldatın rəngi dümağ oldu. Onun fikrinə gəldi ki, birdən Mariya Karpovna partizanlarla əlbir olar, qəsdən onu aparıb təslim edər, onlar da kəndə hücum çəkib bütün dəstəni qırar. Odur ki, Mariya Karpovna "bəri gəl" deyib meşə gözətçisinin daxmasına tərəf addımlayanda soldat yerində mıxlanıb qaldı, onun xırdaca gözləri bir an içində böyüyüb həddəqəsindən çıxmaq dərəcəsinə gəldi.

– Bəri gəl, cənab, – deyə qadın təkrar edərkən, soldat bir neçə addım da gerilədi, cəld tüfəngini atəşə hazırladı:

– Siz baxın, – dedi, – mən burada gözləyəcəyəm qorxmayın, xanım, nədən qorxursunuz? Gedin, içərini yoxlayın, lazım gəlsə, mən sizi müdafiə edərəm... Qorxmayın, xanım, qorxmayın!..

Mariya Karpovna daxmanın qapısını açdı, astaca addımlarla içəri girdi. Xəyalından min cür fikir gəlib keçən soldat isə, tüfəngini irəliyə sarı uzatmış olduğu halda, yerində donub qalmışdı.

Birdən Mariya Karpovna göründü və səsini çıxarmadan soldata əl elədi: "Bəri gəl, buradadır".

Onlar birlikdə içəri girərkən, soldat əvvəlcə zil qaranlıqdan başqa heç nə görmədi. Bir qədər duruxdu. Gözləri qaranlığa alışdıqdan sonra, dibdə oturmuş bir qadın kölgəsi nəzərini cəlb etdi: onun qabağında dahiüstə uzadılmış bir uşaq vardı.

– Ölmüşdür, – deyə Mariya Karpovna sevincini gizlədə bilməyib gülümsündü, – bolşevik özündən sonra onu bizim başımıza bəla eləmək istəyirdi, amma vaxtında ölmüşdür.

İndi ölmüş körpənin cavan anası lap aydın görünürdü. O, danışılan sözləri yaxşı eşidirdisə də, üzündəki ölgün ifadə zərrə qədər də dəyişmədi. Dolğun, ağ yanaqlarına tökülmüş qonur saçları, qeyri-müəyyən bir nöqtəyə dikilmiş iri gözləri, yalnız bir şeyi ifadə edirdi: Kədər...

– Dur, biz səni aparmağa gəlmişik, – deyə soldat ucadan əmr verdi.

– Uşağını da götür, hə, hə bəlkə səni də, onu da bir qəbirdə basdırdıq...

Bu ana kimi daşdan yonulmuş bir heykəli andıran qadın, birdən sərt bir hərəkətlə Mariya Karpovnaya tərəf döndü, qəzəblə alışıb yanan gözlərini ona zillədi:

– Bu sənin köhnə sənətindir, – dedi və onun səsi titrədi, – indiyə kimi özünü satırdın, indi də bizi satırsan...

– Mən gizlətmirəm, beş günlük dünyadır, kefini çək, vur başa! Hərənin bir şeyə xoşu var, mənim də buna...

– Amma yenə də gözün kişilərdən doymadı, bundan sonra soldatları görərsən.

– Görərəm, niyə görmürəm... Səndən istəsələr, razı olma, ancaq mən zabitlə dünəndən dostlaşmışam...

– Ax, fahişə! – deyə qadın nifrətlə tüpürdü.

Soldat onun qolundan tutub ayağa qaldırdı.

– Gedək.

Mariya Karpovna uşağı göstərərək:

– Qoy götürsün, – dedi. – ana ilə balanı bir qəbirdə basdırmaq daha maraqlı deyilmi?

– Sənin kimi namussuz yaşamaqdansa, ölmək yaxşıdır...

Mariya Karpovna isə gülərək:

– Bu gün mənim bayramımdır, – dedi.

Ana ehmalca uşağı qucağına aldı. Eşiyə çıxdılar. Qüvvətli gün işığında, onun üzündəki qurumuş yaş zolaqlarını Mariya Karpovna da, soldat da aydın gördü.

III

Onlar qayıdana kimi zabit də, soldatlar da yeyib-içib, bərk hallanmışdılar. Bayaq qışqıraraq həyəti başına götürmüş çoşqa, indi həzm-rabedən keçmişdi.

Mariya Karpovna sevincindən bütün yorğunluğunu unutmuşdu. Ona bir belə əziyyət verən qadın, artıq zabitin hüzurunda idi.

Zabitin əmri ilə əsir qadınları da həyətə gətirdilər, sıraya düzdülər. İndi onlar yeddi nəfərdi. Zabit hər biri ilə ayrı-ayrı tanış olmaq istədi.

– Bu kimdir?

– Köhnə mülkədar qızıdır. Özü müəllimədir. Amma bizim adamdır, cənab zabit!

– Kolxozda varmı?

– Yox, yox, yazıq deyil?!

– Aha, demək kolxozdakıların hamısı yazıqdır?

– Əlbəttə, cənab zabit!

– Niyə ki?

– Çünki kolxoz...

Zabit onun sözünü kəsdi:

– De görüm, – füreri sevir, ya yox?

– Siyasətə qarışmır, cənab zabit... Dərsini deyib evinə qayıdır...

– Aha, bu yaxşı olmadı... Siyasətdən uzaq gəzmək yaxşı deyil.

– Bundan sonra qarışar, cənab zabit.

Zabit o biri qadına yanaşdı:

– Bu kimdir?

– Duldur... Məktəbin xidmətçisi idi...

– Bizə münasibəti necədir?

Mariya Karpovna qərəz işlətdi (o, məşədə cavan bir oğlanla mazaqlaşarkən, həmin qadın bu əhvalatı görüb aləmə bildirmişdi), hayıf aldı:

– Kommunistlərin quyruğudur.

– Çox gözəl!

Zabit papiros yandırdı. Dərindən bir qullab vurub Mariya Karpovnanın gətirdiyi qadını göstərərək, qaşqabağını turşutmuş halda soruşdu:

– Bəs bu kimdir?

– Kommunistdir, cənab zabit... Həmişə dram dərnəyində oynardı.

– Çox maraqlıdır... Demək, kommunist qadınlar belə olurmuş?!

Zabitin papirosu əlindən yerə düşdü. O bilavasitə qadının özünə müraciət etdi:

– Adın nədir, cənab kommunist?

O dinmədi, gözlərini qucağındakı uşağın göyərmiş yanaqlarına dikib qaldı.

– Adı Tatyanadır, – deyə Mariya Karpovna cavab verdi.

Zabit gülümsünərək, ona lap yaxın gəldi:

– Mən aktrisaları çox sevirəm, – dedi, – müharibədən əvvəl hər gün teatra gedərdim. Sən hansı rolları yaxşı oynayırsan?

Tatyana yenə dinmədi.

– Amaliyanın rolunu... – deyə Mariya Karpovna böyürdən qabağa soxulmaq istədi.

– Amaliya? Bu ad mənə tanış deyil. Görünür, sovet pyeslərinin qəhrəmanlarındandır.

Tatyananı gülmək tutdu. "Yazıq Şiller" – deyə fikirləşdi, nə isə demək istərkən, gözləri yenə uşağına sataşdı, dodağının ucundakı xəfif təbəssüm birdən söndü.

Zabit qadınların hamısını danışdırdıqdan sonra təzədən geri qayıdıb Tatyananın qabağında durdu:

– Məni maraqlandıran bir məsələ var; nə üçün sən partizanlara qoşulmamısan?

Bu dəfə Tatyana dilləndi:

– Uşağım xəstə idi, doktor demişdi açıq havaya çıxmasın.

– Yalandır, o qəsdən qaldı, casusluq etmək üçün...

– Doğrudanmı?

Tatyana cavab vermədi. Onsuz da heç kim sözünə inanmazdı.

Birdən zabit soldatlara bağırdı:

– Divara söykəyin!

Tatyananı uşağı ilə bərabər qarşıdakı evin divarına söykədilər. Həyətdəki qadınların hamısı, elə bil komanda ilə, birdən ona sarı baxdı. Ortalığa dərin bir sükut çökdü. Hamıdan əvvəl dindirilən müəllimə, sıradan bir addım qədər irəli çıxdı. Amma heç kim onun bu hərəkətini görmədi. Tatyana yenə də qızının donmuş yanaqlarına baxırdı. Onun ölümə belə laqeyd olduğunu görəndə, zabit də özündən çıxdı, cəld addımlarla ona doğru getdi:

– Sən qorxmursanmı? – deyə hirsindən boğula-boğula soruşdu.

Tatyana qızının dodağından öpdü:

– Nata, – dedi, – bax, Ukraynanı sevdiyi üçün ananı öldürürlər. Olsun! Amma bizim qanımız yerdə qalmayacaq... qızım...

Güllə açılanda, Nata anasının əlindən yerə düşdü; onun sinəsində üç-dörd yerdə xırdaca qan ləkəsi göründü. Tatyana isə, bütün vzvodun güllələrindən deşik-deşik olub, Natadan bir addım geridə ağzıüstə yerə sərildi.

Hamının gözü onda idi, heç kim, müəllimənin yanaqlarında parıldayan yaş damlalarını görmürdü. O, yaylığını çıxartdı, gizlincə gözünün yaşını sildi. Onun ürəyini bir söz qılınc kimi yardı: "İntiqam!"

Sonra Mariya Karpovnaya yanaşdı:

– Sağ ol! Biz yəqin yenə görüşəcəyik... – dedi.

– Əlbəttə, Anna İvanovna, bundan sonra bir yerdə olacağıq.

Bayaqkı səs isə, yenə ona rahatlıq vermir, qulağında təkrar olunurdu: "İntiqam!"

IV

Gecə idi. Hamı yatmışdı. Axşamdan kəndin üstünü bürümüş çiskinli duman, şimaldan əsən soyuq küləyin qabağınca yavaş-yavaş çəkilib getdikdən sonra, şam ağaclarının üstündə qızıl rəngə çalan, oğa bənzər bir ay doğmuşdu.

Hamı yatırdı. Bütün kənddə yalnız iki adamın gözünə yuxu getmirdi. Bir növbədə duran faşist soldatının, bir də... Anna İvanovnanın.

O, doğrudan da mülkədar qızı idi. Alman zabiti də hamıdan çox ona inanırdı. Axşamüstü əsir qadınları dama doldurduqları zaman, zabit demişdi:

– Onu buraxın!.. Evinə gizləyir, ürəyinə, əsəblərinə, beyninə rahatlıq vermirdi.

O birdən ayağa qalxdı, paltarını cəld geyindi, eşiyə çıxdı. Onun ilk dəfə gözünə dəyən, evin düz pəncərəsində əks edən ay oldu. O nə gözəldi! Hələ səma!.. Anna iyirmi dörd illik həyatında belə saf, belə dərin Ukrayna səmasını görməmişdi. Bu nə üçün belə idi? Bəlkə Annaya belə gəlirdi? Hələ göyün üzünə inci dənələri kimi səpələnmiş saysız-hesabsız ulduzlar, gecənin möhtəşəm sükutu içində yatmış kimi görünən şam ağacları, meh əsdikcə xoş bir ətir verən bağçalar nəyə dəyməzdi!..

Yox, bunlar doğrudan da gözəl idi. Anna həmişə gördüyü bu dibsiz fəzanı, bu uzun şam ağaclarını, ətrafda gözə dəyən hər şeyə xüsusi bir lətafət verən bu sükutu sonsuz bir məhəbbətlə sevdiyini elə bil yalnız indicə anladı və dərindən köksünü ötürdü.

Onun ayağı qapı ağzındakı velosipedə toxundu. Bir əlli ondan yapışıb Tatyananın güllələndiyi həyətə sarı addımladı. Gözətçini görərkən duruxdu, evin böyrünə qısıldı. Gözətçi uzaqlaşan kimi geriyə qayıtdı. Səssizcə yeriyərək şose yoluna çıxdı. Ətrafına boylandı. Nəfəs almadan bir neçə an yerində dayanıb qulaq verdi, ürəyinin şiddətli döyüntüsündən başqa heç bir səs eşitmədi. Yenə irəlilədi. Kənddən bir kilometr qədər uzaqlaşdıqdan sonra, velosipedi minib sürdü...

V

O çox aradı. Amma yorulmadı. Yalnız gecənin qeyri-adi bir sürətlə keçəcəyindən qorxurdu. Vaxtın ətəyindən tutub saxlamaq mümkün olsaydı, Anna heç bir şeyini əsirgəmədən məmnuniyyətlə bu işi görərdi.

Birdən:

– Dayan! – dedilər.

Bu səsi Anna tanıdı; işlədiyi məktəbin müdiri Semyon Burmenko idi.

– Mənəm, Semyon Tarasoviç.

– Sən kimsən?

– Anna!

O, velosipeddən düşüb Burmenkoya tərəf addımladı. Partizanların bir dəstəsi, yolun altında, ağacların dalında, səngər tutmuşdu.

– Nə var, Anna İvanovna?

– İntiqam! – deyə müəllimə hönkürərək müdirinin qolları üstünə düşdü. – Bax! Mən...

Annanın dili söz tutmurdu. Hamı dinməz-söyləməz dayanaraq başçılarının əmrini gözləyirdi.

Burmenko heç bir kəlmə də danışmadı. Cibindən yaylığını çıxarıb Annanın göz yaşını sildi, sonra yoldaşlarına baxdı, tüfəngini yoxladı, papirosunu yandırıb ovcunun içində çəkə-çəkə, dəstədən aralandı.

– Ölümə ölüm!.. deyə xırıltılı bir səslə dilləndi. – Gedək, yoldaşlar...

VI

Vuruşma uzun çəkmədi. Partizan davasının qaydası belədir. Zabitlə soldatlar hələ dünənki içkidən ayazımamış, həyatla vidalaşmalı oldular.

Mariya Karpovnanı güllə səsləri yuxudan oyatdı.

Onu Tatyananın güllələndiyi yerə gətirdikləri zaman günəş yenicə doğurdu... *Ukrayna səması yenə də saf və dərin idi...*

Mariya Karpovna, özünüz deyin, sizin cəzanız nə olmalıdır? - deyə Burmenko xəbər aldı.

Ondan səs çıxmadı.

Hamının gözü onda idi.

– Siz deyin Anna İvanovna!..

– Mən?.. Nə deyim? Xalqın qərarı daha ədalətli olar.

Burmenkonun tapançası açıldı.

Sonra ana ilə balanın qəbri üstünə dəstə-dəstə çiçəklər səpələndi.

1942

QARA GÖZLƏR

I

Qərargah, top mərmilərinin xarabaya döndərdiyi kiçik bir Ukrayna kəndində idi. Səhərdən bəri aramsız atılan güllələr vıyıltı ilə uçuşaraq harada isə yerə düşür, kim bilir, bəlkə də insan ətinə dəyir, gurultu ilə başladığı halda inilti ilə qurtarırdı.

Aslan çoxdan cəbhədə idi. Hələ Baltik sahilləri yay səhərinin xəfif dumanlarından sıyrılıb çıxmamış alman təyyarələrindən yağan bombalar hər yanı oda qalayanda, o da yoldaşları ilə bərabər hissələrinin dayandığı qəsəbədə hövlnak yuxudan oyanmışdı. Qırx birinci ilin iyun ayında qopan bu fırtına zamanı alman təyyarələri lap aşağıdan uçur, mavi rəngli pəncərələrin bərabərinə enərək, şığıya-şığıya evlərin içərisini atəşə tuturdu...

O vəfasız gündən düz iki il keçmişdi.

İndi Aslan Ukrayna düzlərində vuruşurdu. O ağır, qanlı rücətdən sonra, daha ağır, daha qanlı bir əks-hücum başlanmışdı. İnsanların üzü gülməsə də, ürəyi gülürdü. Rücət günlərində hər qarış torpaq üçün verilən qurbanların xatirəsi indi birdən-birə canlanır, qızıl cəngavərlərin geri atdığı hər bir ev öz qoynunda ziqiymət dəfinə gizlədən böyük saraydan belə əzəmətli görünürdü.

Aslan, xarabalar arasında salamat qalmış bu evlərdən birinə yanaşdı. Albalı ağaclarilə əhatə olunmuş bu kənd evinin divarları uzun, inadlı vuruşmaların yaxın xatirələrini yadigar saxlamışdı: mərmi qəlpələri bu divarlardan qopardığı daş parçalarını kənara atmış, bir az o yanda irili-xırdalı çuxurlar əmələ gəlmişdi. Albalı ağaclarının dibdən zədələnmiş budaqları yerə sarı əyilmişdi. Ancaq meyvə bağı hər tərəfə yenə də məstedici bir ətir saçırdı. Ucu yerə dəyən qırıq budaqlar üzərindəki bol meyvə də rəng verib rəng alırdı. Yaralı torpaq həyat, gələcək ümidlə dirçəlirdi. Sanki qırıq budaqlar da doğrulub yerlən qalxmaq üçün qüvvə toplayırdı.

Aslan, yaşamaq istəyən insanla, təbiətin bu inadı arasında qəribə bir müşabihət görürdü. Ona elə gəlirdi ki, bu qırıq budaqlar bir az sonra yerdən üzülüb yuxarı qalxacaq, bu pozulmuş tənasüb yaxın bir zamanda müvazinət kəsb edəcəkdir. Əslində o, bu ümidlə yaşayır, bu ümidlə vuruşurdu. O, iki ildən bəri öz gözüylə gördüyü hadisələri, müharibənin

qanlı səhnələrini heç bir zaman unutmasa da, bu qəribə ümid onun əsəblərinə xeyli təskinlik verir, bəzən həyata, insanlara nifrət təlqin edən müharibənin özü də bu ümidin qarşısında kiçilib haradan, necə qopduğu məlum olmayan bir borağan məqaminə enirdi... Hətta meyvə ağaclarından ətrafa yayılan ətir belə onun nəzərində kəndlərə, şəhərlərə ölüm gətirən ən müdhiş qüvvələrdən də güclü idi!..

Aslan od, alov içindən yeni çıxmışdı. O tərəflərdə, sahil boyunda vətən torpağının hər qarışı üçün yenə də irəli atılan dostları bir an belə onun xəyalından çıxmırdı. Bir səs onu fikrindən ayırdı. Qapı ağzında görünən zabit – Aslan Haşımzadə!.. – deyə onu çağırdı.

Aslan əlindəki albalı budağını yerə atdı. Sürətlə qapıya yanaşdı. İçəridə ağsaçlı ordu komandanı ilə üz-üzə gəldi. Çoxdan tanıdığı bu qoca əsgər qürurla parıldayan mavi gözlərini Aslanın üzünə dikdi, hərarətlə onun əlini sıxdı:

– Sağ ol, Azərbaycan balası! – dedi. Qocanın üzündəki təbəssüm izləri birdən-birə çoxalıb, öz doğma oğlunun rəşadətindən xəbər tutmuş bir atanın sevinci qədər qüvvətli bir ifadə aldı. Bu anda onun gözləri haraya isə məchul bir nöqtəyə zilləndi, bir neçə ay əvvəl şahidi olduğu bir hadisə sürətlə onun xəyalından gəlib keçdi.

O gün Aslan köhlən at belində dörd nala çaparaq qıy vurur, ildırım kimi şığıyan igid süvarilərin qabağınca əlində siyirmə qılınc çapır, düzə səpələnmiş düşmən piyadalarını biçib-tökürdü. Ordu komandanı uca bir təpədə, müşahidə məntəqəsində idi. Əlindəki durbinlə Aslanın hər bir zərbəsini aydın görürdü. Öz gənclik illərini xatırlayır, hələ qorxunc silahlar icad olunmamış zamanlarda əsgərdən cosarət, mərdlik, çeviklik tələb etdiyi günlər yadına düşürdü: "Əsil müharibə o idi!.." – deyə fikirləşir, qeyri-ixtiyari gülümsəyirdi.

– Sağ ol!.. – deyə ordu komandanı daha da ucadan təkrar etdi. – Sən özün o gün sarı almanlardan yüzünü vurub yerə sordin... Yeddi ölümcül yara alsan da, köhlən atından yıxılmadın, bax, indi sağalıb yenə də vuruşursan... Al, oğlum, qoy bu şöhrət nişanları sinəni bəzəsin. Sədaqətlə döyünən ürəyin bir dəfə də titrəməsin!

Aslan Qızıl Ulduzla qırmızı lentalı nişanı alıb təşəkkür edərkən, komandan kimi onun da gözləri sonsuz bir qürur, hədsiz bir sevinclə parıldayırdı. O, nə isə demək istəyirdi. Lakin sözlər elə bil boğazında tıxanıb qalırdı.

O, bir neçə an sükutla qocanın üzünə baxdı. Sonra özünü toplayıb, sağ əlini yuxarı qaldırdı, rəsm-təzimə durdu.

– Əziz vətənə qulluq etmək borcumdur, yoldaş general-leytenant, – deyib, əlini yanına saldı. Belə hallarda hamının təkrar etdiyi sözü "Sovet İttifaqına xidmət edirəm" sözünü xatırlamadığına təəccübləndi. "Eybi yoxdur" – deyə özünə təsəlli verdi. Sonra yenə komandana müraciətlə çoxdan bəri ürəyində qövr edən bir fikri söylədi:

– Məni bağışlayın, yoldaş komandan... bəlkə də bu sözün yeri deyildir. Mən intiqam almaq üçün yox, elə belə məlumat üçün deyirəm.

Komandan yenə gülümsəyərək, Aslana lap yaxın gəldi, əlini onun çiyninə qoydu:

– Söylə, çəkinmə, – dedi.

Aslan bu mehriban insana ürəyinin ən gizli sirlərini də açа bilərdi:

– Məni əlbəttə...

Onun səsi titrədi... Sözünün dalını unutdu. Komandan Aslanın həyəcanlandığını görüb təəccüblə baxdı:

– Yoxsa evə getmək istəyirsən?.. – dedi.

– Yox... mənim deyəcəyim söz Azərbaycana və azərbaycanlılara aid olacaqdır...

– Buyur, buyur, mən dinləyirəm.

– Mən bilirəm ki, siz Azərbaycan əsgərlərini layiqilə tanıdınız. Artıq hamı görmüşdür ki, biz azərbaycanlılar müharibədə ən vəfalı yoldaşıq. Lakin bu böyük sözün mənasını təhqir edənlər də vardır.

– Mən buna şübhə etmirəm!.. – deyə ordu komandanı sərt bir ifadə ilə əlavə etdi... – yoldaş sözü qüvvət, qələbə timsalına dönəcəkdir!..

Aslan bu sözdən sonra komandanın artıq vaxtını almamaq üçün getməyə izin istədi. O, razılığını bildirdi. Aslan yenə sağ əlini yuxarı qaldırdı, dabanı üstə geriyə dönərək, əsgəri addımlarla otaqdan çıxdı.

Təltif olunmuş dostları onu albalı bağında gözləyirdilər. Ağızları qırmızı rəngə boyanmış bu əsgərlər Aslanı salamlayır, təbrik edirdilər. Hərənin əlində qırmızı bir qutu vardı, hamı sevinirdi. Uzaqdan atılan ağır top güllələri haradasa yerə düşüb gumbuldayır, komandanın yaşadığı bu balaca evi titrədirdi.

Aslan bayaq yerə atdığı albalı budağını yaşıl otların arasından tapdı, iri-şirəli albalıları bir-bir yeməyə başladı. Onun da dodaqları qızardı.

Bu halda gülərüzlü, qısaboy, sarışın bir əsgər ona yanaşıb salam verdi. Aslan onu keçən ildən tanıyırdı. Şaxtalı qış günlərində, yazın

palçığında, yayın cırcıramasında səngərlərə məktub, əsgərlərə sevinc gətirən bu oğlanı ordu qərargahında tanımayan yox idi. O, bəzən qəmgin-qəmgin baxar, dərindən köksünü ötürər və:

– Heç olmazsa siz sevinin, – deyərdi, – mənim atam-anam o yanda qalıb. Nə mən onlara məktub yazıram, nə də onlar mənə... Sizə sevinc gətirməklə təsəlli tapıram.

Aslan əlini onun çiyninə qoydu. Yenicə yuyulmuş köynəyə qırmızı ləkə vurdu:

– Dostum, darıxma, dedi, bu gün nə təhər olsa sizin kəndə girəcəyik. Hə, mənə bir şey gətirmisən, ya yox?..

O, gülə-gülə cavab verdi:

– Mixail İvanoviç sizə qəhrəman adı verib... mən də bu münasibətlə sizi öz tərəfimdən iki məktubla mükafatlandırmaq istəyirəm...

Aslanın sevinci birə yüz oldu, məktubları tez alıb açdı. Kağızların arasından sürüşüb düşən şəklə baxdı. Doqquz yaşlı oğlu Aydın anasının sağında, ondan iki yaş kiçik qızı Gülüş isə solunda ayaqüstündə durmuşdu. Hər ikisi qərib bir həsrətlə Aslanın üzünə baxırdı. Onların ortasında oturmuş Gülcamal çox qəmgin idi. Bunu görərkən Aslanın üzündəki təbəssüm izləri birdən silinib yox oldu. İri, qara gözləri doldu. O biri məktubu açdı. Bunu yazan Gülcamal deyildi. Bir anda Aslanın sifətindəki bütün qırışlar elə bil toplanıb qaşları arasında cəmləşdi.

Azacıq əvvəl ümidlə şadlıq vəd edən bu kağız parçasında, nə isə çox qəmgin bir söz yazıldığını yalnız indicə duyan qızıl əsgərin də qaşları çatıldı. Onun da gözlərinə məyusluq ifadəsi qondu. Vuruşmalarda aldığı yaraların ağrısından bir kərə də olsun uf deməmiş Aslanın sinəsindən qeyri-ixtiyari bir inilti qopdu; o, sarsılaraq ağaca söykəndi.

Yoldaşlarından biri tez onun qolundan yapışdı. Məktub daşıyan əsgər isə təəccüblə soruşdu:

– Nə oldu, yoldaş kapitan, yoxsa bir bədbəxtlik üz verib?

Aslan gözlərini yumdu. Kətan kimi ağarmış yanaqlarını əlilə örtdü. Solğunlaşan dodaqlarını tərpətdi.,

– Oh... Gülcamal... Saşko, sən nə yaman acı xəbər gətirdin?..

Qızıl əsgər necə bir xəbər gətirdiyini bilsəydi, yəqin ki, bu uğursuz məktubu gizlədər, belə şad dəqiqələrində Aslanı qəm dəryasına qərq etməzdi. O, artıq iş-işdən keçdiyini görüb kədərdən qəddi bükülmüş halda bir də soruşdu:

Gülcamal kimdir, yoldaş kapitan, ona nə olub ki?..

Hamının sualla dolu intizar gözləri böyüyüb Aslanın dodaqlarına dikildi. Onun sinəsindən daha iniltili bir səs qopdu:

– Ölmüşdür...

Bu sözü eşidərkən hamı ufuldadı. Elə bil ki, hamıya birdən, eyni yerdən yara vuruldu.

Aslanın günəşdə yanmış sifəti iztirablı bir ifadə ilə büzüşdü. Yanaqlarından aşağı süzülən yaş damlaları əlində titrəyən şəklin üstünə düşdü.

II

Bu hadisədən xəbər tutan ordu komandanı onu tez yanına çağırtdırdı.

– Sən bu gün getməlisən, əzizim... – dedi, – uşaqları sahibsiz qoymaq olmaz.

Aslan gözlərini yerə dikmişdi. Komandanın dəruni bir səmimiyyətlə titrəyən səsi onun ürəyini daha da kövrəltdi.

– Mən ayrı cür getmək istəyirdim, – dedi. – Görünür taleyim belə imiş. Nə etməli?

– Görürəm, ağlamısan... – Komandan ona daha yaxın gəlib mehriban bir ata nəvazişilə əlini Aslanın çiyninə qoydu. – Məhəbbətdəndir. Nə eybi var?.. Qəhrəman insanların ürəyi nə qədər qüvvətli olsa da, məhəbbətin gücü qarşısında təslim olmaya bilməz... Lakin, unutma, əzizim, göz yaşı faydasızdır. Mən üç uşağın atasıyam. Onlar da kiçik yaşlarından yetim qaldılar. Bilirəm bu nə deməkdir.

Komandan, Aslanın əlindəki şəkli gördü, alıb diqqətlə baxdı. Gülcamalın bir azca süzgün baxışlı, qara badamı gözlərini bəyəndi:

– Çox təəssüf, çox təəssüf... – deyə dərindən köksünü ötürdü. – Bu uşaqları bir kəsə tapşırıb arxayın olmamış vuruşmaq çətindir. Bilirsənmi, soldat zahirən qaba görünür, lakin əslində onunku qədər zərif ürək az-az adamda olur... Bəli, dostum, bu gün mütləq yola düşməlisən. Qatarla getsən uzun çəkər. Mən səni təyyarə ilə yola salacağam...

Aslan həyatının bu ağır dəqiqələrində qoca komandanın qayğısından təsəlli tapdı:

– Bilmirəm sizə mən necə təşəkkür edim? – dedi.

– Borcumdur, əzizim, borcumdur. Biz gələcək üçün vuruşuruq... Uşaqlarını unudan əsgər, əlbəttə həqiqi əsgər deyildir...

Bu halda komandanın yavəri gəlib təzim etdi. Qoca, Aslandan aralandı:

– Bu gün kapitanı Bakıya yola salınız... – dedi, – "U-2-"ni diqqətlə yoxlasınlar.

Yavər əmri təkrar etdikdən sonra ordu komandanı fikirli-fikirli Aslana baxdı, əlilə çal bığlarını tumarladı, xəyalında nəyi isə hesablayırmış kimi səssizcə dodaqlarını tərpətdi, Aslandan o tərəfdə qırmızı məxmərlə örtülmüş masanın arxasına keçdi.

– Məncə bir ay möhlət kifayətdir... lazım olsa yenə izin verərəm, – dedi.

Aslan dönə-dönə təşəkkür edərək qocanın əlini sıxdı, tələsik addımlarla çıxdı. Onu qapı ağzında gözləyən dostlar, indi təbrik əvəzinə başsağlığı verirdilər:

– Aslan, qardaşım, Allah kərimdir!..

– Aslan, əzizim, başın sağ olsun!..

– Dünyadır, gah güldürür, gah ağladır... Qəm yemə, dostum, görünür alnımıza belə yazılıbmış... Əhdimiz vardı: müharibədən qayıdanda sənin evinə yığışıb Cülcamal bacının plovunu yeyəcəkdik... Qismət olmadı. Ah, dünya!

Bu sözləri deyən zabit başını tərpətdi, əməli sərab olmuş bir insan kimi çox dərindən köksünü ötürdü.

Hər yoldaşın kədərini öz şəxsi dərdi kimi yaşayan bu dostlar, gözə görünməyən, lakin qırılmaz ürək tellərilə bir-birinə bağlı idilər. Onlar Aslanı ortaya alıb hissənin dayandığı kəndə gətirdilər.

Hücum qabağı idi. Yay fəslinin bu ilk ayında dərələr, təpələr gülçiçəklə bəzənmişdi. Göz işlədikcə uzanan düzlərdən sünbül qoxusu gəlirdi. Səs-səsə verən toplar təbiətin qərib sükutunu pozsa da, onun əzəmətinə xələl gətirə bilmirdi. Dəniz kimi ləpə vuran taxıl zəmiləri, yaşıllıqlar içindən şütüyüb bir xeyli uzaqda gözdən itən çay, yenə də öz yerində baqi idi. Lakin qızıl döyüşçülər məyus olmuşdular.

Birdən elə bil təbiət də bu məyusluqdan xəbər tutdu. Çay üzərindəki ağ-çəhrayı buludlar arasında üzən günəş də tutulub qaraldı. Lap yuxarılarda isə göy kişnədi. İki-üç dəfə şimşək çaxdı, qaralan buludları çalın-çarpaz doğradı.

Aslan yoldaşlarının arasında oturub sükut edirdi. Onun gözləri yerdən üzülməyirdi. O, nə görür, nə də eşidirdi. Təsəvvüründə yalnız Gülcamal, Aydın və Gülüş canlanırdı, gözü də onlara baxırdı, fikri də onlarda idi. Gülüş: "Tez gəl, atacan" – deyə-deyə Aslanı çağırır, uzaqdan ayaqları dolaşa-dolaşa ona sarı yüyürür, birdən nəyə isə toxunaraq üzüstə sərilib bərkdən ağlayırdı. Sonra isə Aydın görünür, kövrək nəzərlə atasına baxır, heç bir söz demirdi, kirpiklərini bir an belə qırpma-

dan məzəmmət dolu gözlərini Aslandan çəkmirdi. Lakin Gülcamal artıq onların yanında deyildi. Görünür o küsmüşdü, uşaqları tək qoyub harasa getmişdi.

Aslanı bir xeyli müddət fikir apardı. Xəyalən Gülcamalı axtarmağa başladı. Gülüşün səsini eşidə-eşidə ətrafına göz gəzdirdi. Uzun bir yolla gedən yalqız bir qadın gördü. Yerişindən onu Gülcamala oxşatdı. Aslan uşaqları burda qoyub onun ardınca yüyürdü. Nəfəsi darıxa-darıxa yoxuşu dırmandı. Birdən Gülcamal yox oldu. Uzun yol sakit, boş bir səhradan keçib uzaqlarda gözdən itirdi. Burada Aslandan başqa heç kim yox idi...

Təyyarə səsi Aslanı xəyalatdan ayırdı. Onun təsəvvüründən yol da, boş səhra da silinib getdi. Aslan təəccüblə çiyinlərini çəkdi. "Bəs o hara gedirdi?" - deyə öz-özündən xəbər aldı. Bu suala cavab tapmadı: "Yox, – dedi. - Gülcamal, uşaqlardan küsüb heç yana getməz, o, məni də, uşaqları da çox sevir. Axı bir də onlar bu boz səhrada nə gəzirlər?"

Aslan cəld ayağa qalxdı:

"U-2" təyyarəsi kənd üzərində dövrə vuraraq, süvarilər dayanan yerdən qırx-əlli addım kənarda, yaşıl otlarla örtülmüş düzə endi.

Aslan yoldaşları ilə vidalaşmağa başladı.

- Sağ olun, uşaqlar... – dedi. - Sifarişiniz olsa apararam. Məktub yazanınız varmı?

Hamı kədərli idi. Heç kimdən səs çıxmırdı.

Aslan sükutla baxan əsgərləri süzdü. Nə üçünsə dinib-danışmaq istəyən yox idi. Sonra o, köhlən atını göstərdi:

– Ondan muğayat olun... Sizə tapşırıb gedirəm...

Vəfalı yoldaşdır. Özünüz hücuma keçəndə onu da aparın. Çox hirslidir. Getməsə ürəyi partlar.

Qızıl əsgərlərdən biri cavab verdi:

- Siz arxayın olun, yoldaş kapitan... Bir qaşov öz atıma vuranda ikisini ona vuraram...

- Çox gözəl... Hə, nə oldu? Məktubunuz yoxdurmu?.. – deyə Aslan yenə gözlərini dolandırdı, – yazsanız gözlərəm.

Onun böyründə duran qısaboy bir ləzgi əlindəki üçkünc kağızı Aslana uzatdı:

– Bakıdan poçta qutusuna salın... Zaqatalaya göndərirəm. Mənim də arvadım ölüb...

– Ölüb?!.. – deyə Aslan təəccüblə ləzgiyə baxdı – nə vaxt?.. Bəs niyə mənə deməmisən?

– Bəli, ölüb... mənim üçün ölüb?.. Qızıma yazıram...O vəfasız anasına qoşulub getsə, mən ona qızım demərəm.

Aslanın qəlbində, qeyri-ixtiyari qara bir şübhə oyandı, "bəlkə Gülcamal da bu cür ölüb?.."

Bu fikirdən o, daha da sarsıldı. Vuruşan əsgərin iradəsini qadın vəfasızlığından çox heç nə zəiflədə bilməz. Ötə dəyən güllə adi bir sızıltıya səbəb olur, bu güllə isə daha incə bir nöqtəyə dəyir. Bu güllədən insanın ürəyi yaralanır. Qəlb yarası ağır, sağalmazdır.

Aslan bu qara şübhəni özündən tez rədd etdi: "Yox, mən buna dözmərəm, Gülcamal məni sevir. O, mənim həqiqi ömür yoldaşımdır. Heç bir zaman bu böyük sözün təhqir olunmasına razı olmaz".

– Baş üstə!.. – deyərək, Aslan ləzginin məktubunu aldı, döş cibinə qoydu. Bu zaman gənc zabitlərdən biri titrək səslə, ucadan dedi:

– Bizdən Bakıya salam söylə! Biz ona vəfalıyıq. O da bizi unutmasın!.. Məni bağışla, yoldaş kapitan, vaxt tapa bilsən, dəniz qırağına gəl, bizim də əvəzimizdən Xəzər sularına doyunca bax. De ki, bir vaxt bu sahillərdə şair olmaq istəyən bir gənc səni ölənədək unutmayacaq... eh...

Gənc zabit kövrəldi. Aslanın yaxşı tanıdığı bu oğlan bütün hissədə hamının ehtiramını qazanmış lirik bir şairdi. O, səngərdə də yazırdı: vuruşma zamanı bəzən öz şeirlərilə yanındakı yoldaşlarına ürək-dirək verirdi. Qılınc oynadarkən qəzəbli, şeir oxuyarkən kövrək idi...

Aslan onun əlini sıxdı:

Şeirlərini çantamda aparıram... Üzünü köçürüb çapa verəcəyəm... Salamını Bakıya yetirərəm... Ancaq bu ümidsizlik sənə heç yaraşmır...

– Ümidsiz deyiləm, kədərliyəm, yoldaş kapitan... – deyə şair gözlərini yerə zillədi.

Aslan yoldaşlarının hamısı ilə qucaqlaşdı. Buraya toplaşmış yeddi nəfər, onun qan qardaşları – cəbhə dostları idi.

Hələlik, uşaqlar... – deyə o, arxasına baxmadan təyyarəyə sarı getdi. Hamının gözü Aslanda idi. Doluxsunanlar da vardı. Hücum zamanı titrəməyən ürəklər indi qəribə bir həyəcanla döyünürdü.

Təyyarə buludlu fəzaya qalxıb süzməyə başlarkən, igid süvarilərin kədər dolu həsrətli nəzərləri də göyə zilləndi. "U-2" qara bir nöqtə kimi kiçilib gözdən itincəyə qədər heç kimdən səs çıxmadı.

Sonra hücum əmri verildi. Atlılar hərəkətə gəldi.

III

İki ildən bəri görmədiyi doğma şəhərinə çatarkən, hər səhər tezdən Aslanın pəncərəsinə düşən günəş yenicə tülu edirdi. O, mərmər pilləkənlə ikinci mərtəbəyə qalxdı, şüşəbəndli qapıya yanaşıb dayandı, bir xeyli nəfəsini çəkməyib ətrafı dinlədi. Dönüb geriyə boylandı. Gənc şairin salam yolladığı böyük şəhəri, sakit-sakit dalğalanaraq günəşi əks edən mavi Xəzəri, buludsuz əngin üfüqləri gördü. Bakı doğrudan da gözəl idi. Yanıb külə dönmüş əzəmətli binalardan, uçulub dağılmış şəhərlərdən sonra belə abad, belə sakit bir yeri seyrə dalmaq, toyyarələrin, partlayan bombaların gurultusuna hövlnak yerlərindən sıçrayıb harada isə gizlənməyə qaçarkən, müdhiş bombardman nəticəsində heç tikəsi də tapılmayan uşaqlar kimi öz balalarının həlak olmadığını düşünmək nə qədər böyük təsəlli olsa da, Aslan öz-özünə: "o yoxdur!.." deyə fikirləşdi, uzaqlara üzərək gözdən itən yelkənli gəmidən gözlərini çəkdi. Onun kədəri daha da artıb qurğuşun ağırlığı ilə qəlbinə çökdü.

Bir zamanlar, hələ o cəbhəyə getməmişdən hər gün sübh tezdən artırmaya çıxar, məhəccərlərin dibində cərgə ilə düzülmüş dibçəkləri sular, dənizdə çimən günəşi hamıdan əvvəl görər, radionu qurub bədən tərbiyəsi məşqinə girişərdi. Aslan birdən o keçmiş günləri xatırladı: Gülcamalı oyatmamaq üçün ayaqlarının ucunda yeridiyi əziz dəqiqələri bir röya kimi xəyalından keçirəndə onun könlündən yenə inilti qopdu.

Aslan pəncərədən içəri baxdı. Onu elə bil ildırım vurdu. Qoşa çarpayılar bomboş idi. Gülcamal doğrudan da görünməyirdi. Lakin otaqda yenə də heç bir şeyin səliqəsi pozulmamışdı. Aslan onun ölümünə inanmaq istəmədi: "yox, o sağdır!.." – deyə düşündü, cürətini toplayıb qapını döydü.

Evdən səs-səmir çıxmadı.

O, yalnız indi yəqin etdi ki, Gülcamal, füsunkar bir mələk qədər cazibəli görkəmi ilə qapıya gəlmiyəcək. Aslanın çoxdan, lap çoxdan arzuladığı xoşbəxt vüsal baş tutmayacaqdır. Aslana elə gəldi ki, bu səssiz-sədasız evdə yalnız kədər adlanan bir qüvvət hakimdir. O, qapını bir az da bərk döyməyə başladı. Oğlunu səslədi:

– Aydın!..

Yenə cavab gəlmədi. Sonra qızını səslədi:

– Gülüş!..

Bu anda yuxulu bir səs eşitdi:

– Kimsən?

– Ana, dur aç qapını.

Aslanın qoca anası qapıda göründü. O bir qədər duruxdu, gözlərini döydü, deyəsən gördüyünün həqiqət olduğuna inanmırdı. Qarının baxışlarından Aslan çox şey oxudu. Bir an içində, həyatla ölüm arasındakı ölçülməz bir məsafə qədər qısa olan bir anda bütün həqiqət Aslana bəlli oldu. Qoca arvad gülümsəyirdi. Öz ürək pərisinin bu gözlənilməyən gəlişi onu sevindirirdi. Lakin üz-gözündə çoxdan nəqş bağlamış kədəri gizlədə bilmirdi. O, yalnız analara xas olan hərarətlə Aslanı qucaqladısa da, özünü saxlaya bilməyib birdən hönkürdü, bütün vücudilə uçunmağa başladı.

Sonra Gülüş yüyürüb gəldi. Balaca, tumbul qolları ilə Aslanın qıçlarına sarıldı. Aslan anasının isti ağuşundan çıxdı, aşağı əyilib Gülüşü qolları arasında yuxarı qaldırdı.

...Atanın göz yaşları Gülüşün yanaqlarını, Gülüşünkü isə atanın dodaqlarını islatdı. Böyük bir sevinc, ağır bir kədərə qarışdı...

– Ah, ata, sən gecikdin, anam səni gözləmədi... Uzağa getdi.

Aslan dünən cəbhədə, yoldaşlarının yanında ikən xəyalında canlanan o boz səhranı, birdən gözdən yox olan Gülcamalı xatırladı...

Əlləri qoynunda durub baxan qoca arvadın göz yaşları dərd əlindən daha da qırışmış yanaqlarında parıldadı.

IV

İçəri girəndə, ilk dəfə Aslanın gözünə sataşan divardan asılmış böyük portret oldu. Hələ Gülcamalla yenicə evləndikləri zaman böyüdülmüş bu şəkildə, Gülcamal doğrudan da çox gözəl düşmüşdü. Onun uzun, gur hörükləri döşündən aşağı sallanmış, boynu azca yana sarı əyilmiş, süzgün qara gözləri məlul-məlul baxırdı. Bu gözlər, Aslanın ilk sevgisindən yadigardı. Hələ ali məktəbdə oxuyarkən, foyedə gəzişən tələbələr arasında birinci dəfə gördüyü o qara gözlər, indi də Aslanın xatirindən çıxmamışdı. Hələ o gün Aslan bu qara gözlərə həsrətlə baxa-baxa əlindəki papirosu biixtiyar yerə salmış, kənardan bu hadisəyə diqqətlə baxan tələbə yoldaşlarının qəhqəhəli gülüşünə səbəb olmuşdu...

Aslan bir də Gülcamalın şəklinə baxdı. Onun öldüyünə inana bilmədi: "Mən röya görürəm" – deyə fikirləşdi. Elə bil Gülcamal bu

dəqiqə dillənəcək, uzun intizardan sonra yerə-göyə sığmayan bir sevinclə ərini qarşılayacaqdı. Hətta Aslana elə gəldi ki, bu dəmdə Gülcamalın gözləri tərpəndi, kirpikləri qırpıldı, həmişəki adəti üzrə xəfif bir tərzdə gülümsəyib utancaq nəzərlərini yerə dikdi...

Bu halda Aydın səsə oyandı. Gözlərini açıb beşiyə sarı boylandı. Təəccüblə baxdı: "Ata! Doğrudanmı sənsən? – deyə soruşmaq istədi. Cəld yerindən sıçrayıb qalxdı, ayaqyalın yüyürüb Aslanın qucağına atıldı.

– Atacan!.. Nə yaxşı oldu, gəldin!.. - dedi. – Sənsiz çox darıxırdıq...

Aslan balalarını öpüb oxşadı. Kədərini boğmağa çalışdı. lakin evin kədərini azalda bilmədi. O, indi hara baxırdısa Gülcamalın gözlərini görürdü, o məlul baxışların mənasını düşünürdü. Qoca anası, bir an içində sınıxmış Aslana çox təsəlli verdi, "Allah kərimdir", – dedi, amma yenə də evin üzərinə qara qanadlarını gərmiş ölüm həyulasının zəhmini azalda bilmədi... Gülcamal, yorulmadan, nəvazişli baxışlarındakı o ölçüsüz məhəbbəti azaltmadan Aslana baxırdı. Elə bil ki, o, insan ömrünün vəfa etdiyi uzun bir müddət qədər kirpiyini qırpmadan Aslanla gözləşəcəyinə and içmişdi...

Günlər keçdisə də, Aslan ona baxmaqdan yorulmadı. Bəzən səhərdən axşama kimi səssizcə dayanaraq üzəyində Gülcamalla dərdləşir, bütün həyatının unudulmaz dəqiqələrini xatırlayıb yalnız bununla öz könlünü ovundururdu.

Bir axşam, dərdini bölüşmək üçün bir dosta rast gəlmək ümidilə evdən çıxdı. Bayırdan qapını bağlayıb açarı özüylə götürdü. Aylı-ulduzlu bir yay gecəsi şəhər üzərinə qanad gərmişdi. Sərin bir meh əsirdi. Sahil boyundakı ağacların yarpaqları sakit-sakit tərpənir, yavaşcadan pıçıldaşırdı. Sahildə gediş-gəliş çoxdan kəsilmişdi. Yalnız arabir kinoların qabağından ötüb-keçənlər, harasa tələsən adamlar qaralışırdı. Dostlardan, tanışlardan isə heç kim görünməyirdi. Deyəsən onların hamısı dəbhələrə gedib, uzaqlarda bu sakit şəhərin keşiyini çəkir, gecəni gündüzə qatıb, odlar-alovlar içindən keçərək bu böyük dünyanın nəhayətsiz üfüqləri arasında balaca, lakin hər şeydən qiymətli olan bir insan səadətini qoruyurdular.

Aslan isə indi yalnız o gözləri görürdü. O gözlər də həmin səadətin bir timsalı kimi hər yerdə, hər zaman inadla Aslanı təqib edirdi. Bir zamanlar ona həyatı, təbiəti, hətta bəzən dünyanın əziyyətlərini sevdirən Gülcamal, onun təsəvvüründən indi də bir an silinməyirdi. Bəlkə

Gülcamalın bu gözlənilməz ölümünə səbəb Aslan özü idi? Bəlkə o gözlər ömrünün sonuna kimi Aslanı indikindən də qüvvətli bir inadla izləyəcək, o məyus baxışlarındakı məna ilə onu daha çox həyəcana salacaqdı.

Aslan sahil boyu ilə xeyli getdikdən sonra aradığı dostlarından birini də tapa bilməyib dağ parkına doğru uzanan yola sarı buruldu, bu tənha küçə ilə yuxarılara dırmandı. Keçib-gəldiyi məsafəni gözəyarı təyin etmək istəyirmiş kimi, dönüb geriyə boylandı. Artıq bütün şəhər ayağının altında idi. Bədirlənmiş ay dənizin tən ortasında üzürdü. Bakının uzaq sahil boyunda tək-tək işıqlar yanırdı. Onlar da elə bil Gülcamalın gözlərini əvəz edib Aslana baxırdı. Sonra birdən ay yox oldu. Onun yerində, ağ buludlar arasında Gülcamalın o məsum, o gülümsər çöhrəsi göründü. Aslan indi də xəyal aləmində idi. Bir insanı eyni zamanda yerdə də, göydə də təsəvvür edə bildiyinə özü təəccübləndi. Gülcamal nə üçün səmada idi? Boz səhrada, aydın səmada, şəhərin göz qırpan tək-tək işıqları yanında görünən o sima artıq həyatda yox ikən, necə ola bilərdi ki, həm orada, həm burada Aslanın gözünə görünsün?..

Bu suala cavab axtaran zaman, Aslanın bütün vücudundan soyuq bir cərəyan keçdi. O üşüyürdü. Havanın xəfif tərpənişindən, belə soyuq ola bilməzdi. Bir də Aslan buzlu-şaxtalı Rusiya iqliminə çoxdan öyrəşmişdi. Bəs onu üşüdən nə idi?

O, gözlərini yumdu. O tərəfə çevrildi. Addımlarını yeyinlədib şəhərdən daha da uzaqlaşdı. İndi artıq heç bir şey görünməyirdi. Onun bütün varlığına yalnız bir qüvvət hakim kəsilmişdi. Burada, bu tənhalıq içində də o qara gözlər onu təqib edirdi. Gözlərini yumanda belə, Gülcamalın azca süzgün nəzərləri Aslanın təsəvvüründən ayrılmayırdı. O qara gözlər elə bil bir-birinin arxasınca düzülüb nəhayətsiz üfüqlərə doğru hey uzanırdılar.

Aslan birdən anladı ki, Gülcamal da, onun gözləri də Aslanın təsəvvüründə deyil, könlündədir, onları bu könüldən heç bir zaman çıxarıb atmaq mümkün olmayacaqdır.

Aslan geriyə döndü. Canındakı üşütməni unudub yeyin addımlarla şəhərə qayıtdı. O, öz evinə yaxınlaşanda hər tərəf yuxuda idi. O yanda küçənin qurtaracağında gəzişən gecə növbətçilərinin ayaq səslərindən başqa hər şey sükuta qərq olmuşdu. Aslana elə gəlirdi ki, evdən çıxdığı vaxtdan bəri azı bir neçə saat keçmişdir. Ancaq əslində o, qırx-əlli

dəqiqədən çox gəzməmişdi. O, qapını səssizcə açıb, ayaqlarının ucunda içəri girdi. Yerini o biri otaqdan, uşaqlarının çarpayıları arasından salmaq istədi. Bu anda onun qulağına bir səs gəldi. O, yerində donub bir neçə dəqiqə bu səsi dinlədi: anası öz-özünə danışır, tez-tez köksünü ötürürdü. Qonşu otağın qapısı açıq olsa da, anası onun gəlişindən xəbər tutmamışdı.

Aslan gözlərini bir nöqtəyə zilləyib yerindəcə hərəkətsiz dayandı. Anasını dinləməyə başladı. Qoca arvad kəsik-kəsik danışırdı:

– İndi mən ona nə deyim, ilahi?.. Nədən öldüyünü soruşsa, mən ona nə cavab verim? Axı heç özüm də bilmirəm.

Qarı yenə dərindən köksünü ötürüb susdu. Aslan isə yerindən qımıldanmadı. Qarının üzünü görmürdüsə də, nəfəsini eşidirdi. O, gah iniltili bir ah çəkir, gah da zarıyan kimi olurdu.

– Kaş ki mənciyəz öləydim... Şir kimi oğul böyütmüşəm, gözümün qabağında fikirdən şam kimi əriyib gedir.

Aslan qeyri-ixtiyari yerindən tərpəndi. Onun ayaq səsi qarını fikrindən ayırdı.

– Hə, qadan alım, gəldin?

– Öz-özünə nə deyirdin, ana?..

– Eh, ay oğul, deyirdim ki, bu dünya bir pəncərədir, hər gələn baxıb gedir... Hamı öləcək... Çox fikir eləməyin də faydası yoxdur.

Aslan qarının bu sözlərinə güldü, onun dediklərini eşitdiyinə işarə belə etmədi. Anasına yaxınlaşıb özü ona təsəlli verdi:

– Əlbəttə, ana... Heç kim bu dünyanı tutub durmayacaq. Ancaq səbəbsiz ölüm yoxdur. Əgər mən Gülcamalın nədən öldüyünü bilməsəm, istər-istəməz fikir eləyəcəyəm...

– Mən də onu deyirdim... Vallah bu sirr məni də çaşdırıb... Doktorlar dedi ki, zəhər içib... yenə bunu bircə Allah bilir... Rayondan qayıdanda saçlarına dən düşmüşdü. Onda bildim ki, çox fikir eləyib... Ha soruşdum, bir söz demədi. Gecələr fikir verirdim, birdən hövlnak yerindən qalxıb dəli kimi oyan-buyana hərlənirdi, öz-özünə danışırdı...

Aslan kürsüdə oturdu, papirosunu yandırdı:

– Mən sabah rayona gedəcəyəm, ana... Doktorlar bu sirri açmayıblar, ancaq mən nə təhər olsa açacağam...

– Nə deyim vallah... bir də ki, bundan nə fayda?

Qarı gözlərini yerə dikdi. Yenə dərindən köksünü ötürdü. Bir daha dinmədi. Aslan qalxdı, uşaqlar yatan otağa keçdi.

V

Aslan, qəsəbəyə yola düşdüyünü heç kimə xəbər vermədiyi halda, dəmiryol stansiyası onu qarşılamağa gəlmiş adamlarla dolu idi. Hətta yerli hissənin nəfəsli orkestrini də buraya yollamışdılar. O, vaqondan düşəndə güllər-çiçəklər səpələndi, tuş çalındı, gurultulu alqışlar qopdu.

İzdiham Aslanı ortalığa aldı. Təbrik səsləri ucaldı. Onun qəhrəmanlığı ilə öyünən dostlardan da gələnlər çox idi.

Stansiyanın geniş meydanında böyük bir yığıncaq quruldu. Aslanın məktəb yoldaşı Əziz Rəhimzadə iclası açdı. Nitq söylədi:

– Alman qəsbkarlarına qan udduran qəhrəmanımıza eşq olsun!.. – dedi...

Hamı urra çəkdi. Rəhimzadə Aslanı qucaqlayıb üzündən öpdü:

– Mən sənin kimi yaxın bir yoldaşımla ürəkdən fəxr edirəm!.. – deyə sevincindən yaşaran gözlərini sildi. Aslan qəsəbəyə gətirildi. Təntənəli iclaslardan sonra, o, bir dəqiqə belə itirmədən istintaqa girişdi...

Onun ilk görüşü, Rəhimzadənin evində oldu. O, ali məktəbdən tanıdığı bu yoldaşilə çox açıq danışdı:

– Yoldaş sözü mənim nəzərimdə hər bir sözdən yüksəkdir. Sən üzümdən öpdün, məni alqışladın. Demək biz ürəyimizi bir-birimizə açа bilərik... Səndən yalnız bir xahişim vardır. De görüm, Gülcamal nə üçün intihar etmişdir!..

Rəhimzadənin qaşları çatıldı. Doğrusu o, Aslanın belə tezliklə bu sualı verəcəyini gözləmirdi.

– Nə üçün?..

– Bəli, nə üçün?.. Sən bütün rayonun rəhbərisən, rəsmiyyətə də qalsa, bu suala sən cavab verməlisən!..Sərt bir ifadə ilə deyilən bu söz Rəhimzadənin təəccübünə səbəb oldu. Aslan bir an belə kirpiklərini qırpmadan onun gözlərinin içinə baxırdı:

– Nə üçün?

Rəhimzadə xeyli tutuldu. O hətta bir neçə dəfə udqundu. Aslana elə gəldi ki, bu, bir gün əvvəlki təntənəli görüşdən sonra, dost bir adamın, yalnız üzdən onun dərdinə şərik olduğunu bildirmək üçün uydurduğu bir hərəkətdir. "Yox, əzizim, sən Gülcamalın ölümünü çoxdan unutmusan... Belə təsəlliyə mənim ehtiyacım yoxdur. Əgər sən həqiqi yoldaşsansa, bu qəribə sirri açmaqda mənə kömək et..." – deyə

Aslan xəyalından keçirdi, bir də gözlərini Rəhimzadəyə dikdi. Yenə sərt bir ifadə ilə sözünə davam etdi:

– İntihar, adi bir hadisənin nəticəsi deyil... Görünür, onun başına nə isə böyük bir bəla gəlmişdir.

– Buna heç bir şübhə ola bilməz! Doğrudan da qəribə müəmmadır! – deyə Rəhimzadə onun sözünü kəsdi. – Lakin bilmirəm sən niyə elə güman edirsən ki, biz bu işlə heç maraqlanmamışıq!.. Ay yarımdan bəridir ki, bütün məhkəmə idarələri bunun səbəbini aydınlaşdırmaqla məşğuldur... Burada nə isə böyük bir cinayət olmuşdur. İpin ucu tapılsa, qalanı tez məlum olar... Bilirsənmi, Aslan, mənim zənnimcə bu günlərdə müstəntiqlər müəyyən bir qərara gələcəklər... Əlbəttə, burada ciddi siyasi məsələ vardır. Şəxsən mən özüm hər gün istintaqın gedişilə maraqlanıram... Gülcamala az-çox tanışlığı olan adamların hamısı danışdırılmışdır. Heç kəs müəyyən bir söz deyə bilmir.

Aslan qabağındakı çay stəkanını götürüb, bir qədər özünə tərəf yaxınlaşdırdı. Çay soyumuşdu. Rəhimzadə bunu duymuş kimi yerindən qalxdı:

– Bəri ver, çayını dəyişdirim, – dedi, – niyə içmədin?

– Lazım deyil, sağ ol... Ancaq bilmirəm Gülcamal hansı siyasi məsələlərə əl ata bilərdi?

Rəhimzadə yenə duruxdu, qaşlarını dartdı, fikirli-fikirli Aslanın üzünə baxdı. Onun hər kəlməyə böyük bir diqqətlə qulaq asdığını, hər işarəyə həddindən ziyadə fikir verdiyini görəndə öz-özünə dedi: "Bununla bir az ehtiyatlı dolanmaq lazımdır".

– Sonra deyirsən ki, müəyyən bir şey söyləyən yoxdur. Elə isə müstəntiqlə, nəyin əsasında qərara gələcəklər? Çayı isti-isti içmək lazım idi...

Aslanın bu sözündən sonra Rəhimzadənin əlləri titrəməyə başladı: "Demək məni təqsirləndirir. İşi gecikdirdiyimə işarə edir" – deyə həyəcanla düşündü. *Yanaqlarındakı qızartı birdən silindi, üzünün ortasında bozumtul ləkələr əmələ gəldi.* Bu ləkələr də Aslanın gözündən yayınmadı.

– Bu sirri açmamış mən cəbhəyə qayıtmayacağam, – deyə Aslan ayağa qalxdı, – hələlik.

VI

Rəhimzadə həyəcanlı idi. Əgər Aslan onun yalnız bir yoldaş, rəhbər kimi çox zəif hərəkət etdiyini düşünürdüsə də, Rəhimzadəni həyəcanlandıran tamamilə başqa bir səbəb idi. O, şəxsən özünün Gülcamalın ölümündə müqəssir olduğunu bilirdi. O, bilirdi ki, həyatında bundan sonra olduqca böhranlı günlər başlanacaq, xalq qəhrəmanı kimi tanınıb cəbhədən qayıtmış iradəli bir zabit öz sevimli qadının ölümünə bais olan adamı axtara-axtara nəhayət onu tapacaqdır. Bu zaman Aslan ondan müdhiş bir intiqam alacaq, yalnız bir yoldaş kimi deyil, hətta ictimai bir insan kimi onun bütün nüfuzunu qırıb, məharətlə gizlədiyi ikinci üzünü də açıb hamıya göstərəcəkdir. Bu fikir Rəhimzadəni dəhşətə saldı: "İmtahan saatı yaxınlaşır. Əsil vuruş meydanı budur. Burada da qalib gələ bilsəm, artıq mən heç bir zaman məğlub olmayacağam... Müstəntiqlərdən mənim zərrə qədər də qorxum yoxdur. Onlar canini uzaqda, çox uzaqda axtarırlar. Bütün iplərin ucu məndədir. Səbir! İradə... Kim məndən şübhələnməyə cəsarət edə bilər? Hətta Aslan özü belə bu cəsarətdən məhrumdur!.."

Rəhimzadə papirosunu yerə çırpdı. Otağında var-gəl etməyə başladı: "Əgər Gülcamal özü bir yadigar qoyub getməmişsə, bu sirr mənimlə bərabər qəbrə gömüləcəkdir. Yox, o da heç kəsə bir şey deməmişdir. Deyə də bilməzdi. Çünki o, namus ucundan özünü öldürdü..."

Qapını döydülər. Rəhimzadə səksəndi. Boğuq bir səslə soruşdu.

– Kimsən?..

– Mənəm!..

– Aha, Səlimə!.. Bu saat!

O qapıya yanaşdı. Gələn qızı gülərüzlə qarşıladı:

– Nə üçün gec gəldin, əzizim? – deyə xəbər aldı.

– Aslanla görüşməyə getmişdim... Yazıq çox qəmgindir. Zarafat deyil, axı o, Gülcamalı çox sevirdi. Məni yaman sorğu-suala çəkdi. Mən də bildiyimi dedim...

Rəhimzadənin nəfəsi tutulan kimi oldu...

– Nə dedin ki?

– Nə bilirdimsə... Dedim ki, bir məktəbdə dərs verirdik. Hamı onun xətrini istəyirdi. Gecə-gündüz məktəbdə olurdu. Uşaqlarını bağçaya aparıb-gətirirdi. Nə qədər ağır dolansa da onların üst-başını həmişə gül kimi təmiz saxlayırdı... Aslan müəllimlərin adını soruşdu.

Hamısını dedim. Sonra qəribə bir sual verdi: "Ona heç əyri gözlə baxan olmadı ki?" Mən güldüm, dedim: bu qısqanclıqdandır. "Yox, mən qısqanc deyiləm", – dedi. – "Bilmək istəyirəm görüm işlədiyi məktəb necədir?"

Səlimə bir saatlıq söhbəti iki dəqiqənin içində belə qırıq-qırıq təkrar edib qurtardı. Onun səsində də, hərəkətində də saf, səmimi bir əda vardı. Gülcamal haqqında dediyi sözlər, Rəhimzadənin həyəcanını hər an artırırdı. O, "artıq ölmüş bir qadından nə üçün bu qədər danışırsınız?" – deyə Səlimənin sözünü kəsdisə də təmiz ürəkli, sadə təbiətli bu qız başqa bir mətləbə keçmədi, yenə Gülcamaldan bəhs etməyə başladı:

– O, doğrudan da mələkə idi. Müəllimlər onun başına and içirdilər. Mən də ona bənzəyə bilsəydim, ömrümdə heç dərdim olmazdı. Sən bilmirsən, o, Aslanı Allah bilirdi. Bu cürə sevgi mənim idealımdır.

Rəhimzadə Səliməyə lap yaxın gəldi. Onların nəfəsi bir-birinə dəydi:

– Mən yüz qat ondan qüvvətli sevməsəm, bir an da yaşamaram!.. – deyə Rəhimzadə dilləndi, onun səsi titrədi, – mənim sevgim Otellonu heç məqaminə endirəcəkdir!

Səlimə gülümsədi. Qızların adətidir: öz məhəbbətini belə açıq etiraf edən oğlanları çox bəyənirlər. Onlar üçün titrək nəfəslə həqiqi məhəbbət arasında elə böyük bir fərq yoxdur. Səlimə də bu sadə qızlardan biri idi. Ona elə gəlirdi ki, Rəhimzadənin hərarətli nəfəsi, hərarətli ürəyilə bağlıdır. O, güman edirdi ki, həqiqi sevgili bir nəvazişə yüz nəvazişlə cavab verə bilmirsə, demək onun qəlbi həqiqi məhəbbətlə döyünməkdən acizdir.

– Yox, əzizim, mənim üçün Gülcamal ən böyük idealdır!.. – deyə o yenə öz sözünə qayıtdı, – mən bilirəm ki, onun intihar etməsi də məhəbbətdəndir.

Rəhimzadə Səliməni qucaqladı. Dodağından öpmək istədi, o dartınıb Əzizin qolları arasından çıxdı.

– Sən Otellodan danışırdın... Unutma ki, bir nəzəriyyəyə görə o, Dezdemonaya toxunmamışdır...

– Bu nə sözdür, Səlimə?

– Demək istəyirəm ki, o nəzəriyyəyə görə Dezdemona öləndə də qız ölmüşdür...

Bu mübahisənin Rəhimzadəyə xeyri dəydi. Səlimə özü də fərqinə varmadan, mətləbi dəyişdi.

– Niyə təəccüb edirsən?.. Ərəb ona toxunmamışdı. Mən bunun nə dərəcədə doğru olub-olmadığını bilirəm. Ancaq belə bir nəzəriyyə varsa, demək Otellonun sevgisinin ilahi bir sevgi olduğunu güman edənlər də yox deyildir...

– Mən bu mübahisəyə qarışmaqdan qorxuram, – deyə Rəhimzadə acı-acı güldü, – çünki, ədəbiyyatda mən piyadayam. Siyasət başqa... Əgər məndən soruşsan, Otello kimi bir vəhşi, sən deyən kimi sevə bilməzdi...

– Onu Şekspirdən xəbər al... Ən qəddar insanların da qəlbində vicdan əzabı doğuran bir düha bu məharətdən məhrum ola bilməzdi...

– Vicdan əzabı?..

Rəhimzadənin gözləri Səlimənin üzünə dikilib qaldı. "Vicdan əzabı" – sözünü eşidərkən, ürəyi az qala yerindən qopdu.

– Sən gəl, bu mübahisəni bir tərəfə qoy... – deyə Səliməni qucaqladı. Onu öpərkən birdən Aslan gəlib gözlərinin önündə durdu. Rəhimzadənin rəngi kətan kimi ağappaq oldu. Bunu dərhal sezən Səlimə həyəcanla soruşdu:

– Nə oldu sənə, Əziz?

– Heç... Başım hərlənir... Yorğunam...

O Səlimədən aralanıb divanda oturdu, başını arxaya sarı əydi, gözlərini yumub bir neçə dəqiqə səssizcə dayandı. Amma Aslan onun təsəvvüründən ayrılmadı. Sanki "gözümün içinə düz bax!" deyə dönə-dönə səslədi:

Sənə nə oldu, Əziz?

– Heç... Gözüm qaralır... Bərk yorğunam...

VII

Aslan Gülcamalın dərs verdiyi məktəbə yollandı. Müəllimlərin çoxusunu tanıyırdı. Bütün qəsəbədə öz nümunəvi əxlaqilə məşhur olan bu ziyalılar, gözəl bir məktəb yaratmışdılar. Buradan minlərcə xalq müəllimi buraxılmışdı. Respublikanın ən uzaq kəndlərində bu məktəbin tərbiyə edib böyütdüyü gənclərə tez rast gəlmək olardı. Aslan özü də orta təhsilini bu məktəbdə almışdı.

O, içəri girəndə bütün şagirdlər, müəllimlər toplaşdı, təbrik məclisi quruldu. Sevincdən gözləri yaşaran qoca bir müəllim Aslana yanaşdı:

– Oğlum, – dedi, – son uşaq ikən də mənim tələbələrimdən seçilərdin. Sənin lə ürəkdən fəxr edirəm. Mən bütün gənclik illərimi bu məktəbin divarları arasında keçirmişəm. Çəkdiyim əməyə heyfsilənmirəm. Doğma balalarımı bu mərtəbəyə yüksəlmiş görəndə öz-özümə deyirəm: "Yox, zəhmətim hədər getməmişdir".

Qoca müəllim o qədər ürəkdən danışırdı ki, dinləyənlər arasında da gözü yaşaranlar oldu.

– Biz, müharibənin bu ağır illərində heç bir çətinlikdən qorxmadıq, oğlum... – deyə qoca müəllim sözünə davam etdi. Cəbhədə sizinlə bərabər biz də qalib gəldik. Alman müəllimi cəbhəyə cəllad ürəkli soldat böyüdüb yollamışdı, amma biz qəhrəman cəngavər yetişdirib yolladıq. Mən özüm də bir qəhrəmanam... Müəllim yoldaşlarım da qəhrəmandır. Dünyanın ən böyük yazıçıları mənim də, yoldaşlarımın da adına təşəkkür teleqramı göndərmişlər. Mən yenə də yaşamaq, çalışmaq istəyirəm. Xalqı yüksəldən gözəl məktəb, məktəbi yaradan da vicdanlı müəllimdir. Məktəbimiz sənin lə fəxr edir, oğlum... Mənim təxmini hesabıma görə bizim tələbələrimizdən iki yüz əlliyə qədər təltif olunan, üç də Sovet İttifaqı Qəhrəmanı vardır. Biz öz məktəbimizlə fəxr edirik!..

Qoca müəllim sözünü bitirib Aslanın boynuna sarıldı. Onun titrək əlləri Aslanın çiyinlərində gəzindi. Onun ağ saçları, Aslana ordu komandanını xatırladırdı... Bu iki qocanın nəvazişində də qəribə bir bənzəyiş vardı. Hər ikisi eyni dərəcədə səmimi, eyni dərəcədə mehriban idi. Aslana elə gəlirdi ki, harda olursa-olsun tələbəni də, əsgəri də həqiqi qəhrəmanlığa səvq edən yalnız belə müəllimlərdir. Dəyənək gücünə tərbiyə olunan tələbələri də, əsgərləri də o, yaxşı tanıyırdı: Alman əsgəri bunun ən parlaq nümunəsi idi!..

Təbrik məclisi qurtardıqdan sonra Aslan yenə istintaqa başladı. Gülcamalın rəfiqələrindən biri ona belə bir əhvalat nəql etdi:

– Bir axşam dərsdən çıxanda Gülcamalı axtarıb tapmadım. Həmişə ya o məni, ya da mən onu gözlərdim. Evə birlikdə qayıdardıq. Yoldaşlardan soruşdum, onun yerini deyən olmadı. Evinə getdim. Orada da tapmadım. Uşaqlar ağlaşırdı. Gülcamalı soruşdum, dedilər ki, hələ evə gəlməyib... Bəs haradadır? – bilmirik... – dedilər. Doğrusu mən şübhəyə düşdüm. O tanışa, bu tanışa müraciət elədim, ondan xəbər-ətər çıxmadı. *Bir gün səhər tezdən yenə onun evinə gəldim. Gördüm ordadır...*

Soruşdum hara getmişdin? Dedi sonra deyərəm. Bir neçə kərə israr elədim, demədi. Amma çox kədərli idi, gözümə bir təhər dəyirdi. Bir az qocalan kimi olmuşdu. Əzab çəkmiş adamlara oxşayırdı.

– Bəs hara getdiyini öyrənə bilmədin? – deyə Aslan səbirsizliklə xəbər aldı.

– Bakıya qayıdana qədər ondan bir kəlmə qoparda bilmədim. O sirri, yazıq özüylə bərabər qəbrə apardı.

– Sənin fikrincə o hara gedə bilərdi? – deyə Aslan daha səbirsiz halda soruşdu.

– Nə deyim vallah?..

Aslanın gözləri böyümüşdü. Gicgahının damarları şişib bərk-bərk atırdı. Onun ürəyini qara bir şübhə gəmirməyə başladı: "bəlkə mənə xəyanət etdiyi üçün dözə bilməyib özünü zəhərləməyə məcbur olmuşdur?"

– "Həqiqəti məndən gizlətmə, Sürmə!.."– deyə Aslan nəfəsi darıxa-darıxa qəzəblə parıldayan gözlərini müəlliməyə dikdi. – Sən bilirsən, amma nə üçünsə gizlədirsən!..

– Yox, Aslan, əziz canına and olsun ki, nə bir kəlmə artırıram, nə də bir kəlmə əksildirəm.

Gec-tezi var. Mən əvvəl-axır biləcəyəm. Nahaq gizlədirsən. Lap dəhşətli bir xəyanət eləmiş olsa da artıq mənim üçün fərqi yoxdur!

– Sən nə danışırsan, Aslan? Heç düşmən də onun barəsində bu sözü deməyə cəsarət eləməz. Gülcamalın adına söz çıxardanın dilini kəsərlər...

– Elə isə de görüm o hara gedə bilərdi?

– Nə üçün mənə inanmırsan, qardaşım? Vallah bilmirəm.

– Yox, yox, hamınız əsəblərimlə oynayırsınız... Bu yoldaşlıq deyildir. Nə üçün gizlədirsiniz, yoxsa elə zənn edirsiniz ki, bu mənim iztirabımı azaldacaqdır?

Aslan cəld addımlarla Sürmədən uzaqlaşdı. Sarmaşıqlarla örtülmüş eyvanda gözdən itdi. Sürmə onun dalınca küçəyə çıxarkən, Rəhimzadəgilə getdiyini görüb rahat oldu: "Lap ürəyim düşdü, dedim, görəsən nə fikri var? Rəhimzadə ona təsəlli verər".

VIII

Aslan Rəhimzadənin qapısından içəri girəndə, onu telefonla danışan gördü. Üzü o tərəfə durub kimi isə danlayırdı.

– Bu gün də cani tapılmasa özün həbs olunacaqsan. Artıq bu səhlənkarlığa dözmək olmaz. Orasını özün bilərsən, yerin dibindən tap-çıxart!..

O, ayaq səsi eşidib Aslana tərəf dönəndə telefonun dəstəyi əlindən düşdü. Aslan bu hərəkətə o qədər də pis məna vermədi, adi bir təsadüf nəticəsində adam da büdrəyib yıxılar, nə olsun ki?

Rəhimzadə cəld aşağı əyilib dəstəyi yerdən götürdü, sözünü tamamladı:

– Axşam, idarədə işin nəticəsini mənə bildirməlisən, vəssalam! – deyib dəstəyi yerindən asdı.

Aslan ona salam verməyi unutdu:

– Mən bu gecə Bakıya yola düşürəm, – dedi, – bütün qəsəbəni danışdırdım. Mənə həqiqəti söyləyən bir adam tapılmadı. Görünür, bu sirdən heç kim xəbərdar deyildir.

Rəhimzadə; "bu daha gözəl" deyə xəyalından keçirərək Aslanın əlini sıxdı:

– Get, əziz dostum, ancaq mən yoldaşlığımızın xatirinə bu cinayəti son nöqtəsinə qədər açdırmamış bir dəqiqə belə rahat olmayacağam – Rəhimzadə Aslanın zəhmli baxışlarına dözə bilməyib gözlərini yerə dikdi – heç ömrümdə belə dolaşıq işə rast gəlməmişdim...

Aslan bir az əvvəl Sürmənin danışdığı əhvalatı ona söyləyəndə, Rəhimzadənin rəngi çox tutuldu, yenə əlləri titrəməyə başladı. Bu təfərrüat Aslanın diqqətli baxışlarından yayınmadı. "Mənim dərdimə şərik olduğunu göstərmək istəyir" deyə düşündü.

– O iki günün tarixini də Sürmədən öyrəndi. Aprelin on beşində, on altısında Gülcamal evdə olmamışdır. Müstəntiqlər bu nöqtəyə fikir veriblər, ya yox?

– Doğrusunu deyə bilmərəm – Rəhimzadənin nəfəsi tutulan kimi oldu – hər halda... Bu faktı onların yadına salmaq pis olmaz. Axşama kimi möhlət vermişəm. Əgər bir şey çıxmasa onların özünü həbs etdirəcəyəm. Onlar yəqin kimdənsə rüşvət alıb, məsələni ört-basdır etməyə çalışırlar. Mən bu rüşvətxorlarla mübarizədə qocalıram. Partiyanın siyasətini təhrif edən alçaqları yerindəcə güllələmək lazımdır!..

Aslan, ehtirasla deyilən bu sözlərə o qədər də diqqətlə qulaq asmırdı. Ona elə gəlirdi ki, bu nitqlərin faydası yoxdur. Gülcamalın ölümündə müqəssir olan cani hardasa gizlənib, yəqin ki, bu istintaqlara gülür, uzun-uzadı danışıqları istehzaya qoyub sevinirdi.

– İki gün məsələsi... – deyə Aslan yenə təkrar etdi. – Sən nə üçün bundan xəbərsizsən?..

– Yəqin kəndlərdə olmuşam... İşim o qədərdir ki, bəzən həftələrlə idarədə olmuram...

– Axı, sən mənim yaxın yoldaşımsan!..

– Buna şübhənmi var?..

– Yoldaş sözünü təhqir edən bir alay komandanını əsgərlərin qabağında güllələdilər.

– Heç bilmirəm, bununla nə demək istəyirsən, Aslan?

– Onu demək istəyirəm ki, mən cəbhədə idim, Gülcamalın həyatilə maraqlanmaq sənin yoldaşlıq borcun idi!..

– Əlbəttə əlbəttə... Maraqlanmadığımı sənə kim dedi?

– Kim?.. Mən deyirəm!..

Rəhimzadə incik halda masaya yanaşdı. Borjom şüşəsini açdı stəkanı doldurub birnəfəsə içdi.

– Mən bu danışıqları yersiz hesab edirəm, Aslan... Kənardan baxan olsa deyər ki, cani mənəm, müstəntiq də sən... Əgər məqsədin məni təhqir etməkdirsə, sözüm yoxdur. Məhz bir dost kimi xatirinə dəymirəm. Ancaq unutma ki, mən sənin uşaqlarına atalıq eləmişəm, səndən ölüm xəbəri gələndə əlimdən gələn köməyi əsirgəməmişəm.

Rəhimzadənin səsindəki titrəyiş Aslana da təsir etdi. O, həddindən artıq sərt danışdığını duymuş kimi, zəhmli nəzərlərini Rəhimzadənin üzündən çəkdi, pəncərəyə sarı getdi.

– Əgər sən mənim yerimdə olsaydın, – dedi, – güman edirəm ki, məndən mülayim danışmazdın.

Rəhimzadə bu cavabla kifayətlənib, divanda oturdu, qulluqçusunu çağırıb şam yeməyi hazırlamağı tapşırdı.

– Sorğu-suala başım qarışdı, səni heç qonaq da eləmədim, – deyə gülümsəyərək Aslana baxdı, papirosunu yandırdı.

Qulluqçu o biri otağa keçən kimi yenə qapı açıldı. Bir nəfər oğlan uşağı teleqram gətirib Rəhimzadəyə verdi: onu Bakıya çağırırdılar, mühüm bir müşavirə vardı, o:

– Çox yaxşı oldu. Bir yerdə gedərik!.. – deyə Aslana baxdı.

IX

Aslanın səbirsizliklə gözlədiyi müstəntiqlər də gəlib çıxdılar. Lakin onların heç biri əsil müqəssiri tapa bilməmişdi. Bu mümkün deyildi. Vicdanla çalışan istintaq işçilərini danlayarkən, Rəhimzadə yalnız öz günahını məharətlə gizlətməyə səy edir, hər addımda onları çaşdırırdı. Onun əsil məqsədi ipin ucunu əlində daha möhkəm saxlamaq, sonra da müstəntiqləri ləkələyib həbsə aldırmaq idi. Lakin hələ əlində ciddi bir əsas olmadığı üçün, canfəşanlıq etdiyini heç olmasa Aslana göstərməli idi:

– Hamınız vicdansızsınız! – deyirdi. – Mən bu rayonda bir nəfər saf adama rast gəlmədim. Hamı öz cibini güdür. Caniləri ört-basdır edib ən yaxşı adamları ləkələmək istəyirsiniz! Bu nədir? – Rəhimzadə kağız qovluğunu açıb toplanmış materialları göstərdi. – Guya Gülcamal iki gün həbsdə yatmışdır. Bu nə axmaq sözdür! Prokurorun icazəsi olmadan kim onu həbs edə bilərdi? Belə boş istintaqdan nə fayda? Gedin, özünüzə iş tapın! Sizə insan həyatını tapşıranlar özü axmaqdır. Mən heç heyvanları da sizin ümidinizə buraxmaram!..

Rəhimzadə az qala ağzı köpüklənə-köpüklənə danışır, həm kolməbaşı əlini masaya çırparaq onları hədələyirdi:

– Buyurub gedə bilərsiniz!.. Çox təəssüf ki, mən bir azdan Bakıya yola düşürəm. Qayıdanda bütün məhkəmənin altını üstünə çevirəcəyəm!..

Onlar son dərəcə məyus halda kağız-kuğuzlarını götürüb Rəhimzadənin kabinetindən çıxarkən Aslan ayağa qalxdı:

– O iki gün həbs məsələsini çox nahaq yerə axmaq iş adlandırırsan, Əziz... Məncə bu nöqtəyə diqqət yetirmək lazımdır!

Bu sözləri deyən zaman, Aslan yenə Rəhimzadənin rəng verib-rəng aldığını gördü. Üzündəki bozumtul ləkələr indi daha aydın seçilirdi.

– Yox, canım, – deyə tez özünü ələ aldı. – Bunlar hamısı fırıldaqdır. Gülcamalı həbsə almağa, kim cəsarət edə bilərdi. Mən ölməmişdim ki?

Bu söhbət zamanı Rəhimzadənin gözləri bir dəfə də olsun yerə zillənmirdi. O indi düz Aslana baxırdı.

– Mən güman edirəm ki, rayon istintaq orqanının bütün heyəti dəyişilmədikcə, istintaq düz istiqamət almayacaqdır... – deyə. o danışıqlara yekun vurdu.

Onlar şam yeməyinə oturanda Aslan əvvəlkindən də fikirli idi. O, Rəhimzadənin suallarına da könülsüz cavab verirdi. Artıq bütün ümidləri boşa çıxmışdı.

X

Bakıya gələndə Aslan bir daha bu xüsusda düşünməyəcəyinə söz verdi. Lakin birdən yenə Gülcamalın portreti gözünə sataşdı. Bu dəqiqədən etibarən hər şey yenidən başlandı. O qara gözlər indi daha böyük bir məzəmmətlə baxır, elə bil Aslanın acizliyinə işarə edirdi.

– Nə oldu, qadan ürəyimə? – deyə qoca anası xəbər aldı. – Bir şey öyrənə bilmədinmi?

– Yox, ana... öyrənə bilmədim. Gülcamal bütün sirlərini özü ilə bərabər qəbrə aparıb... – deyə Aslan kövrək bir səslə cavab verdi.

Ana ilə balanın söhbəti uzun çəkmədi. Aslan uşaqlar yatan otağa keçdi. Əvvəlcə Gülüşə, sonra da aydına baxdı. Hər ikisinin üzünə yenə də kədər nişanələri qonmuşdu. Aydın ağlamsınan kimi yatırdı. Gülüş isə qaşlarını çatmışdı.

Aslan yerində uzanıb gözlərini yumdusa da, yata bilmədi. Qaranlıqdan yüzlərcə göz ona zillənmişdi.

O, qara gözlərin məyus ifadəsi Aslana o qədər tanışdı ki, bu zil qaranlıqda belə onları çox aydın görə bilirdi. Sanki Gülcamal birdən dilə gəldi, nə isə dedi. Aslan nəfəsini belə çəkmədən onu dinlədi. Lakin Gülcamal bir daha dinmədi.

– Ana, ana, bir yanıma gəlsənə!.. – deyə Aslan sağa tərəf buruldu.

Ancaq onun çağırışına səs verən olmadı. Görünür qoca arvad yorulub yatmışdı. O gözlər isə hələ də çəkilib getmirdi.

Aslan yorğanı başına çəkdi, gözlərini bərk-bərk yumdu. Yox, Gülcamal ondan ayrılmayırdı. "Bəs indi mən nə edim" – deyə Aslan həyəcanla düşündü. Az qala nəfəsi darıxırdı. Tez ayağa qalxdı, portret asılmış otağa keçdi, işığı yandırdı. Çoxdan açılmamış kitab şkafının açarını burdu. Bir zamanlar mütaliə etdiyi romanlar, fəlsəfi əsərlərə, qırmızı qələmlə səhifələrin kənarında yazdığı qeydlərə göz gəzdirdi. Bu evdə gördüyü hər şey, ona Gülcamalla keçirdiyi xoşbəxt ailə həyatını xatırladırdı. Hətta bu kitablardan belə Gülcamalın ətri duyulurdu. Birdən Aslanın xəyalından qəribə bir fikir gəlib keçdi. "Portreti aparıb böyütdürəcəyəm. Qoy bu şəkil Gülcamalın özü boyda olsun. Mən ona baxdıqca ölümünü unudacağam. O mənim qarşımda diri kimi görünəcəkdir".

Həmin fikirlə də Aslan divara yanaşdı, portreti yerə endirdi.

...Bu halda portretin arxa tərəfindən bir qalaq müxtəlif biçimli kağızlar şırıltı ilə yerə töküldü.

Aslan portreti üsulluca masanın üstünə qoydu. Daha da həsrətlə ona baxdı. Elə bil gözləri nə isə yeni bir şey axtarır, neçə gündən bəri bütün varlığını sarsıdan sualların cavabını onlardan almaq istəyirdi

İndi Gülcamalın gözləri artır, milyonlar, milyardlarca gözə dönür. Təəccüblə Aslana baxırdılar.Ah, o bircə dəqiqə dilə gəlib bu ölümün sirrini özü söyləyə bilsəydi!.. Aslan ona çox baxdı, lakin yenə də hər şey müəmmalı olub qaldı.

Aslan birdən yerə tökülmüş məktubları xatırladı. Portretdən ayrıldı. Onları səliqə ilə topladı, yazı masasının üstünə portretin yanına qoydu. "Yəqin mənim məktublarımdır" deyə fikirləşdi. Qəlbinin ən alovlu dəqiqələrindən yadigar qalmış bu kağız parçaları indi onun nəzərində birdən-birə daha əziz, daha qiymətli oldu. Aslan onlardan birini açdı, nüfuzedici gözlərlə hər bir kəlməyə diqqət yetirdi. Buradakı xatirələr həyat qədər şirin, insan məhəbbəti qədər cazibəli idi. O birisi məktubu açdı. Gülcamalın xəttini görüb təəccüblə çiyinlərini çəkdi. Aslan öz adına yazılmış bu kağızı oxumağa başladı.

"Vəfalı dostum!

Bu məktubu yalnız mən öləndən sonra oxuyacaqsan. Mən, səhər gün doğmamış, bədbəxt balalarımdan, səndən əbədi olaraq ayrılıram. Budur, iki gündən bəri döşümdə gizlətdiyim bu zəhəri içib həyatımla vidalaşıram. İndi artıq mənim yaşamağa haqqım yoxdur. Aslan! Bilsəydin, səni necə arzulayıram! Əgər burda olsaydın, ayaqlarına düşüb yalvarar, "könlümə vurulan bu qara ləkəni qanımla təmizlə" deyərdim. Amma nə edim ki, sən cəbhədə, məndən çox uzaqdasan.

Bir il bundan əvvəl sənin ölüm xəbərini gətirmişdilər. Sonra da məktublarının arası kəsildi. Qəhrəman adı almağını oxuyanda bildim ki, sən düşmən arxasında vuruşursan, yenə bir gün qayıdıb gələcək, bu məktubumu oxuyub mənim intiqamımı alacaqsan.

Etiraf edirəm ki, ürəyimə vurulan bu ləkəni yalnız mənim ölümüm silə bilərdi, əzizim... Məni tora saldılar. Mən onun zahirinə aldandım. Məsum körpələrimin nəfəsi qədər təmiz könlümə o ləkə vurdu.

Sən onun kim olduğunu öyrənmək istəyəcəksən.

Əhvalatı sənə lap başdan yazıram. Mən, ölüm xəbərini alandan sonra rayona getdim. Orda müəlliməlik edib uşaqlarımı dolandırırdım. Kaş

ki, heç getməmiş olaydım. Mən onunla əvvəldən tanış deyildim. Harada, nə vəzifədə olduğunu da bilməzdim. Bir gün ehtiyac məni məcbur etdi. Yoldaşlarım da dedilər ki, "Aslanın uşaqlarına kömək etmək onun vəzifəsidir. Get, dərdini ona söylə, yaxşı adamdır, köməyi dəyər" "Onu hamı Rəhimzadə deyə çağırırdı".

Aslan gözlərinə inanmayaraq ayağa qalxdı. Yaxın dost bildiyi, hələ dünən axşam bir masa dalında duz-çörək kəsdiyi bir adamın familiyasını oxuyarkən, başından alov qalxdı. İpin ucunu tapdığına sevinsə də, oxuduğu sətirlərdən dəhşətə gəldi. Qəfəsə düşmüş aslan kimi sağa-sola vurnuxdu.

Sonra Gülcamalın məktubunu sürətlə oxumaqda davam etdi:

"Dərsdən çıxıb onun yanına getdim. Qapıda çox gözlətmədi. Məni tez çağırtdırdı. Bəzəkli bir kabineti vardı (mən indi anlamışam ki, səliqə ilə bəzənmiş bu otaq iş görülmək üçün deyilmiş).

Son də, əzizim, insanlara iclasda söylədikləri odlu nitqə görə qiymət vermə. O da çox mahir bir natiq kimi məşhurdur. Hər yerdə, hər zaman ürəkdən, vicdandan, saf məhəbbətdən danışar, daşürəkli, dəftərxana məmurlarını söyər, "onların qəlbində xalq məhəbbəti əvəzinə qara yellər əsir" deyərdi. O danışarkən mən öz-özümə düşünərdim: "Xalqımız doğrudan da xoşbəxtdir ki, onun belə gözəl oğulları var". O məni gülərüzlə qarşıladı. Ərizəmi oxudu.

– Gülcamal xanım, – dedi. – Aslan mənim ən yaxın yoldaşlarımdandır. O yoxdur, biz ki, ölməmişik. Vətən yolunda həlak olan qəhrəmanların ailəsinə hər gün, hər saat kömək etmək borcumuzdur. Nəyə ehtiyacınız olsa, o dəqiqə mənim yanıma buyurun!

Doğrudan da o bizə kömək verdi. Bir dəfə hətta özü də maşına minib bizə gəldi. Hədiyyə gətirdi. Uşaqlarla görüşdü. Onun bu mərhəmətinə qarşı necə təşəkkür edəcəyimi bilmirdim. Telefonla kimi isə danladı: "cəbhəçi ailələrinə belə kömək etdiyin üçün səni güllələmək də azdır", – dedi. Mən əvvəlcə ondan çox razı qaldım.

Ah, keşkə mən onun üzünü görməmiş olaydım. Keşkə hədiyyələr əvəzinə balalarıma zəhər içirdəydim.

Bir gün o məni evinə qonaq çağırtdırdı. Nə qədər "Sağ ol, təşəkkür edirəm", – dedimsə, məndən əl çəkməlidir.

Özü gəlib çıxdı: Hələ bir məni danladı:

– Görən nə deyər, Gülcamal xanım?.. Vətən yolunda həlak olan yoldaşımın ailəsinə mən ehtiram göstərməsəm kim göstərəcək?.. Mənim xanımım Gülzar da xahiş elədi, getməsəniz o çox məyus olar...

İstər-istəməz razı oldum.

Süfrəyə hər cür yemək düzülmüşdü. Başqalarının çətinliklə tapdığı şeylər, elə bil burda toplanmışdı. Gözlərimlə Gülzar xanımı axtarmağa başladım: o, evdə görünmürdü.

Mən üzümü ona tutdum. Gülə-gülə nəzakətlə soruşdum:

– Bəs xanımınız hanı?

O da mənə gülə-gülə cavab verdi:

– Bu dəqiqə gələcək. Siz əyləşin, qonşuda bir az işi vardı.

Mən bu günəcən ona ürəkdən inanırdım. Birdən nədənsə qəlbimə şübhə damdı. Başımdan min cür xəyal gəldi keçdi.

O səndən söz saldı:

– Hayıf oldu. Mən onu ali məktəbdən tanıyırdım. O zaman mən tələbələr komitəsinin sədri idim. Aslan on yaxşı tələbələrdən sayılırdı. Odur ki, sizə daima hörmət eləmək mənim vicdani borcumdur. Xalqın mərd oğullarına xüsusi qayğı lazımdır. Mən partiyanın əsgəriyəm. Bilirsinizmi, yoldaşlıq böyük şeydir. Ancaq mən köhnə qayda ilə yoldaşlıq eləmək tərəfdarı deyiləm. Əlbəttə bizdə xüsusi dostluq ola bilməz. Xüsusiyyətçi adamların dostluğu bizə heç bir zaman əl verməz.

Xülasə, deyəsən o məni qonaqlığa deyil, yoldaşlıq barədə əvvəlcədən hazırlanmış uzun bir mühazirəyə çağırmışdı.

Mən yenə səbir edə bilmədim:

– Bəs xanımınız nə yaman gec gəldi? – deyə xəbər aldım.

– Qonşudadır. Bu saat gələcək. Biz onu gözləməyib, başlaya bilərik... – dedi.

– Yox, nə üçün?.. Evin xanımı olmayan yerdə mən çörək yeməərəm, – dedim.

– O da sizin bacınız... Hər gün ona deyirəm ki, "Gülcamalla dost ol", bu rayondakıların hamısı çox geridə qalmış, qeyri mədəni adamlardır. Xalqımızı belə görəndə ürəyimdən od qalxır. Yanıram, yanıram, su içməkdən də lap təngə gəlirəm. Nə edəsən? Xalq üçün can yandırmasan, partiyanın necə əsgəri ola bilərsən?

Onun bu sözləri əlbəttə mənim xoşuma gəlmədi. Rayonumuzdakı adamları qeyri mədəni adlandıranda mənə çox toxundu. Müəllim yoldaşlarımı, tələbələrimi, şəhərimizin yüzlərlə ziyalılarını təhqir edərkən,

onun nə məqsəd izlədiyini başa düşürdüm. O, mənim nəzərimdə yalnız özünü mədəni, alicənab göstərmək istəyirdi. Daha bilmirdi ki, mən onun düşündüyü qədər də sadəlövh deyiləm.

O, süfrəyə yanaşdı. Bir qədəh götürüb qabağıma qoydu.

– Yaxşı deyil, səbir edin, – dedim, – xanımınızı gözləyək.

– Nə fərqi var ki? O da gəlib öz payını yeyər...

– Yox, yox, gözləyək, – dedim.

Nə qədər israr etdimsə olmadı. Qədəhimi doldurdu.

– Mən içmirəm. Zəhmət çəkməyin! – dedim.

– O nə üçün?

– Heç dilimə də dəymoyib.

O, qədəhini qaldırdı. Mənə yaxınlaşdı. Doğrusu bu an şübhələrim daha da artdı. O, qədəhini mənim qabağımdakı qədəhə vurdu.

– Gürcülərdə çox gözəl bir adət var, – mən özüm uşaqlıqdan internasionalist olduğum üçün başqa xalqların adətlərini də sevirəm. Gürcülər hər zaman vəfat etmiş əziz adamlarının xatirəsini yad etmək üçün, onların şərəfinə tost deyərlər. Bizim Aslan vətən yolunda canını qurban verdi. Birinci qədəhimizi Aslanın şərəfinə...

Mən dəli kimi ayağa qalxdım. Səni ölənlərin cərgəsinə yazan belə bir insan, mənə qızıl xəzinəsi bağışlasaydı da, mən ona yalnız nifrət edə bilərdim. O, məni elə bil dəhşətli yuxudan ayıltdı. Aclığım da, susuzluğum da yadımdan çıxdı. Ürəyim şiddətlə döyündü. Otaq başıma hərləndi. Gözlərimə qaranlıq çökdü. Elə bil kim isə qulağıma pıçıldadı: "Aldanma! Onun arvadı gəlməyəcək. O səni tora salmaq istəyir".

Qapıya sarı yönəldim. Açmaq istədim. Mümkün olmadı. Qapı bağlı idi. Açarı da üstündə deyildi.

– Açın! – dedim.

O gülümsündü. Mənə yanaşdı. Qolumdan tutdu. Mən sərt bir hərəkətlə ondan aralandım. – Toxunmayın mənə!.. – dedim. – Açın qapını!..

O açmadı. Mən elə qışqırdım ki, pəncərənin şüşələri səsləndi.

– Açın!.. – dedim.

O yenə də nəzakətlə mənə yanaşdı.

– Acıqlanmayın, Gülcamal xanım, – dedi, – mən aylardan bəri, lap rayona gəldiyiniz gündən, o qara gözlərinizin həsrətindən od tutub yanıram. İnsafınız yoxdurmu? Mən hələ yerli-dibli evlənməmişəm. Mən sizin məhəbbətinizlə yaşayıram. Bu sözləri eşidəndə elə bil başıma bir qazan qaynar su töküldü. O isə yenə deməyə başladı:

– Belə namuslu bir qadın, mənim kimi namuslu bir kişiyə layiqdir. Görürsünüz ki, mən özümü necə yaxşı aparıram?.. Heç ömrümdə başqa bir qadına gözümün ucu ilə da baxmaram. Siz nə üçün yaşamaq istəmirsiniz?..

Ürəyimin guppultusunu özüm də aydın eşidirdim.

– Açın, – dedim, – sonra axırı pis olar.

O, yenə qapını açmadı.

– Ölümə razı olaram burda oturmaram, – dedim.

– Nə üçün?

– Hələ bir soruşursunuz da...

O, birdən yumşaldı.

– Gülcamal xanım, – dedi, – mən sizə güldən ağır nə dedim ki?

– Rica edirəm, açın qapını!

O, məndən aralandı. Açarı gətirdi.

– Yaxşı, siz deyən kimi olsun, – deyib məni yola saldı.

Evə qayıtdım. Səhərə kimi ağladım.

Bu əhvalatdan bir gün sonra uşaqları evdə tək-tənha qoyub məni həbsxanaya apardılar. Məni gecəyarısı həbsə aparan adam xəbər verdi ki:

– Başqa yerə sürgün olunacaqsan!..

– Niyə? Nə üçün?

– Məlumdur, nə üçün. Aslan nemeslər tərəfə keçib...

– Yalandır! – dedim, – onun yoldaşlarından kağız almışam. O, vuruşmada həlak olub...

– Ancaq bizim əlimizdə məlumat var ki, o bir il bundan əvvəl könüllü olaraq düşmən tərəfə keçib...

– Bəs mənim uşaqlarım?

– Onları da sizə qatıb sürgün edəcəyik.

– Uşaqların günahı nədir?

– Xainin balaları da xain olar!..

Bu sözü deyən adam Rəhimzadənin yanında işləyirdi. Səsimünüm heç yana çatmadı. Ona nə dedimsə "yox" cavabını aldım.

– Bir parça kağız verin!..

– Yox, olmaz!

– Anama xəbər yollamaq istəyirəm. Uşaqlarım təkdir. Gəlsin, göz yetirsin!

– Yox, olmaz!

– Ərizə vermək istəyirəm.

– Yox, olmaz!..

– Nə üçün?

– Olmaz, vəssalam!

Bu adamdan qeyri heç kimi görmürdüm. Onda başa düşdüm ki, mənim həbs olunmağımdan nə prokurorun, nə Xalq Daxili İşlər Komissarlığı müvəkkilinin, nə də başqalarının xəbəri var.

Axşamüstü o özü mənim yanıma gəldi.

– Gülcamal xanım, – dedi, – görürsünüz ki, hökumət mənim əlimdədir. Sizinlə istədiyim kimi rəftar edə bilərəm.

Mən nifrətlə ondan üz çevirdim.

– Lakin bu müvəqqətidir, – dedim, – ölkə sahibsiz deyil. Mənim hayıfımı da alan olar.

– Bu dünya beş gündür. Sabah nə olacaq o məni maraqlandırmır. Bir də məni çoxdan tanıyırlar. Mənim sözümə hər yerdə inanırlar. Çünki...

– Çünki yaxşı tanımırlar. Əgər tanısaydılar, burada mən yox, sən oturardın.

– Ha, ha, ha!..

Ax, o nə qədər iyrənc idi!

Mən qəzəbimdən boğulurdum. Birdən o mənə yaxınlaşdı:

– Mən xalq yolunda can qoymuşam. Burada düşmənlər oturur – dedi.

– Sən ki, cavansan, dedim – xalqını sevən öz qüvvətini mənə deyil, cəbhədə düşmənə göstərər. Amma sən hələ küncdə-bucaqda gizlənirsən...

O yenə iyrənc bir səslə güldü:

– Belə lazım görülmüşdür!.. – dedi, – mən hələ xalqıma lazımam!..

– Cəbhədəkilərin hamısı lazımlı adamlardır. Mənim ərim səndən də böyük vəzifədə idi. Cəbhəyə könüllü getdi.

– O, xəyanət üçün getmişdir.

– Bu böhtan da sənə baha oturacaqdır.

– Aslan alman casusudur!

– Ən satqın casus sənsən!

O getdi. Ancaq bir Allah şahiddir ki, mən bir an sənin haqqında deyilənlərə inanmadım. Dünyanın o başına da sürgün olunsaydım, iradəm sarsılmazdı. Ancaq ürəyimə vurulan ləkə məni məğlub etdi, mən artıq yaşamaqda bir məna görmədim.

Sən təəccüb edəcəksən: "Ləkə nədir?" soruşacaqsan.

Bir gün sonra məni həmin adam Rəhimzadənin kabinetinə gətirdi. Mən düşündüm ki, yəqin nə isə soruşacaq, günahıma dair mənə yeni bir söz deyəcəkdir. O isə yenə nəzakətlə mənə yanaşdı:

– Olan olub, keçən keçib... – dedi, – gəlin, daşı ətəyinizdən tökün. Uşaqlarınız yazıqdır. Mən onlara atalıq edərəm... Mən sizi imtahandan keçirirdim. Belə namuslu qadın xalqımızın fəxridir.

– Çəkil!.. – dedim, – sənin tərifin mənim üçün ən böyük təhqirdir!.

– Elə isə həbsə gedəcəksiniz! – dedi".

Məktubun bu yerinə çatanda Aslanın gözləri qaraldı. Oxuduqlarına inanmaq istəmədi. Lakin Gülcamalın özünü yalnız bu hadisələr nəticəsində zəhərlədiyini xatırlayıb yenə qüvvətini toplayıb, məktubun son sətirlərini də oxudu.

"Məni ordan həbsxanaya yox, tanımadığım görmədiyim qaranlıq bir daxmaya apardılar. Mənim bu zaman necə dəhşətə gəldiyimi özün də təsəvvürünə gətirə bilərsən, əzizim... günahsız müqəssirlərlə belə rəftar edən bir rəzilin hələ yaşadığını düşündükcə öz-özümə deyirdim: "Yox, yox!". Lakin birdən acı həqiqət öz iti dırnaqları, quduz dişlərilə bərabər mənim qarşımda dayandı. Mənim nəzərimdə insandan çox heybətli bir kölgəyə bənzəyən o canavarın heykəli birdən-birə qarşımda göründü.

Mən bu dəfə necə çığırdığımı yazmaqda acizəm. Mənim səsim yalnız onu deyil, özümü də qorxutdu.

– Xoşluqla razı olmadınız, xanım, mənim zorum da yox deyil – dedi.

Yalnız bu sözləri eşitdim. Sonra nələr olduğunu xatırlasam da, yaza bilmirəm. Qələmimin ucu tez-tez kağıza batır. Gözlərimin yaşı mürəkkəb olub kağızın üstə tökülür. Ancaq mənim dərdimi mürəkkəb də, göz yaşı da ifadə etməkdən acizdir. Qolumun damarını kəsib, son sətirləri qırmızı qanla yazıram. Qoy, nələr çəkdiyim sənə əyan olsun, əzizim..."

Aslan qırmızı xətləri görəndə dəli kimi yerindən sıçrayıb qalxdı: "Yox, mən yuxu görürəm" – deyə fikirləşdi, əlini ürəyinin üstə qoydu. Birdən Gülcamal kimi onun da qarşısında bu həqiqət öz eybəcərliyi ilə dikəlib durdu.

Yox, o yuxu görmürdü.

Aslan səhərəcən yata bilmədi. O, intiqam saatını səbirsizliklə gözləməyə başladı. Qanlı vuruşma meydanlarında almanların arxasında,

qarda-yağmurda vətən torpağını qoruyarkən o, yalnız bir həqiqətə inanmışdı: "hayıf yerdə qalmaz", o buna əvvəlkindən çox inanırdı. Bəlkə elə bunun üçün də səbri tükənmişdi. Hər dəqiqə ona bir ildən belə uzun gəlirdi.

Sübh tezdən qalxıb çay hazırlayan qoca anası Aslanı bu halda görərkən təəccübdən böyümüş gözləri ilə baxdı:

– Bu nədir, ay oğul, sən hələ yatmayıbsan?.. – dedi.

Aslanın bədənində bir uçuntu vardı. Bəzən onun dişləri də bir-birinə dəyib şaqqıldayırdı.

– Sənə nə olub? – deyə anası bir də xəbər alanda, o heç bir söz deməyib cəld paltarını geyindi, tapançasını kəmərinə taxdı. "Mən ondan amansız bir intiqam alacağam. Yoldaş sözünü təhqir edən, böyük insan namusuna ləkə vuran o, xaindən yalnız mən deyil, bütün ölkə intiqam alacaqdır!" deyə həyəcanla düşündü...

XI

Aslan, Bakının yuxarısında gecə-gündüz işləyən böyük bir binanın mərmər pilləkənlərilə yuxarı dırmandı. Çoxdan gəlmədiyi otaqlarda hər kəs bir işlə məşğul idi. Aslan əsəbi addımlarla hamının tanıdığı, sevdiyi bir adamın otağına yanaşdı.

– Mən Aslan Haşımzadəyəm, – dedi.

Masa arxasındakı qadın gülümsəyib, nəvazişlə onun üzünə baxdı:

– Sizə kim lazımdır?..

– Yoldaş Cəfərovu görmək istəyirəm, – deyə Aslan cavab verdi.

Qadın böyük salonu göstərdi:

– İclasdadır, – dedi.

Aslan, izin almadan qapını açdı. Salona daxil oldu. İçəridə boş yer tapmadı. Geridə, ayaq üstündə durdu. Xitabət kürsüsündəki adamı görərkən, Aslanın gözləri kəlləsinə çıxdı: danışan Rəhimzadə idi.

– Vətən yolunda həlak olan qəhrəmanların ailəsinə qayğı göstərmək bizim vicdani vəzifəmizdir!"... – deyərək odlu-odlu əllərini ölçürdü.

Aslanın alışıb yanan gözləri salondakıların üzündə gəzdi. Onun səbirsiz axtardığı Cəfərov iclasda yox idi.

O, bu dəmdə qonşu otaqda telefonla danışırdı. Kim isə Gülcamalın əhvalatına dair ona məlumat verirdi.

Cəfərov saysız-hesabsız dövlət işlərindən vaxt tapıb bu məsələni də yoxladırdı.

O, telefonda danışarkən əsəbi halda papiros çəkir, hirsindən qırıq-qırıq nəfəs alırdı.

Birdən telefonun dəstəyini yerinə qoyub çox tutqun halda iclas salonuna gəldi. Xitabət kürsüsündəki natiqə baxdı. Onun iri gözləri sonsuz bir qəzəblə alışıb yandı:

– Mən hələ bilmirəm ki, sən nə üçün bu vaxta qədər güllələnməmisən?

Aslan da qeyri-ixtiyari dilləndi:

– Mən də bilmirəm, nə üçün?

Hamının gözü Aslana zilləndi.

Yanvar – Aprel, 1945

KƏRƏM ƏFSANƏSİ

Mən bu hekayədə köhnə bir igiddən danışacağam. Bir zamanlar böyük rus ədibi Maksim Qorki də onun mərdliyindən ilham almış, onun Qaf dağı kimi əyilməz, məğrur təbiətini tərənnüm eləmişdi. Bu igidi el arasında Qaçaq kərəm adı ilə tanıyırdılar.

Kərəm öz dəstəsilə bərabər dağlarda, dərələrdə yuva salmışdı. Onun qan düşməni İsrafil ağa da, özü kimi qüvvətli, cəsur bir adam idi. Yalnız bir fərqləri vardı: Kərəm çar divanından qaçaq düşmüşdü, İsrafil ağa isə çar himayəsində yaşayırdı.

Günlərin birində, hələ obalar yaylaqda ikən, Kərəm dəstəsini çəkib, arvad-uşağını görməyə gəlmişdi. Dostları dərələrə dağılışıb, paltarlarını çıxarmadan, aynalı tüfənglərini yanlarına qoyub yatmışdılar. Kərəm özü isə alaçıqda yorğan-döşək saldırıb, arvadının yanında uzanmışdı. Ağır və məşəqqətli səfərlərin yorğunluğunu unutmaq istəyirdi. Ancaq onun gözlərinə yuxu getmirdi. Düşmənini unuda bilmirdi. O, tez-tez sağa-sola çevrilir, sevimli arvadının ılıq nəfəsini duyduqca onun güngüzəranının olmadığına təəssüflənirdi.

Kərəm, gecədən xeyli keçmiş qalxıb, alaçıqdan eşiyə çıxdı. Gəzindi. Ətrafı yoxladı. Bütün oba sanki bir əbədi yuxuya getmişdi. Adətən sayıq yatan qapı itlərindən də səs-səmir gəlmirdi. Kərəm isə düşməninin *hər dəqiqə qəfildən hücum edə biləcəyini* düşünürdü. O, gəzinə-gəzinə, obadan bir az kənarda, hündür qayanın dalına girib keşik çəkən dostuna yanaşdı, qəsdən pıçıltı ilə soruşdu:

– Yatmısan ki, Mərdan?

Cavan qaçaq da yorğun idi, amma yatmamışdı:

– Xeyr, Kərəm dayı, – dedi. – Əgər yuxu məni üstələsə, barmağımı kəsib duz basaram!..

– Duzun varmı?

– Var, Kərəm dayı, – deyə Mərdan çuxasının vəznəsini göstərdi.

Yaralı barmağa duz basmaq, vəfalı dost nəzərində o qədər də böyük fədakarlıq deyildi.

Kərəm çəkməsinin uzun boğazından gümüş başlı çubuğunu çıxardıb, tənbəki doldurdu. Çaxmaq daşı itlə qov yandırdı, tənbəkini tüstülətdi. Kərəm Mərdana bir söz demədən, yenə gəzindi, yenə ətrafı dinlədi. Bu sakit, səssiz aləmdə hər şey rahat idi, yalnız Kərəmin ürəyi rahat

ola bilmirdi. Oba üzərini çən bürümüşdü, axşamüstü mavi göyün boşluğunda gözəl bir gəlin ədası ilə süzən ay indi hardasa gizlənmişdi.

Kərəm çox gəzib dolandı, tez-tez çəndən siyrilib çıxan yollara çox nəzər saldı, amma heç bir ins-cins gözünə dəymədi. Kərəm yenə də sakit ola bilmədi. "Görünür İsrafil ağa bizim gəlişimizdən xəbər tutmayıb, yoxsa indiyəcən harda olsaydı, dəstəsini çəkib üstümüzə gələrdi" – deyə düşündü və alaçığına qayıtdı.

Qaranlıqdan arvadının səsini eşitdi:

– Kərəm, gözümün nuru, gəl uzan, mən qalxıb keşiyini çəkərəm! – Vəfalı qadın köksünü ötürəndə, kədər dolu bir ah çəkdi. O, yaşarmış gözlərini göyə dikib Allaha yalvardı. – Ey böyük tanrı, mənim balalarıma rəhmin gəlsin!..

Kərəmin üroyi poladdan möhkəm, ipəkdən yumşaq idi. Arvadının xeyir-duası onu da qəhərlənirdi:

– Qəm yemə, Gülsabah, – dedi, – yaman günün ömrü az olar...

Qadın dinmədi. Ərinin səsindəki qəm nidaları onun qüssəsini daha da artırdı. Kərəm uzandı. Tüfəngini yorğanını üstünə qoydu. Azca yatmaq və dünyanın dərdini-kədərini unutmaq istədi...

Gecə o qədər uzun, saatlar, dəqiqələr o qədər ağırdı ki...

Nəhayət, Kərəmin gözləri qapandı. Şirin yuxu o mərd, o qüdrətli igidi də məğlub elədi...

Kərəm nə qədər yatdığını bilmədi. O, yalnız hava işıqlanmağa başlayarkən oyandı. İndi artıq qorxu azalmışdı. İsrafil ağa gündüz hücum fikrinə düşə bilməzdi. Kərəm yerindən qalxaraq, alaçığı tərk etdi. Obanın şimalında, dünən keşikçinin dayandığı qaya dibindən pıq-pıqla qaynayan muncuqlu bulağa tərəf getdi. Hələ gənc yaşlarından sevdiyi bu gur çeşmə, ən əziz xatirələrlə bağlı idi. Kərəm tüfəngini qayaya söykədi, patrondaşını açıb, daşın üstünə qoydu, çuxasının ətəklərini qatlayıb, kəmərinə keçirdi, qollarını çırmadı. Buz kimi soyuq suda doyunca əl-üzünü yudu. Əgər bu dəmdə güzgüyə baxsaydı, geniş alnındakı xəncər yerinin qaraşın saqqalına, uzunsov, qırxıq başına, qalın burma bığlarına, nə isə daxili bir kədərlə yanan iri, tünd qara gözlərinə neçə yaraşdığını duymamış olmazdı. At belinə qalxanda, saçaqlı papağı və qara yapıncısı onu nəhəng bir qartala oxşadırdı. Amma indi, bulaq başında yuyunan vaxt Kərəmi sadə və sıravi dəliqanlı kənd dəliqanlısından fərqləndirmək çətin idi. O, yaylıqla əlini-üzünü silib, daş üstündə oturdu, istər-istəməz dərin düşüncələrə daldı. Özünün, ailəsinin, dostlarının

taleyini fikirləşirdi və namərd zəmanəyə lənət oxuyurdu. Kərəm bilirdi ki, onu arvadından-uşağından, elindən-obasından didərgin salan da bu zəmanədir. İsrafil ağanı öldürsə də, həyat onun üzünə gülməyəcək. Kərəm gənclik illərində indiki kimi qaraqabaq deyildi. O, gülər, oynar, zarafatlaşardı. Qəhqəhə çəkəndə, qənd kimi ağ dişləri görünər, dağda-dərədə əks-səda verən səsi köhlən atın kişnəməyini xatırladardı. "Yox, görünür, alnıma belə yazılıbmış, eldən-obadan uzaqda, qürbətdə ömrümü başa vurmaqdan qeyri çarəm yoxdur", – deyə düşünərək, patrondaşını çiynindən aşırdı, tüfəngini də götürüb obaya qayıtdı.

Alaçığa girmək istəyəndə, qapıdan azca sağda çətənin dibində gözünə bir patron sataşdı. Kərəm duruxdu və dərhal, qeyri-ixtiyari patrondaşını yoxladı: "Bu, mənim deyil!" – deyə xəyalən yoldaşlarını danladı, böyük oğlunu yollayıb, onların hamısını çağırtdırdı. Bütün dəstə yığışandan sonra, əlindəki patronu yuxarı qaldırıb dostlarına göstərdi, töhmətli nəzərlərlə bir-bir onları süzərək, hamı eşitsin deyə ucadan soruşdu:

– Bu kimindir?

Qaçaqlar tez-tələsik patrondaşlarını yoxladılar. Kərəm bir də soruşdu:

– Kimindir, hə?

– Heç kəs patron itirməmişdi. Kərəmin rəngi kömür kimi qaraldı:

– Ay uşaqlar, – dedi, – bu gecə İsrafil ağa burdaymış... Məni vurmağa gəlibmiş... Ax, Mərdan, Mərdan... Bax, yaxşı gözdə-qulaqda olmamısan!

Mərdanın rəng-ruhu qaçdı: bir an belə onun gözünə yuxu getməmişdi.

Kərəm dedi:

– Məni o, çox asanlıqla vura bilərmiş, amma istəməyib... Bilirsinizmi niyə?

Qaçaqların gözlərində sanki eyni sual yazıldı: "Niyə ki?"

Kərəm öz sualına cavab vermədi. Onu dinləyənlər içərisində arvaduşaq da vardı. Kərəm əmr elədi:

– Gedin, atlanın! Dağlara çəkilək. İsrafil ağa da, kazaklar da hər dəqiqə başımızın üstünü ala bilər...

Yoxsa Kərəm qorxurdu? Əlbəttə, yox. O, bütün obanın gülləbaran olunmağını istəmirdi.

Qaçaqlar atlanıb, yola düşdülər. Bir az gedəndən sonra oba görünməz olanda, Kərəm atının qantarğasını çəkdi, maralgözlü, ceyranyerişli

kəhər ayğır şahə qalxaraq yanakı dayandı, o biri atlıların yolunu kəsdi. On iki nəfərin gözü Kərəmə dikildi. Hamı diqqət kəsildi. Kərəm dedi:

– Ay uşaqlar!.. İsrafil ağa gecə ikən obaya gəlibmiş... Ancaq məni vurmayıb. Bilirsinizmi nə səbəbə, hə? O, mənim düşmənim də olsa, əsil igiddir... Məni arvadımın yanında gördüyü üçün fikrindən daşınıb... Bu patronu da o atıb... Demək istəyib ki, səni öldürə bilərdim, amma arvadına bağışlayıram. Mən ona bir borclu!..

Dəstə yoluna düzəldi, uzaq dağlara istiqamət aldı...

Ay keçdi, il dolandı. Kərəm İsrafil ağaya rast gəlmədi. Yaz günlərinin birində, obalar yaylağa köçməyə başlayanda, Kərəm öz dəstəsilə kəndə üz tutan zaman, yolda qəfildən çar kazakları ilə qarşılaşdı. Qanlı vuruşma oldu. Qaçaqlar yaxşı səngərlənə bilmədilər. Yoldaşlarından ikisi vuruldu. Kəndə girmək fikrindən əl çəkdilər, həlak olmuş yoldaşlarının meyitini götürüb, yenə dağlara qalxdılar. Kərəmin də, dostlarının da göz yaşı sel kimi axdı. Bundan sonra qaçaqlara batmaq çətin idi. Onların üstünə bir alay qoşun da yerisəydi, Kərəmin halına təfavüt eləməzdi, çünki qaçaqlar dallarını sıldırımlı bir dağa söykəmişdilər, hücuma keçən düşməni isə bircə-bircə biçib-tökə bilərdilər. Amma Kərəm buralarda çox dayanmaq fikrində deyildi. Dəstənin azuqəsi qurtarmışdı. Ac-susuz qalmamaq üçün uzaq bir yerə çəkilib hökumət adamlarının nəzərindən yayınmalı idilər.

Kərəm Arazın o tayına keçdi. Bütün yayı Təbrizdə qaldı. Arvadından-uşağından ayrı yaşamaq həm Kərəmin özü, həm də yoldaşları üçün çox çətin idi. Qaçaqlar sözü bir yerə qoydular, həmişəlik İranda qalmağı bu məqsədlə şaha namə göndərməyi qərara aldılar. Lakin təbrizli qardaşları bunu məsləhət görmədilər. İran şahı ilə Rusiya çarını nəzərdə tutaraq:

– İt-itin ayağını basmaz!.. – dedilər.

Bu sözlər Kərəmin beyninə batdı. O, yenə öz mahalına dönməli oldu. Qanundan kənar yaşamaq artıq onu təngə gətirmişdi. Ancaq o, nə edə bilərdi? Üzə çıxıb hökumətə təslim olsaydı, ya dar ağacından asılacaq, ya da on azı qarlı Sibirə ömürlük sürgünə göndəriləcəkdi. kərəm bunu yaxşı bilirdi. Axı özü də, yoldaşları da yüzlərcə bəy, yasavul kazak öldürmüş, dövlətli mülkədarların xanımanına od vurmuş, tacirləri soyub, əlsiz-ayaqsız insanlara kömək eləmişdilər. Kərəm bilirdi ki, çar məhkəməsi onların günahını heç vaxt bağışlamayacaq, "Ədalət naminə"

zülmün, zorakılığın tərəfini saxlayacaq. Bəs Kərəm nə etməli idi? Bu sual onu bir gün yox, iki gün yox, aylarla, illərlə düşündürmüşdü.

Dəstə Arazın bəri tayına keçib, yenə yaylaqlara üz tutdu. Kərəm ömründə bu qədər qəmgin və ümidsiz olmamışdı. Obalar arana köçürdülər. Dağların döşü ilə uzanan dar, əyri-üyrü yolları qoyun sürüləri tutmuşdu. Hər tərəfdə hay-haray qalxmışdı. Yanıqlı mahnı səsləri yamaclarda əks-səda verirdi. Kərəm də, yoldaşları da bədbin idilər. Qürbət diyarlarda sərgərdan gəzməkdən artıq cana doymuşdular.

– Ən uzağı ölümdür!.. – deyə obalarına dönmək, heç olmasa arvad-uşaqları ilə son dəfə görüşmək istəyirdilər.

Birdən Kərəmin gözləmədiyi bir hadisə baş verdi. Dağ yolunda qan düşməni İsrafil ağaya rast gəldi. İsrafil ağanın obası dolama yolla dağdan enirdi. Göy mahuddan vəznəli çuxa geymiş, ceyrandan iti, maraldan göyçək, səkil atına minmiş İsrafil ağa, çiynində aynalı tüfəng, özü kimi silahlı dostlarının əhatəsində, köçün qabağında gəlirdi. Kərəm onu lap uzaqdan tanıdı. Yoldaşlarına dönərək:

– Atdan düşün, daşa girin!.. – deyə ucadan səsləndi.

Qaçaqlar bir göz qırpımında onun əmrini yerinə yetirdilər, özləri də, atları da görünməz oldular.

İsrafil ağa yaxınlaşırdı. O, at belində necə məğrur oturmuşdusa, Kərəmin ürəyində qibtə oyadacaq qədər qamətli və gözəl görünürdü. Kərəm intiqam saatının gəlib çatdığını düşündü, kinlə qarışıq bir sevinc duyaraq, tüfənglərini hazır tutmuş dostlarına müraciət elədi:

– Uşaqlar, mən deməyincə atmazsınız ha!..

İsrafil ağa qaçaqların düz bərabərinə çatanda, Kərəmin əlləri yanına düşdü:

– Atmayın, uşaqlar!.. – dedi, amma özü nə üçünsə tüfəngin şeytanından barmağını çəkmədi.

İsrafil ağa nəyə isə gülürdü. Dostları da onun kimi şad və xürrəm idilər. Kərəm isə qəzəbindən titrəyir, belə bir fürsəti əldən verməyə məcbur olduğuna hirslənirdi.

– Eyyy, İsrafil!.. – deyə qaçaq Kərəm boğuq və titrək bir nida ilə düşməni səslədi. – Mənəm. Borcumu verməyə gəlmişəm!..

İsrafil ağa bir an, yalnız bircə an özünü itirən kimi oldu, ancaq tezcə də tüfənginə əl atdı. Lakin artıq gec idi. Tərkindəki oğlan uşağı hərəkətini ləngitmişdi.

– Mən borcumu ödədim!.. – deyə Kərəm bu dəfə artıq fərəhini boğa bilməyib, dəli kimi qəhqəhə çəkdi, sanki onun atsayağı kişnədiyi gənclik illəri geriyə qayıtdı. – Mən də səni körpənə bağışladım!.. Sür atını, get. Lənət bu fani dünyaya! Lənət bu zəmanəyə!..

İsrafil ağa da əl saxladı. Yoldaşları da əl saxladılar. Hamısı Kərəmi tanımışdı. Üzünü görməsələr də, tanımışdılar. Bir də ki, güllə atmağın heç bir faydası yox idi. Onsuz da hədəfi görmürdülər. Kərəm də, yoldaşları da qaya dalında möhkəm səngərlənmişdilər.

Köç uzaqlaşdı. Kərəm, deyəsən, dərdini-qəmini unutmuşdu. O, qeyri-ixtiyari, saçaqlı papağını gözünün üstünə endirdi, məlahətli və zil səsi ilə bir-iki ağız bayatı dedi...

1959

ŞEYTANIN BARMAĞI

Təmsil

Çox qədim zamanlarda yoxsul bir kəndli vardı. Onun cındırından cin hürkürdü. Özü də arıq və cılızdı. Ha əlləşirdisə, kasıblığın daşını ata bilmirdi, hətta taxılını döymək üçün də başqalarından qoşqu heyvanı istəməyə məcbur olurdu. Qonşusundan ikicə günlüyə aldığı öküzləri vələ qoşub, arpasını döydü, dənini ikitəkərli arabaya yükləyib, dağ ətəyindəki kəndin dəyirmanında üyütməyə apardı. Bir çətən külfəti acından batırdı. Fikri bu idi ki, necə olursa-olsun, bu axşam özünü dəyirmana yetirsin, yalvar-yaxarla dənini üyüdüb, gecə ikən də evinə qayıtsın. "Sən saydığını say, gör fələk nə sayır!" – deyiblər. Kəndli nə qədər tələsirdisə, öküzlər bir o qədər səbirli yeriyir, bəzən də üzə durub yolun ortasında dayanır, tənbəl-tənbəl quyruqlarını tərpədir, kəndlinin hay-hüyünü sanki eşitmirdilər. Kəndli qan-tər içində idi. Qırışlarla örtülmüş alnında tumurcuqlanan tər damcılarını əlinin tərsilə silməkdən yorulmuşdu. Günün istisindən az qala yazığın başı çatlayırdı. Öküzləri qırmancla döyəcləməkdən təngə gəlmişdi. Yolun kənarında kölgəli bir yer də yox idi ki, arabanı açıb, dincini alsın. Heç yerdə otdan, göyərtidən də gözünə dəymirdi ki, öküzləri bir az otarıb, sonra yola düşsün. Bu halda, tərs kimi, öküzlərdən biri soncuq atmağa başladı, arabanı o yan-bu yana dartaraq, yoldan qırağa çıxartdı, çökəyə tərəf sürüdü. Araba kəlləmayallaq aşdı. Kəndli özü də zərblə ağzıüstə yıxıldı və istər-istəməz "lənət sənə kor şeytan!.." – dedi.

Elə bu vaxt kor şeytan yoldan aralı, kiçik bir təpənin dalında oturub, balalarını yemləyirdi. Kəndlinin arabasını da görür, səsini eşidirdi. O öz-özünə deyirdi: "Ey xəbis insan, nə qədər ki, mən varam, sən heç vaxt öz həyatından razı qalmayacaqsan, əzab-əziyyət ömürlük sənin yoldaşın olacaq. Mən hər yerdə, hər zaman sənin keyfinə soğan doğramasam rahat ola bilməyəcəyəm. Mənə lənət oxuduqca, özünə ziyan verəcəksən!.."

Kəndli yıxıldığı yerdən qalxanda, üz-gözü qana bulaşmışdı. Nə qədər çalışıb-çapaladısa da, arabanı çökəkdən çıxara bilmədi. Öküzləri açdı. Arabanı qaldırıb, yola tərəf sürmək istədi. Amma gücü çatmadı. Yazıq-yazıq ətrafına boylandı, köməyə çağırmaq üçün adam axtardısa da, heç kəs gözünə dəymədi.

Şeytan onun fikrini dərhal başa düşüb, tez-tələsik insan cildinə girdi, təpənin dalından çıxıb, kəndliyə sarı gəldi, qəmgin bir görkəmlə salam verdi.

– Ay bədbəxt! – deyə başını bulayıb, nırçıldadı, kəndlinin dərdinə şərik oldu. – Axı, nə üçün gəlib bura düşmüsən? Düz yolla gedə bilməzdinmi? Mən olmasaydım kim imdadına çatacaqdı?

Şeytan kəndli ilə köməkləşib arabanı yola tərəf çəkməyə başlayanda, qəsdən təkəri daha dərin bir çökəyə saldı. Bu dəfə arabanın oxu xarıltı ilə dibindən qırıldı. Kəndli yanıqlı-yanıqlı əlini dizinə çırpıb, ucadan deyindi:

– Lənət sənə kor şeytan!.. Bu nə işdi mən düşdüm?

Şeytan yenə təəssüflə başını bulayıb, ah çəkdi:

– Doğrudan da adamın sənə yazığı gəlir. Neyləyim, qardaş? Əlimdən gələni əsirgəmədim. Günün bu istisində yoldan da qalıb, sənə kömək elədim. Başqa çarən yoxdur, gərək özünü tez kəndə yetirib, ayrı bir ox gətirəsən, mən də burda oturub, öküzlərin keşiyini çəkəm.

Kəndli yenə kor şeytana lənət deyə-deyə yola düzəlib, uzaqlaşdı. O, dərəyə enəndə, şeytan libasını dəyişdi, balalarının yanına gəldi. "O gedib-qayıdana kimi şər qarışacaq, sonra da boz qurd gəlib öküzləri təhərə çəkəcək" – deyə sevinclə düşündü.

Şeytanın balalarından biri məyus-məyus köksünü ötürüb, anasından soruşdu:

"Ay ana, de görüm sən niyə belə bədbəxtsən? Niyə insan övladı, bir balaca işi düz gətirməyəndə, sənə lənət oxuyur? Sən ki, burdaca oturub bizi yemləyirdin. Axı, günahın nə idi ki, o, səni yamanlayırdı?

Şeytan özünə məxsus bir hiyləgərliklə gülümsədi, tək gözünü qıyıb, uşağına mənalı-mənalı baxaraq dedi:

– Bala, kəndli tayfası çox bic tayfadır. O, öz düşmənini səndən də, məndən də yaxşı tanıyır. Doğrudur, mən burda oturmuşdum, sizi yemləyirdim, amma barmağım öküzün quyruğunun altında idi. Axırda onu elə qıdıqladım ki, soncuq atıb, arabanı yoldan kənara çəkdi. Mənə də elə bu lazım idi. Bəs necə eləyə idim? Gərək mənim barmağım bir iş görsün, ya yox? Əkin əkən deyiləm, biçin biçən deyiləm. Allahın dərgahından qovulalı ayrı sənət tapa bilmirəm. Bəs necə olsun? İnsan yaxşı-yaxşı işlər görsün, mən də durum baxım?

Şeytanın balası təəccübdən donub qaldı. Deməyə söz tapmadı. Amma fikir onu götürmüşdü. Sonradan-sonraya, ürəyinə nə gəldisə, yeməyinə ara verdi:

– Ana, – dedi, – belə çıxır ki, kəndli səni yerində söyürmüş. Olmazmı ki, bu çirkin əməlindən biryolluq əl çəkəsən, özünə başqa bir peşə tapasan?

Şeytan dedi:

– Olmaz, bala, olmaz. Əgər mən bu əməlimdən əl çəksəm, onda şeytanlıqdan çıxıb adam olaram.

1959

RƏQİBLƏR

I

– Necə, necə? Nə buyurdunuz? Usta Heybəti öldürsəniz də ürəyiniz soyumaz?

– Bəli, soyumaz! Niyə də soyusun? And olsun, əlimə fürsət düşsəydi, onu lap çarmıxa çəkərdim!..

Yox, inan mən bu sözlərin ürəkdən gəldiyinə inanan bilmirdim. Amma qəribə idi ki, usta Pirvəli nə əsəbiləşirdi, nə də hissə qapılırdı. Əksinə, həmişəki kimi, yenə də səbirli və soyuqqanlı idi. Eşitmişdim, görməmişdim: acığını üzə vurmayan insanların qəzəbi doğrudan da dəhşətli olurmuş. Usta Pirvəlini tanımayan bir adam bu dəqiqə onun sakit, lakin rəhmsiz baxışlarını görsəydi, düşünə bilərdi ki, bu qoca öz rəqibini çarmıxa çəksə uf da deməz. Elə əslinə baxsan, az qalmışdı mən də onun barəsində fikrimi dəyişim, sanki o, mənim nəzərimdə artıq indiyəcən yaxşı tanıdığım, xətrini istədiyim, hər dəfə görəndə ehtiramla salamladığım məşhur usta Pirvəli deyildi. Sadəliyinə, mehribanlığına və alicənablığına çoxdan bəri heyran olduğum bu insan birdən-birə nə üçün belə dəyişmişdi? Hansı təsadüfi və ya mühüm bir səbəb onu Heybət kimi köhnə bir dostundan üz döndərməyə məcbur eləmişdi? Bu barədə ona sual verməyə hazırlaşırdım ki, o gözləmədiyim halda, geriyə döndü, zorba pəncələrini ağır-ağır döşəməyə basaraq, qapıya doğru addımladı.

– Usta!.. – deyə mən əlimi qeyri-ixtiyari yuxarı qaldırıb, dayanmağını xahiş elədim.

O, çiyni üzərindən mənə baxıb, ayaq saxladı:

– Buyur!

– Buyurmaq yox, ərz eləmək istəyirəm, – dedim. Zahirən çox sakit görünsəniz də nədənsə qəzəblənmisiniz. Bayaqdan bəri danışdığınız sözlər də sizə heç yaraşmır. Nə olub ki?

Yuxusuzluqdan kiçilmiş və qızarmış göz qapaqları büzüşdü. Qalın dodaqlarında kinayəli bir təbəssüm titrədi, mis rənginə çalan, dolğun və ətli yanaqları dartıldı, bütün sifətinə boğuq bir qızartı çökdü, alnının sərt qırışla örtülmüş dərisi xal-xal oldu.

– Hımm... Guya bilmirsən? Lap yaxşı bilirsən, məndən də yaxşı... Ancaq mən qarnım üçün deyiləm, qədrim üçünəm. İndiyənətən belə

fikir eləyirdim, Heybət də mənimkidir, ona nə versələr, mənim də payım var. Amma indi baxıb görürəm, yox, məni gözdən salırlar. Bu cəhənnəm, mənim gördüyüm iş də gözdən düşür. Bu ədalətsizlik gərək Heybətin özünü qəzəbləndirəydi. Bir halda ki, o dinmir, deməli vicdanı təmiz deyil!..

– Bildim, usta, bildim nə deyirsən.

O, görünür, elə bu sözə bəndmiş. Bir an içində səbri də, təmkini də yox olub getdi. O, səsinə güc verdi:

– Bəs sən rəisimiz deyilsən? Niyə ağzına su alıb oturmusan?

– Usta, – dedim, – ordeni də, fəxri adı da mən vermirəm. Siyahıları mən düzəltmirəm... Özün bilirsən ki...

O, sözümü ağzımda qoydu. Yenə də ağır, amma zəhmli addımlarla stoluma yanaşdı, sağ əlini sırıqlı pencəyinin cibindən çıxartdı, mənə doğru meylləndi. Düşündüm ki, məni yalançı adlandırıb, vəl tayına bənzəyən zorba və qabarlı əlini çiynimə endirəcək, sümüklərim xurd-xəşil olacaq. Mən o dəqiqə müvazinətimi itirdim və özümü bu təhlükədən qurtarmaq üçün təsirli bir ifadə tapdığımı güman eləyib, kəkələdim:

– Aaa, usta, ömrünüzdə heç adam öldürmüsünüz?

Elə bunu demiş oldum. Qocanın dodaqları səyridi. Nəfəsi daralmış kimi kəsik-kəsik soruşdu:

– Nə?.. Nə?.. Nə dedin?

Mən cavab üçün söz tapmadım. Canımı üşütmə aldı. Udqunmaqdan başqa çarəm qalmadı. O, mənə lap yaxın gəldi.Saysız-hesabsız qığılcım saçan qonur bəbəklərindən gözümü ayırmağa məcbur oldum. Bu dəfə də səsini yavaşıtdı, lakin israrla tələb etdi:

– Bir də de görüm!

Aramızdakı gərginliyə dözmək üçün dəmir əsəb lazım idi. Bir neçə dəqiqə də susub ona cavab verməsəydim, usta Heybətim qisasını məndən alacağına heç bir şübhə ola bilməzdi. Onun hər səsində bir xırıltı da eşitdim:

– Bir də de!

Mən sualımı təkrar elədim:

– Soruşurdum ki, ömrünüzdə heç adam vurmusunuz?

O, gözlərimin içinə rəhmsiz bir hədə ilə baxdı. İki-üç dəfə başını buladı:

– Yox, – dedi. – Sən onu soruşmadın. Niyə belə tez yadından çıxdı?

Artıq hər bir sözümə irad tutduğunu görəndə, zorla gülümsədim.

– Usta, – dedim, – axı belə dostluq olmaz. Hər kəlməmdən yapışıb bu cür tərs danışmaq nə üçündür? Birdən-birə xasiyyətiniz elə dəyişdi ki...

Bu sözlərim də xətrinə dəydi. O, aramışdakı dostluq tellərini qırmağa təəssüflənmədən, səsinə daha yabançı bir ifadə verdi:

– Boş danışırsan! Kişinin xasiyyəti dəyişməz. Mən hər gün bir cildə girən, əldə qayırma kişilərdən deyiləm. Sən soruşdun ki, adam öldürmüşəm, ya yox? Doğrudur, sən universitet oxumusan, mən kəmsavadam, ancaq vurmaqnan öldürməyin təfavütünü bilirəm. Söz məsəli, məni heç kim vurmayıb, amma diri gözlü öldürmək istəyənlər olub... Mən adam vurmağına vurmuşam, ancaq bir Allah bəndəsini öldürmək xəyalına düşməmişəm. Bax. Bunu görürsən? – Usta sağ əlini irəli uzadıb gözümün qənşərində oynatdı. – Vuranda bərk vurmuşam. Mənim düdəmeyi-hindiyəmi yeyən çul kimi yerə sərilib, amma ölməyib... Ölməyini istəməmişəm. Mən sənin üçün nəyəm məgər? qulduram, yoxsa cəllad?

– Usta, – deyə mən ona cavab verəndə, nə qədər istədimsə, səsimin titrəyişini gizlədə bilmədim, belə görünürdü ki,canımdakı üşütmə hələ tamam yox olub getməmişdi. – Axı, mən nə quldur sözünü dilimə gətirdim, nə cəllad...

– Hələ bir gətirmək də istəyirdin?

Gözlərim onun əlinə zilləndi. Çiynimə dəyəcək zərbədən vaxtında yayınmaq üçün bir az da geriyə çəkilmək məsləhətdir. Deyəsən, o qorxduğumu yalnız indicə hiss eləyib, əlini şalvar cibinə saldı və qəhvəyi rəngli tütün qutusunu çıxardıb, uzun bir papiros bükdü, dodağı ilə kağızı yalayıb, zor-güc yapışdırdı, döş cibindən çıxartdığı patron çaxmaqla papirosunu alışdırdı, qəzet kağızının hisli tüstüsünü havaya buraxdı və yalnız bundan sonra ürəyini boşaltdı.

– Özgə vaxtı haqdan, ədalətdən dəm vurursunuz. Camaat qabağında danışanda, ağzınıza çullu dovşan sığışmır, bəs nə tövr olur ki, birinin haqqını verəndə, o birisi yadınıza düşmür?.. Bax, mən deyənə yaxşı mültəfit ol. Ömrümdə şöhrət və mükafat üçün işləməmişəm. Hələ bir yerdə bu barədə danışdığımı da görən olmayıb. Ancaq mənim yüzdən çox şagirdim var. Hərəsi bir peşə sahibidir. Orda-burda pıçıldaşırlar ki, yaxşı işlədik, olduq Pirvəli. Ona nə qiymət qoyublar? İndi gəl, əyri

oturaq, düz danışaq. Heybət məndən artıq neyləyib? O, əlli buruq qazıbsa, mən altmışını qazmışam. O, qırx il fəhlə olub, mən qırx iki il olmuşam. Dənizdə beş quyusu var, mənimki səkkizə çatır. Bəlkə uşağı çoxdur? Yox, burda da ondan geri deyiləm, intəhası mənimkilərin üçü qız, biri oğlandır. Heybətinkilərin biri qız üçü oğlandır. Nə olar ki? İndiki qızların hərəsi bir iyidə bərabərdir!.. Bəlkə o partiyanı, dövləti məndən çox istəyir. Bunu da deyəmməz!

Mən onun könlünü almaq üçün ürəkdən təsdiq elədim:

– Əlbəttə, usta, əlbəttə! Siz saçınızı xalq yolunda ağartmısınız. Siz bunu deməsəniz də, mən bilirəm!

– Sən bilirsən, görünür bilmiyənlər də var!

– Yox, usta, bu nə sözdür? Siz nə danışırsınız?

Bu təsəllim onu daha da haldan çıxartdı. Hirsli-hirsli papirosunu sümürüb, kötüyünü bükmələdi və mənim külqabıma atdı:

– Nə danışıram? Düz demirəm, vur başımı yar!.. Yoxsa mənə danışmağı da qadağan eliyəcəksən? Bəlkə, mən yığıncaqlarda az boşboğazlıq elədiyimə görə günahkaram! Bayram oldu, Heybət tribunada, qurultay oldu, Heybət prezidiumda! Qəzetdə Heybət, jurnalda Heybət, radioda Heybət, kinoda Heybət! Az qalıb ki, televizoru da Heybətin evinə köçürdələr. O gün qarım soruşur ki, "Ay Pirvəli, niyə sənin baxtın gətirməyib? Niyə sənin haqqını alıb, Heybətə veriblər?" Mən də özümdən çıxıb, ona dişimin dibindən gələni dedim... Sonra da peşman oldum. Uzun götür-qoydan sonra gördüm ki, yazıq arvadın heç günahı yoxmuş... Şəxsiyyət, şəxsiyyət deyib dururşunuz. Elə o zamandan mənim başım qapazlı olub. Niyə ki, durub filankəsi tərifləməmişəm, deməmişəm ki, sən olmasan, biz batarıq... Görürsən ki, onsuz batmadıq!..

Mən onun sözlərinə qüvvət vermək istədim:

– Axı, ay usta, – dedim, – ancaq o, fikrimi düz başa düşməyib, az qala qışqırdı:

– Sözümü kəsmə! Ömrümdə bir yol da mən boşboğazlıq eləsəm, dünya dağılar?

– Usta, ay usta...

– Görünür, ustalıq azmış, gərək dil ustası olmağı bacarasanmış! – deyə o, yaşına o qədər də uyğun gəlməyən bir çevikliklə döndü və mənimlə vidalaşmadan çıxıb getdi.

II

O günün sabahısı usta Pirvəlinin dəniz buruğuna getməliydim. Ancaq dünənki söhbətimizdən sonra tərəddüd eləyirdim, düşünürdüm ki, indi o, hər sözümdən inciyir və əsəbiləşir. Aradan üç-dörd gün keçsə yaxşıdır, qoy bir az hirsi soyusun, mənim günahkar olmadığımı başa düşsün, görsün ki, mənə o cür ağır cavablar qaytarmaqla o qədər də haqlı deyil. Usta Pirvəli kimi adamlar adətən, hər növ saxta qürur hissindən uzaq olurlar, dünən tutduqları ədalətsiz işin bu gün dərin peşmançılığını çəkirlər, nahaq incitdikləri adamlardan bəzən hətta üzr belə istəyirlər. Mən buna inandığım üçün, bir qədər səbr eləməyi qərara almışdım, ancaq gündüz növbəsinin qazmaçısı Qürbət Kərim mənə zəng eləyib dedi ki, hələ dünən səhər gətiriləsi gematiti gözləməkdən gözümüzün kökü saralıb, avara-sərgərdan qalmışıq... Mən telefonda danışa-danışa ayrı bir səs də eşidirdim, başa düşürdüm ki, Pirvəli özü onun böyründə dayanıb, diktə eləyir, Qürbət Kərim isə onun sözlərini artırıb-əksiltmədən, tutuquşu kimi təkrar eləyir:

– Qazma idarəsində oturan tiplər, bizim sözümüzü bu qulaqlarından alıb o qulaqlarına verirlər. Siz niyə onlara demirsiniz ki, burdakı camaat öz atalarının xeyri üçün işləmir? Bax, Pirvəli dayı sürəndürməçilərin əlindən zəncir çeynəyir. Nə deyirsən, usta?.. Hə, deyir ki, məni cin atına mindirməsinlər, özüm telefonu götürüb, aləmi birbirinə qataram!..

Dünəndən bəri mən də bu fikrə gəlmişdim ki, daha bu gündən sonra usta Pirvəli heç nədə güzəştə getməyəcək, əlinə fürsət düşən kimi, buruğun işini bir balaca ləngidənlərin hamısını qılınclayacaq, lap mənim özümə də aman verməyəcək. Qürbət Kərimə dedim ki, bu saat yoxlayım, görüm, nə üçün belə səhlənkarlıq eləyiblər. Dübarə daxili telefonla qazma idarəsinə zəng elədim, bununla da kifayətlənməyib, qayıqlarımız dayanan körpüyə getdim. Fəhlələr başqa avadanlıqla bərabər gematiti də gəmiyə yükləyirdilər. Mən onları salamlayıb gülə-gülə dedim ki, usta Pirvəlini tanımırsınız, niyə dünən söz verib onun yanında bu cür yalançı çıxmısınız? Onların bəzisi gülür, amma çoxusu işdən ayrılmayıb, eyni sürətlə yük qaldıran iri kranın çanağına avadanlıq hissələri bağlayırdılar. Gəminin kapitanı deyəsən, hamıdan çox tələsirdi.Bunun səbəbini özü açıb söylədi:

– Usta Pirvəli mənə ağır söz demir, ancaq elə tərs-tərs baxır ki, atamın goruna söysə, min pay bundan yaxşı olar... Dünən günah bizdə olmadı, yoldaş rəis, gəminin motorunda bir balaca təmirat aparmalıyıq. Pirvəlinin gematitini srağagündən gətirmişdilər. Ondan tək mən qorxmuram, Allah göstərməsin, əlinə girəvə düşsə, əcdadımızı qəbirdən çıxardar...

Mən bir saatdan çox gözlədim. Nəhayət hər şeyi yükləyib qurtardılar. "Nə olar, olar, cəhənnəmə ki!" – deyib, özüm də buruğa yola düşdüm.

Orada vəziyyət Qürbət Kərimin dediyi kimi deyildi. İşi dayandırmamışdılar. Heç kim də avara oturub gematit gözləmirdi. Usta Pirvəli bir növ profilaktik tədbir görmüşdü. Yəni sabah ona gərək olan ağırlaşdırıcı materialı indidən tələb eləmişdi. Bizi qarşılayan qürbət məni görəndə, pərtləşib gözlərini yerə dikdi. Hələ bir qızardı da... Yəqin ki, yalan danışdığına görə onu danlayacağımı güman eləyirdi. Ancaq mən, bu cür işləyən ustalara ürəyimdə haqq verirəm, çünki qazma sürəti çox vaxt təchizatın gecikməyi nəticəsində azalır. Mən Qürbət Kərimə bir söz demədim. Elə bil aramızda bu barədə heç söhbət olmamışdı.

Qürbət mənə təşəkkür elədi:

– Çox sağ olun, yoldaş rəis, – dedi. – Ehtiyatımız qurtarırdı. İndi ürəyimiz yerinə gəldi.

Usta Pirvəli gözümə dəymirdi. Hesabla gərək mən sevinəydim, ancaq istər-istəməz məndə onu görmək və dünənki söhbətdən sonra yumşalıb-yumşalmadığını öyrənmək arzusu oyanmışdı. Qürbət Kərimdən soruşdum:

– Bəs ustanız hanı?

– Papiros çəkməyə gedib...

Fikrimə gəldi ki, "Məni uzaqdan görüb, qəsdən gizlənib... Hə, deməli acığı soyumayıb..." Gözlərimi dolandırıb onu axtardım. Yox, görünmürdü. Buruğu gəzdim, fəhlələrlə salamlaşdım, hal-əhval bildim. Deyəsən burda usta Pirvəlidən başqa hamısı mənim xətrimi istəyirdi. On iki illik təcrübədən bilirdim ki, bilavasitə istehsalatda çalışan fəhlələr arasında yaltaq və riyakar adamların sayı yox dərəcəsində azdır. Əgər onlar sənə "Yoldaş rəis, sağ olun" deyirlərsə, bu yalnız ürəkdən gələn bir sözdür. Bu cəhətdən mən usta Pirvəlinin briqadasını nümunəvi sayıram, burda çalışan fəhlələrin heç biri mənim

də, başqa yoldaşlarımın da qüsurunu mərd-mərdanə üzümüzə deməkdən çəkinməz. Buradakıların bəzisi məni çoxdan tanıyır. Ali məktəbi qurtarandan sonra buruq ustası olmuşdum. O vaxt yalnız onlar mənə yox,mən də onlara isinişmişdim. Belə insanların etimadını qazanmaq çətindir, amma hədsiz dərəcədə xoşdur...

Köhnə adətim üzrə, buruqda hər şeyə nəzər saldım. Baltanın qət elədiyi məsafə ilə maraqlandım. Usta Pirvəlinin dili vardısa, dilçəyi də vardı. Bu günün normasından iki yüz metr də artıq qazmışdılar. Buruğun hər səliqə-sahmanı öz yerində idi. Bu cür briqadaları görəndə, adamın yorğunluğu yadından çıxır, papirosu bir-birinin oduna yandırmırsan, iştahan açılır, hər tərəf sənə gözəl, şairanə görünür, insanlara rəğbətin birə-on artır. Evə gələndə, arvad-uşaq da kefi kök olduğunu hiss eləyib sevinir.

Mən briqadanın işində irad tutulası heç nə tapmadım. Uşaqdan-böyüyə hamı öz yerində idi. Mexanizmlər yağ kimi işləyirdi. Usta Pirvəlinin məndən küsülü kimi ayrılıb getməyi, indi mənə daha çox yer eləyirdi.

– Sizə baxanda, adamın ürəyi dağa dönür, ay uşaqlar, – dedim. – Bəs usta Pirvəli gecə evinə getməmişdi?

Mən bunu Qürbətdən soruşdum, amma açarçı Yəhya cavab verdi:

- Yox.

– Niyə ki?

– Dünən axşam nəsə çox pərt idi. Gələn kimi hamımızı çağırdı. Cibindən qəzet çıxartdı. İyirmi ikinci qurultayın açılışı gününə dair birinci səhifədə iri hərflərlə yazılmış sətirləri ucadan oxudu. Dedi: "Raport-zad verməyəcəyik. Gurultu-partıltı qoparmayacayıq. Boynumuza öhdəçilik-filan da götürməyəcəyik. Amma qurultay açılan vaxt gərək normamızı ikiqat ödəmiş olaq. Kimin sözü var?". Biz heç nə demədik. Onun da, bizim də çox danışmaqla aramız yoxdur. Biz həmişə beləyik: Bizim əvəzimizə rəqəm danışır!.. – Yəhya harasa baxdı, dərindən nəfəs aldı: nəyə isə təəssüf eləyirdi. – Bilmirəm, ustaya nə olub, dünən axşamdan qaşqabağı heç açılmır... Elə hey öz-özünə deyinir: "Nahaq, lap nahaq... gərək bu barədə danışmayaydım. Bu cür axmaq iş tutduğum heç yadıma gəlmir". Bir yol özündən xəbər aldım ki, usta, nə axmaq iş, nahaq nəyə deyirsən? Gözümün içinə baxdı, sonra başını buladı, dedi ki, heç, bir səhv elədim, keçənə güzəşt deyərlər...

Bu söhbət əsnasında buruğa motorlu bir qayıq yan aldı. Hamımız o tərəfə baxdıq. Gələn usta Heybət idi. Ürəyim guppuldadı. Bir yol tapıb, rəqiblərin görüşməyinə mane olmalıydım. Qorxurdum ustalar cavanların yananda savaşarlar. Mən fəhlələrdən aralanıb, usta Heybəti özüm qarşıladım.

– Hara belə, usta?

– Yüz doqquza gedirəm. Dedim, bir Pirvəlinin də qulluğuna salam verim, ürəyimi boşaldım.

Mən özümü bilməməzliyə vurdum.

– Nə barədə?

Heybət mənmi böyrümdən adlayıb, fəhlələri salamladı:

– Ə, ağıllı ustanız hardadır? – dedi və mənə tərəf döndü... – Ay yoldaş rəis, gəl, sən də şahid ol. Pirvəliyə bir neçə yağlı sözüm var... Ə, hanı bu Pirvəli ağa?

Bu anda qoca usta elə bil yerin dibindən çıxıb, Heybətin qabağında dikəldi:

– Əleykəssalam, mən burdayam, – dedi. – Ağıllı, ya dəli, olanım budur. Mənə çoxdan ağalıq verilib.

Cavanlar gülüşdülər. Ustalarının hər sözündən xoşlandıqlarını görməmək mümkün deyildi. Deyəsən onlar bu söz güləşdirməkdə usta Pirvəlini qalib sayırdılar. Heybət də bunu görüb, azca tutulan kimi oldu. Pirvəlinin qolundan bərk-bərk yapışıb, mədəni budkaya doğru çəkdi, bir-iki addım gedib, yenə mənə sarı boylandı:

– Gəl, sən də şahid ol!.. – dedi.

Mən onların söhbətindən xeyir gözləmirdim. "Savaşsalar aralaşdıraram" fikri ilə mən də getdim. Yaxşı ki, növbənin fəhlələri o saat dağılışdılar və ustaların görüşünə maraq göstərmədilər.

Taxta divarları qəzet və jurnallardan kəsilmiş rəngbərəng şəkillərlə bəzədilmiş budkanın sağ küncündə, divara yaxın döşəmədə elektrik sobası qoyulmuşdu. İçəri isti idi. Üstünə qalın abı kağızdan süfrə salınmış balaca stolun qırağında elektrik çayniki pıqqıldayırdı. Lüləsindən fışqırtı ilə çıxan buxar, divarın kağızında əl boyda yeri islatmışdı. Usta Pirvəli çaynikin qapağını götürdü. Buxarın istisi üzünü yandırmasın deyə, başını yana sarı əydi. Sobanın böyründəki əl çantasından çay çıxartdı və bir ovuc götürüb, çaynikə atdı, yenə qapağı örtdü.

– Buyurun, bəyəndiyiniz yerdə oturun, – deyə stolun arxasındakı skamyada əyləşdi.

Mən də usta Heybətlə yanaşı onunla üzbəüz oturdum.

Söhbəti usta Heybət başladı:

– Orda-burda niyə kölgəmi qılınclayırsan, balam? Nə vaxtdan bəri dalda danışmağa öyrəşmisən?

Usta Pirvəli özünü eşitməməzliyə vurdu. Aşağı əyilib, çantasından təzəcə ütülənmiş, sarı haşiyəli çay dəsmalını götürdü və səliqə ilə qatlayıb, çaynikin üstünü örtdü. Mənə elə gəldi ki, qonaqlarına çay verməmiş söhbətə girişmək heç könlündən deyildi. Ancaq Heybət tələsirdi. O, heç birimizə müraciət eləmədən, yenə eyni incik halda soruşdu:

– Bilmək olmaz ki, mənim günahımın adı, nədir? Yaxşı, bu çayniki az qurdala. Mən bura çay içməyə gəlməmişəm, termosum doludur...

– Mən çayı özüm üçün qoymuşdum, sənə zorla içirtməyəcəyəm!.. – deyə Pirvəli də rəqibinin üzünə baxmadan tütün qutusunu çıxartdı, kəhrəba rəngli saçaqlı tütündən bir xışma götürüb, qəzet kağızında uzun və yoğun bir papiros eşdi. – O ki, qaldı kölgəni qılınclamağıma, bu barədə tamam yanılmısan, özün dura-dura kölgəni niyə qılınclayıram?

– Niyə, axı, nə səbəbə?

– Tələsmə, bu saat hamısını deyəcəyəm. – Pirvəli, qəsdən ağır-ağır, təmkinli bir əda ilə danışırdı, elə bil bununla da usta Heybətin səbir kasasını daşdırmağa çalışır və bundan qəribə bir zövq almaq istəyirdi. Papirosunu çaxmaqla yandırıb, iki-üç dəfə dərindən qullab vurandan sonra, yenə eyni arxayınlıqla sözünə davam elədi: – Bilmirəm sənə kim nə deyib, amma öz dilimdən eşitsən yaxşıdır.

Mən özümdən arxayındım. Usta Pirvəli ilə söhbətimizin məzmununu ona deməyə nə imkan tapmışdım, nə də belə bir fikrim vardı.

– Mənə xəbər verən öz qarın olub... Dünən zəng eləmişdim, deyirdi ki, radioda yüz yol səni tərifləyəndə, bir yol da Pirvəlini tərifləsələr, Allaha xoş getməz. Sonra da başladı ki, axırda bir-birinizə düşmən olacaqsınız... Əgər evdə bu barədə söhbətiniz olmayıbsa, qarın dünyasında belə deməzdi... Mənə hər dəfə ordendən, addan veriləndə, hamıdan əvvəl son gələrdin, lap dənizdə də olsaydın, telefonla təbrik eləyərdin... On gündür poçtalyonlar evimin kandarını ağardıblar. Bəs niyə səndən səs çıxmır?

– Bura bax, a kişi... gəlsənə qanımı qaraltmayasan. Qara məni basınca, mən qaranı basım, buna deyiblər, ha... Nə düşmüsən üstümə?

Usta Heybətin sümükləri çıxmış yanaqları kül rənginə çalırdı. O, tez-tez müsahibinin sözünü kəsməyə meyllənir, amma deyəsən yalnız mənə hörmət üçün güclə özünü saxlayıb, barmaqlarını stola döyə-döyə yumru və qabarıq gözlərini rəqibinə zilləyərək, tez-tez hülqumunu qıldırıb-salırdı. Usta Pirvəli isə qərarından keçməyib, papirosunu bir də sümürdü:

– Bilirsən niyə məndən səs çıxmır? Ürəyimdən deyil, ona görə!..

– Paxıllıq eləyirsən? Deməli belə? Yaman tərs başlamısan!

– Tərs niyə? Bu saat lap düzünəqulu deyim, sən də eşit...

– Eşidirəm.

– Davanın vurhavur vaxtında dənizdəki buruğun güclü fontan vurdu, on gün keçməmiş Qızıl Bayraq ordeni aldın. Düzdür?

– Düzdür.

– Mənim də buruğum bütün Bakıya səs saldı-salmadı? Bəs mən nə aldım? Heç nə. Düzdür?

Heybətin gözləri aşağı dikildi. O, cavab verməyə söz tapmadı, əlini çəkib dizinin üstünə qoydu.

– Hə, niyə dinmirsən?

– Yaxşı, düzdür... Orden vermədilər. Kalan mükafat aldın. Əsginas!..

– Mən pul gözləmirdim. Qara günü üçün ehtiyat görən köpək oğlanlarından zəhləm gedir. Nə qədər mənim hökumətim var, mən kefin istəyən qədər qazanacağam. Mən də orden gözləyirdim. Başa düşdün, ya yox?

Pirvəli dirsəklərini stola söykədi və stol əlinin çeçələ barmağını qatladı:

– Deməli bu bir... Ondan bəri dörd quyu sən qazmısan, hamısının dərinliyi üst-üstə doqquz min metrdir, mən də dördünü qazmışam, dərinliyi on iki min metrdir. Bunlardan birini gematitsiz qazımışam. Düzdür?

– Düzdür, – deyə Heybət dodağının ucu ilə təsdiqlədi.

– Eşitmədim, bir az ucadan de!

– Canım-gözüm, düzdür! Mən bunu danmıram ki?

– Səni Sosialist Əməyi Qəhrəmanı elədilər. Döşünə Lenin ordeni, üstəlik də Qızıl ulduz taxacaqlar. Mənim adımı it dəftərinə salmadılar. Düzdür? – Usta Pirvəli o biri barmağını qatladı: – Bax, bu da iki... Düzdür, düz deyil?

Usta Heybət müsahibinin doğru ittihamlarına dözə bilməyib nəhayət bozardı.

– Əşi, bu adı mən verirəm? Nə düşmüsən mənim üstümə?

– Sən vermirsən, doğrudur. Amma de görüm harda, kimin yanında demisən ki, haqsız iş görürsünüz? Deməmisən ki?.. Yox, deməmisən! Yaxşı, bundan sonra sənin kişiliyinə inanmağa mənim nə haqqım var?

– Bura bax, Pirvəli, mən indiyətən səni tanımamışam. Nə yaman şöhrətpərəstsənmiş, buynuzun içindəymiş... – deyə Heybət nazik dodaqlarını bir-birinə bərk qısaraq, başını buladı.

Bu anda Pirvəlinin üzünə baxmaq və heç olmasa bircə dəqiqə ondan göz çəkməmək hər oğulun hünəri deyildi. Onun sir-sifəti, iynədən də bərk sancan gözləri od tutub yanırdı, hətta iri əlləri də xəfif titrəyirdi. mənə elə gəlirdi ki, o ordenlə təltif olunmamağından və şərəfli ada layiq görülməməyindən daha artıq Heybətin axırıncı sözlərindən incimişdi. Yox, onun şöhrətpərəstliyi haqqında deyilən sözlər, ədalətdən çox-çox uzaq idi və mən açıq-aydın hiss eləyirdim ki, usta Pirvəlini bu dəqiqə haqsız ittihamdan qorumasaydım, mənə özüm də odalətsiz iş görmüş olacaqdım.

– Yox, ay usta, – deyə mən söhbətə qarışdım və əlimi Heybətin çiyninə qoydum. – Siz haqsızsınız. Tamamilə haqsızsınız. Dünən usta Pirvəli gözəl bir söz dedi: "Mən qarnım üçün yox, qədrim üçünəm". Mən inanıram ki, bu doğrudan da belədir.

Görünür mənim bu cür müdafiəm də usta Pirvəlini razı salmadı. O, sönmüş papirosunu qabağındakı külqabına basıb, nə isə birdən kövrələrək, daha doğrusu, qəhərlənərək dedi:

– Yox, oğul, mən qədrim üçün deyiləm. Onu deyirəm ki, məndən cavan fəhlə yoldaşlarım var, şagirdlərim var. Onlar mənə baxanda, işdən soyuya bilərlər, belə fikir eləyərlər ki, bütün ömrünü camaat yolunda qurban verən bu kaftarın qədrini nə bildilər ki, bizim də yaxşı işimizə nə qiymət qoysunlar. İndi başa düşdün, bu qoca vaxtımda mən niyə xərifləmişəm?.. – Usta Pirvəli armudu stəkanlara çay tökdü. – Əşi, bu qan qaraldan söhbətləri buraxın, getsin...

Uzun və yorucu sükut zamanı aşağıdan dəniz ləpələrinin şırıltısı eşidildi.

– Doğrudan da xərifləmişəm, – deyə usta Pirvəli yenə əyildi və çantasından qənd qutusunu çıxardıb ortaya qoydu. – Buyurun, için. Hava soyuqdur, canınız qızsın...

Usta Heybət məyus-məyus dilləndi:

– Mən bura sənnən dalaşmağa gəlməmişdim. Yarış müqaviləsi bağlamaq istəyirdim.

Pirvəli stəkanını ovcunun arasına aldı, ağzına yaxınlaşdırdı:

– Yox, bağlamayacağam, – deyib, bir qurtum çay içdi. Mən təəccüblə soruşdum:

– Niyə ki, usta?

– Çünki mən ondan çox irəlidəyəm. Mən – yəni briqadam. Müqavilə bağlamaq üçün elə bir tayımız da yoxdur. Ancaq biz yarışmağına yarışırıq.

– Gəl indi bu tapmacanı tap... – deyə Heybət, yəqin ki, qeyri-ixtiyari stəkanı özündən araladı.

– Sən buna tapmaca deyirsən, ancaq mən demirəm.

Doğrusu, usta Pirvəlinin sözləri mənə də tapmaca kimi görünürdü. Deyəsən o, baxışlarımdakı sualı oxuyub, bu dəfə çox mülayim halda Heybətə üz tütdü:

– Get, briqadanı yığ. Hamını başa sal ki, Pirvəli heç kəslə də müqavilə bağlamaq fikrində deyil... – O yenə bir qurtum çay içib, mənə müraciət elədi. – Bilirsən niyə, yoldaş rəis? Ona görə ki, mənim müqaviləm yetmişinci ilnəndir... Hayıf ki, texnikamız mən deyən kimi işləmir, yoxsa lap soksəninci ilnən yarışaram... – Bayaqkı ağır söhbəti tamam unutmuş kimi, qəribə və səmimi bir təbəssümlə usta Heybəti dürtmələdi. – İndi başa düşdün ya yox, ay adlı-sanlı qəhrəman?

Usta Heybət birdən ayağa qalxdı:

– Belə görünür ki, məndən çox yanıqlısanmış, – dedi. Az qala qanımı içməyə hazırsanmış.

Bu sözləri deyə-deyə qapıya yaxınlaşanda, usta Pirvəli, yenə qaşqabağını töküb, sox dəyişmiş, bir qədər tutqunlaşmış səsi ilə onu çağırdı:

– Ay Heybət, başqasına mən bu sözləri deməzdim. Bir rəisimizə, bir də sənə deyirəm, daha bundan sonra bir daş altda, bir daş üstə... Gəl çayını iç. Getmə. Qayığın balacadır, tufan qalxar, bir xata çıxardar...

O geriyə baxmadan:

– Nə olar, olar... Hələlik!.. – deyib qapının ardında görünməz oldu.

Usta Pirvəli isə gözlərini yerdən qaldırmır, iştahı küsmüş kimi çayını könülsüz içir, təkdənbir burnunu çəkir, deyirdi:

– Sən də deynən, nahaq gedir. Mən bilirəm, bu dəniz neçə qudurğandır...

III

Biz mədəni budkadan çıxanda, soyuq xəzri hər an şiddətlənir, dalğalar köpüklənməyə başlayırdı. Usta Heybətin qayığı isə buruqdan xeyli aralanmışdı. Pirvəli papağının qulaqlarını aşağı saldı, sırıqlı pencəyinin düymələrini bağlaya-bağlaya, qayığın dalınca baxdı:

– Lap nahaq getdi, – dedi. – Biz sahildən o qədər uzaqda deyilik. Amma yenə də tufan olanda burda qalmağa ehtiyat eləyirik, gör indi onun buruğunda nə qiyamət qopacaq. Ağlı olsa, gedib çatan kimi camaatını yığıb geri qayıdar.

– Nə bilmək olar, usta, – dedim. – Bir də görürsən külək xırp kəsdi, tez qayıtdığına da peşman oldun...

Usta Pirvəli başını buladı, deyəsən ürəyinə nə isə dammışdı. Buruğa tərəf gedə-gedə, gözlərini üfüqdə qaralan qayıqdan ayırmırdı.

Doğrudan da on dəqiqə belə keçməmiş xəzri tamam çılğınlaşdı. Sahildən cəmi-cümlətanı bircə kilometr uzaqda, yəni usta Pirvəlinin buruğunda işi dayandırmalı oldular. Uzaqdan bəriyə doğru şütüyəndə dağ kimi ucalan dalğalar buruğu kökündən qoparmaq dərəcəsinə gəlirdisə, deməli, 109-cu quyunun vəziyyətini yalnız təhlükəli saymaq azdı. Böyrümüzdən keçib sahilə tərəf üz qoyan digər qayıqların dalğaları necə çətin yararaq irəlilədiyini və az qala suyun tərkinə düşüb gözdən itdiyini görəndə bunu daha aydın başa düşürdüm.

Artıq mən də həyəcan içində idim. Dəniz buruqlarından fəhlələri sahilə daşıyan qayıqlara baxdıqca, usta Heybətin taleyini daha çox düşünürdüm. Adətən, beş baldan artıq külək əsəndə mexanizmləri dayandırmalı, fəhlələri dərhal sahilə daşımalı idilər. Keçən il baş vermiş təbii fəlakətdən sonra bu barədə xüsusi bir əmr də verilmişdi.

Mən usta Pirvəlidən ayrılıb, geriyə döndüm, mədəni budkaya getdim, radist ilə usta Heybətin buruğunu tutub radioqram verdim: "Adamları bu dəqiqə sahilə çıxardın!"

Lakin yenə də ürəyim sakit olmadı. Budkadan usta Pirvəlinin yanına gələnəcən, iki yerdə külək az qala məni vurub dənizə salmışdı. Ağac məhəccərdən ikiəlli yapışmasaydım, kos kimi suya düşməyim labüd idi.

Qoca usta işi dayandırmışdı. Tez-tez uzaqlara baxır, dodağının altında, pıçıltı ilə, bəlkə də ixtiyarsız olaraq "nahaq getdi, lap nahaq" deyib, astadan köksünü ötürürdü. O, birdən həyəcanını biruzə verdi:

– Camal, oğul, – deyib, mənə üz tutdu. – Mənim məsləhətimə qulaq as, əmr elə, qoy onun dalınca "Bakı fəhləsi" katerini yollasınlar.

Onun fikrini başa düşmək çətin deyildi. Demək istəyirdi ki, indi xırda-xuruş qayıqlara buruğa yan almaq olmaz. Fəhlələr ölüm-zülüm bu qayıqlara minə bilsələr də, sağ-salamat üzüb sahilə çıxa bilməzlər.

– Düz buyurursan, usta, – dedim. – Tez olun, yığışın, gedək, təcili tədbir görək.

Hamımız qayığa doluşduq və kapitanı tələsdirib, sahilə yola düşdük. Biz hələ mənzilə çatmamış, körpüdən yüz əlli, iki yüz metr bəridə "Bakı fəhləsi" ilə qarşılaşdıq. Görünür, qazma idarəsinin işçiləri bizdən cold tərpənib, uzaqdakı buruqlara təcili kömək yollamışdılar...

Bu dəmdə mən istər-istəməz usta Pirvəliyə baxdım. Onun qaşqabağı daha yerlə getmirdi. Hətta arabir gülümsəyirdi.

– "Bakı fəhləsi" gedəndən sonra, daha qorxusu yoxdur... Xəzərin öhdəsindən bircə o gəlir!..

IV

Usta Pirvəlinin də, mənim də sevincim yersizmiş. Dəniz son iyirmi beş ildə görünməmiş bir fəlakət törədib, açıq dənizdəki buruqlardan bir neçəsini, o cümlədən də usta Heybətin 109 nömrəli kəşfiyyat buruğunu uçurmuşdu. Hava xidməti idarəmizdən alınan məlumatda deyilirdi ki, külək on üç bala çatır, "Bakı fəhləsi"ndən göndərilmiş radioqram daha dəhşətli idi: Usta Heybətin briqadasından iki nəfər ölümcül yaralanmış, özü isə həlak olmuşdu...

Bu xəbər tək məni yox, bütün qəsəbəni, çox keçməmiş bütün Bakını sarsıtdı.

Ustanın cənazəsini, yaralıları və o biri fəhlələri gətirən "Bakı fəhləsi" körpüyə yaxınlaşanda mən də sahildə idim. Dəniz qırağında iynə salmağa yer yox idi. Heybətli səslə uğuldayan Xəzərdə sanki yerlə göy birləşirdi, amma qəsəbə sakinləri ardı-arası kəsilməyən bir izdiham kimi sahilə axışırdılar. Qazma idarəsinin əməkdaşları, rayon rəhbərləri, evlər yıxan küləyə sinə gərərək gözlərini yavaş-yavaş körpüyə yan alan gəmiyə zilləmişdilər.

Bu səhnəyə ürək ağrısı duymadan tamaşa eləmək çətindi. Elə bil hamının qəddi bükülmüşdü. Ancaq hələ də çoxları usta Heybətin ölüm xəbərinə inana bilmirdilər. Əllərində xərək, bir-birinin ardınca gəmiyə

adlayan sanitarlar, əvvəlcə yaralıları, sonra, lap axırda üz-gözündə qan laxtalanmış və gözlərini əbədi yummuş usta Heybəti gətirməsəydilər, yəqin ki, sahildəki izdiham, qocanın ölüm xəbərini adi bir şayiə sayacaqdı.

– Ə, bir yol verin!.. – deyə camaatı aralayıb, axırıncı xərəyə doğru yönələn adamı tək mən yox, sağımda, solumda dayanmış o biri yoldaşlar da gördülər. Nəfəs-nəfəsə kütləşmiş yüzlərcə insanı asanlıqla yarıb irəliləyən, burdakıların hamısından iki daban uca, bahadır cüssəli kişini qəsəbə sakinləri usta Heybətdən az tanımırdılar. O məndən də qabağa keçdi və xərəyin önünü kəsdi:

– Dayanın! – dedi.

Sanitarlar bu əmrdən çıxa bilməzdilər. İrəlidə dayanmış nazik, uzun sanitar, ehtiramla, yalvarış dolu bir nəzərlə onun üzünə baxdı və yalnız özünün eşidə biləcəyi pıçıltı ilə xahiş elədi:

– Pirvəli dayı, yol ver!


Lakin o, yol vermədi. Sanitarlar xərəyi yerə qoymağa məcbur oldular.

Hamının gözü Pirvəliyə zillənmişdi. Nə isə deyəcəyini gözləyirdilər. Lakin usta Pirvəli heç nə demədi, xərəyin yanında diziüstə qapandı, rəqibinin cənazəsini qucaqladı və tük ürpərdən bir səslə hönkürdü.

Bu vaxt bütün izdihamdan şivən qopdu.

Adətdir... pəhləvanlar ağlayanda, bütün el-oba ağlayır.

1964



YERALTI ÇAYLAR DƏNİZƏ AXIR

BİRİNCİ HİSSƏ

Səmirə Aydın bizim köhnə dostumuzdu. Mənim arvadım Gülnisa xanımla orta məktəbin birinci sinfindən ta axırıncı sinfinə qədər bir skamyada oturmuşdu. O vaxtdan bəri sirləri-söhbətləri də bir olmuşdu. Yaxşı yadımdadır: bizim toyumuza dostların hamısından əvvəl o gəlmişdi. İlk sevgilisi Müdhətlə də mən o axşam tanış olmuşdum. Səmirə orta məktəbi bitirəndə on yeddi yaşına yenicə girmişdi. Ona gözəl demək çətindi, amma çirkin də deyildi. Qara, yumru və bir az çıxıq gözləri vardı. Kiçik ağzının sağ tərəfi həmişə yuxarıya dartılmış kimi görünüdüyündən, nazik dodaqları elə bil gülümsəyirdi. Bu ifadə onun sifətinə nə isə xüsusi bir məlahət verirdi. Qalın və sıx qaşlarının tən ortasında qaralan xal qələm ucundan təsadüfi düşmüş mürəkkəb damcısını xatırladı. Deyib-gülməyi, çalıb-oynamağı yaman sevirdi. Bəstə boyuna görə ayaqları da göyçək idi. "Ceyranı" havasının lirik ahənginə uyaraq süzəndə dirsəyə qədər açıq qolları ilan kimi qıvrılır, bütün bədəninin sümükləri elə bil əriyib yox olurdu. Onun rəqsi tək məni və Gülnisa xanımı yox, çoxlarını heyran qoyurdu. Toy məclisimizə gəlmiş qızlar arasında özünün zahiri gözəlliyi ilə onu kölgədə buraxanlar vardısa da, onun kimi məharətlə piano çalan və onun qədər zərif oynayan yox idi. Bizim toyumuza hamıdan çox o rövnəq verirdi. Müdhət isə həm uca, həm də gözəldi. Onun ağıllı, iri gözləri, geniş alnı, gur və qıvrım saçları, enli kürəyi məclisdəki qızların ürəyində Səmirəyə qarşı həsəd oyatmaya bilməzdi. Onunla Səmirə yanaşı dayananda, gənclərdən bəziləri Hüseyn Cavidin gurultulu bir müvəffəqiyyətlə səhnədə göstərilən "Səyavuş" əsərindən məşhur, qanadlı misraları xatırlayırdılar:

Bir göyərçin əsir etdi qartalı
Gözəllik naminə, sevgi naminə!..

Bu sözün deyilişindən çox vaxt istehza sezilirdi. Mən bunu açıq-aydın hiss eləyirdim, bəzən hətta pıçıltı ilə deyilən ayrı-ayrı sözlər də mənim qulağıma çatırdı: "Gözünü dağlayım, bu cücənin nəyinə vurulmusan?" Belə bir sual yalnız Müdhətin ünvanına deyilə bilərdi. Səmirə onun yanında boy-buxundan çox kasıb görünürdü. Ancaq mən öz-özümə deyirdim ki: "Könül sevən doğrudan da gözəl olurmuş..."